AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## III KİTAB

**(Səməd Behrəngi və Bəhruz Dehqaninin ana dilində topladığı nağıllar)**

BAKI – 2014

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Folklor İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur.**

**Layihənin rəhbəri:** **AMEA-nın müxbir üzvü**
**Muxtar KAZIMOĞLU (İMANOV)**

**Elmi redaktoru və**
**ön sözün müəllifi:** **fil.ü.f.d. Mətanət Maşallahqızı**
**(ABBASOVA)**

**Güney Azərbaycan folkloru, III kitab.** Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014, 228 səh.

Kitaba Güney Azərbaycandan toplanmış folklor örnəkləri daxil edilmişdir.

folklorinstitutu.com

A $\frac{4603000000}{098-2014}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2014

# ÖN SÖZ

Azərbaycan mədəniyyəti tarixin müəyyən dönəmindən iki müxtəlif məkanda – Şimal və Cənub siyasi-coğrafi məkanında inkişaf etsə də, eyni xalqın milli-mənəvi düşüncə, təfəkkür bütövlüyünü qoruyub saxlamışdır. Müxtəlif ictimai-siyasi şəraitə düşməsindən asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan folkloru ümumtürk etnokulturoloji özəlliyini əks etdirmişdir. Şimalda Sovet siyasi rejimi, Cənubda Pəhləvi rejimi, heç şübhəsiz, xalqın mədəniyyətinə ideoloji baxımdan öz təsirini göstərmişdir. Siyasi rejimlər xalqın mənəviyyatı və taleyi üçün nə qədər təhlükəli olsa belə, xalq minillərdən gələn özəl dəyərləri, ilkinliyə, soy-kökə bağlılığı yaşatmışdır. Bunun ifadəsi kimi istər Şimali, istərsə də Cənubi Azərbaycanda xalqın milli-mənəvi oyanışı nəticə etibarilə onun yaradıcılıq enerjisini daha çox folklor üzərində kökləmiş, məhz şifahi xalq ədəbiyyatı xalq ruhunun özünüifadəsinə çevrilmişdir.

Təsadüfi deyildir ki, bu dövrdən başlayaraq Cənubda ayrı-ayrı Azərbaycan ziyalıları, yaradıcı şəxslər mənəvi irsin araşdırılıb təbliğ edilməsi kimi milli vəzifəni öz boyunlarına götürmüşlər. Belə vətənpərvər yazıçı-publisistlərdən biri də 1950-60-cı illərdə Cənubda Azərbaycan folklorunun toplanması, tərcümə və təbliği işinə böyük əmək sərf edən Səməd İzzət oğlu Behrəngi olmuşdur. Səməd Behrəngi 1939-cu ilin iyununda Güney Azərbaycanın Təbriz şəhərinin Gerendab məhəlləsində yoxsul bir ailədə anadan olmuşdur. İlk təhsilini Təbrizdəki "Dəbristani-Tərbiyət və Daneşsərayi"də almış, məktəbi bitirdikdən sonra Tufarqan mahalının Mamağan,

Guqan və s. bölgələrində ibtidai məktəb müəllimi kimi çalışmışdır.

1956-1961-ci illərdə Səməd Behrəngi Təbriz Universitetinin filologiya fakültəsinin ingilis dili şöbəsində təhsilini davam etdirmişdir. Xalqın tarixi keçmişini, folklor və ədəbiyyatını mükəmməl bilən, ona xüsusi həssaslıqla yanaşan S.Behrəngi hələ tələbəlik illərində "Xənde" ("Gülüş") adlı həftəlik divar qəzeti buraxmış, ilk ədəbi-tənqidi və satirik qələm təcrübələrini də məhz bu dövrdə yazmışdır. Sonralar ictimai-siyasi, mənəvi-ideoloji prosesləri izləyən ədib dövrünün tanınmış qəzet və jurnallarında S.Qaranquş, Çingiz, Babək, Behrəng, S.Adam, Solma və s. təxəllüslərlə çıxış etmişdir. Ədəbi-ideoloji münaqişələr, Cənubda kütləvi düşüncə fəallığı və s. Behrənginin bədii əsərlərinin də mövzusuna çevrilmişdir. Siyasi qadağalar, senzura şəraitində vətənpərvər ədib daha orijinal bir yol seçmiş, kiçik yaşlı məktəblilər üçün nağıllar yazmaqla, xüsusilə alleqoriya və təşxislərə yer verməklə örtülü şəkildə öz fikir və düşüncələrini yaymışdır. Böyüklərin də ayrıca marağına səbəb olan bu nümunələr sevilə-sevilə oxunmuşdur. Ədibin ilk hekayələri – "Adət", "Binam" 1959-cu ildə dərc olunmuşdur. 1967-1969-cu illər ərzində "Ulduz və qarğalar", "Cuğundursatan oğlan", "Balaca qara balıq" və s. Adda hekayə və nağıllar yazmışdır. S.Behrənginin "Balaca qara balıq" kitabı 1968-ci ildə Uşaq Kitabları Şurası tərəfindən qiymətləndirilərək "İlin kitabı" seçilmişdir. Müəllimlik fəaliyyətinə başladığı illərdən ömrünün sonuna qədər S.Behrəngi Azərbaycan nağıllarının toplanması, fars dilinə tərcümə olunması üzərində çalışmış, həmkarı Behruz Dehqanı ilə birlikdə həmin nağılları nəşr etdirmişdir.

Səməd Behrəngi kənd-kənd, oba-oba dolaşaraq xalq ədəbiyyatı nümunələrinin toplanması işinə böyük həvəs göstərmiş, onların yazıya alınaraq qorunması qayğısına qalmışdır. S.Behrənginin toplayıcılıq işi əslində Cənub folklorunun zəngin irsinin öyrənilməsinə vermişdir. Qeyd edək ki, toplayıcılıq fəaliyyəti ədib üçün heç də asan olmamışdır. Pəhləvi rejiminin yaratdığı təhlükələr, söyləyicilərin daha çox qadınlardan ibarət olması və bu baxımdan onlarla söhbətlərin aparılmaması və s. toplama işində yaranan çətinliklərin başlıca səbəbləri sırasındadır. Səməd Behrənginin tələbələrindən olan İ.D.Mamağani bu xüsusda müəllimi ilə bağlı xatirələrində yazırdı ki, S.Behrəngi tətil günlərində onlara gələr, hər gecə yeməkdən sonra anasının onlara nağıl söyləməsini səbirsizliklə gözləyərdi. Lakin anası bu nağılları öz oğluna danışar, Səməd müəllim də şagirdini təkrar dinləməklə onları yazıya alardı.

Əldə olunan toplama materiallarının ikinci bir sınağı bu nümunələrin doğma dildə çap edilib təbliğ olunması ilə bağlı idi. Ana dilində mətbuatın xüsusi senzura nəzarətində olduğu, Sovet, İran ideoloqlarının "o taylı – bu taylı" Azərbaycanı az qala iki müxtəlif xalq kimi təqdim etməyə çalışdığı bir vaxtda xalq ədəbiyyatı nümunələrinin fars dilinə tərcümə edilərək nəşri ən optimal təbliğ olunma variantı idi. S.Behrəngi və onun məsləkdaşları da məhz bu yollarla milli-mənəvi irsin itib-batmaması üçün çalışmışlar.

S.Behrənginin toplama işində əldə olunan ən zəngin xalq ədəbiyyatı nümunələri içərisində nağıllar xüsusi yer tutur. Onun həmkarı Bəhruz Dehqani ilə topladığı nağıllar uzun illər diqqətdən kənarda qalmışdır. Yalnız 25 ildən sonra görkəmli folklorşünas Məmmədəli Fərzanə bu nağılları –

Səməd Behrəngi və Bəhruz Dehqaninin toplama materiallarının Azərbaycan dilindəki orijinal variantını üzə çıxarmışdır. Təqdim olunan kitabdakı nağıllar da əldə edilən həmin orijinal mənbədəki nümunələrdir. Konkret olaraq mənbədə 42 adda nağıl mətni qeydə alınmışdır.

Milli yaradıcılıq üslubu, xalq həyat-məişəti və bədii söz yaratma mədəniyyəti bu nağılların ideya-məzmun xüsusiyyətləri, obrazlarında və s. sistemli şəkildə qorunmaqdadır. “Hacı Səyad qızı”, “Əkinçinin qızı”, “Pıs-pıslı bacı”, “Narxatın”, “Arvadların pəxməliyi”, “Barat nağılı”, “Gül Sinavərə neylədi, Sinavər gülə neylədi” və s. Azərbaycan nağıllarının ən geniş yayılmış nümunələrindən olmaqla o taylı – bu taylı irsimizdə eyni süjet, oxşar obraz, motivlərlə tərbiyəvi, nüfuzedici əhəmiyyətə malikdir. Kitaba daxil edilən “Səng səbir qolçağı, sən də?”, “Qaynana”, “Çox olsa bir oğuc, az olsa yarım oğuc” kimi nağıllar oxşar şəkildə Zəngilan sakinlərindən də toplanılmışdır. Obrazlar sistemi, poetik ifadə forması, süjet ardıcıllığı və s. hər iki variantda nağıl mətnlərində anoloji xüsusiyyətlərlə seçilir.

Variantlılıq, sujet törəmələrinə gəldikdə isə qeyd edək ki, toplanan nağıllar sırasında uyğun nümunələri müqayisə etmək mümkündür. “Pıs-pıslı bacı”, “Pıs-pıslı Püstə xanım”, “Qurbağa nağılı”, “Ac siçan” nağıllarında nağılların məzmunu, təhkiyə üsulu, dialoqların təkrarlığı və s. demək olar ki, kiçik bir dəyişikliklərlə qorunur. “Pıs-pıslı bacı” – “Pıs-pıslı Püstə xanım” nağıllarında pıs-pıslının siçan bəyə ərə getməsi, su çuxurunda boğulması, siçanın ona yardımı və s. nəticə tamamilə eyni süjet əsasında qurulur. Sadəcə, ilk nağılda pıs-pıslı əvvəlcə it, qurbağa, sonra siçanla rastlaşır,

ikinci nağılda isə pıs-pıslı qarşılaşdığı "beldarı" söyərək siçanla evlənir.

"Qurbağa nağılı"nda isə yolda rastlaşan atlıları, eşşək dəstəsini, "mazı" oynayan bir dəstə oğlan uşağını, qızları yeyən qurbağa sonda qarının pişiyinin yeminə çevrilir. "Ac siçan" nağılında da hadisələr olduğu kimi davam etdirilir və nəticələnir. Yalnız burada qurbağa ac siçanla əvəz olunur.

Nağılların hansı ərazilərdən toplanması və informatorlar haqqında məlumatların olmaması qeyd olunan mətnlərin hansı yerli şərait və təhkiyəyə bağlılığı məsələsini müəyyənləşdirməkdə çətinlik yaradır.

Təqdim olunan nağıllar sırasında heyvanlarla bağlı nağıllar da ayrıca yer tutur. Kitabda bilavasitə heyvanların iştirakına əsaslanan 7 nağıl mətni ("Tülkü gedir haca", "Keçi, qurd, köpək, dana", "Dəvə ilə tülkü", "Şir ilə tülkü" və s.) təqdim olunur ki, bu mətnlər xalq arasında geniş yayılmış bəlli nağıl süjetlərinə əsaslanır. Uyğun süjetlər daha çox heyvanlarla bağlı təsəvvürləri əhatə edir.

Heyvanlarla bağlı nağılların digər bir hissəsi isə insanların da iştirak etdiyi nağıllardır ("Cücənin canqırı", "Ac siçan", "Qurbağa nağılı" və s.)

Nağılların toplama materialı olaraq dili, təhkiyəsi mümkün dərəcədə qorunmuşdur. Deyim tərzi, nəqletmə üsulu sadə xalq dilinə əsaslanır ki, canlı danışıq dilindən irəli gələn idiomlar, alqış, qarğışlar və s. nağıl təhkiyəsinin özünəməxsusluğu olaraq seçilir. Yuxarıda da qeyd etdiyimiz kimi, toplayıcıların nağılları hansı ərazi, bölgələrdən toplaması haqqında orijinalda əlavə məlumata rast gəlinmir. Yalnız "Qızılala balıq" nağılının sonunda Tufarqan bölgəsinin adı qeyd edilir.

Bu baxımdan nağılların hansı yerli şivədə söylənildiyini biz öz araşdırmamıza əsaslanaraq qeyd edə bilərik. Müəyyən olunur ki, nağılların əksəriyyəti Təbriz, Mamağan və Tufarqan ərazilərindən toplanılmışdır. Şivə, dialekt xüsusiyyətləri, təəssüf ki, yetərincə qorunub saxlanılmamışdır. Ayrayrı məhəlli söz və ifadələr qorunsa da, ərəb-fars tərkibləri bir sıra nağılların dilini ağırlaşdırmışdır. Yeri gəlmişkən qeyd edək ki, yerli şivələrin xalq ədəbiyyatı nümunələrində mümkün variantlarda qorunması vacib bir məsələdir.

Nağıl mətnlərinin yazıya alınmasında bir sıra qüsurların olması müşahidə edilir. Qeyd edək ki, yazıya alınmadakı qüsurlar bəzi nağıl mətnlərini natamam mətnlər şəklinə salmışdır. Məsələn, "Şah Abbasla pinəçinin nağılı"nda mətnin əvvəlində şahla pinəçi arasında gedən söhbət – dialoqda, şahın bir sualı nəzərdən qaçırılmış, yalnız sualın cavabı sonradan pinəçinin vəzirlə söhbətində bərpa olunmuşdur.

"Müşgülguşa" nağılında isə mətnin böyük bir hissəsi süjetdən kənarlaşdırılmış, hadisələrin ardıcıllığı pozularaq natamam mətn halında saxlanılmışdır. Belə ki, nağıl sujetində tikançı kişinin naməlum atlıdan qum alması, hər an müşgülgüşa paylanması tövsiyəsindən başlayaraq hadisələrin ardıcıllığı itir, sujet zindanda dustaqlara müşgülguşa paylanılması, padşah qızı, tacirin mallarının suda qərq olmayaraq geri dönməsi kimi natamam təhkiyə ilə davam etdirilir.

Qeyd olunan natamamlıqlara baxmayaraq, nağıl mətnləri əldə edilən orijinala uyğun şəkildə transliterasiya edilərək təqdim olunmuşdur.

Səməd Behrəngi və Bəhruz Dehqaninin toplama materiallarından olan nağılların Azərbaycan türkcəsində bu gün transliterasiya edilərək kitab şəklində hazırlanması bir çox

cəhətdən əhəmiyyətlidir. Əvvəla, hazırkı vaxtda bu mətnlər işğal olunan bölgələrimizdən toplanıb, yenidən araşdırılan nağıllarımızın bərpaya ehtiyacı olan bir çox sujet, motiv, obrazlarının tamamlanması üçün zəngin mənbədir. İkinci bir tərəfdən, bu mətnlər başqa social-siyasi şəraitdə mövcud olan folklor mədəniyyətinin yaddaşlarda hifz olunma və ötürülmə mexanizminin öyrənilməsində dəyərli məxəz rolunu oynayır. Və ən əsası budur ki, Cənub folklorunun toplanması, araşdırılması və təbliği Azərbaycanın ümumi folklorunun sistemli şəkildə öyrənilməsi işinə yaxından kömək edir.

**M.M.Abbasova**
**Filologiya üzrə fəlsəfə doktoru**

# G İ R İ Ş

## SƏMƏD BEHRƏNGİ VƏ BƏHRUZ DEHQANİNİN ANA DİLİNDƏ TOPLADIQLARI AZƏRBAYCAN NAĞILLARI ÜZƏRİNDƏ ÇALIŞMALARI

Doğma eloğlu, yorulmaz axtarıcı və barışmaz yazıçı Səməd Behrənginin çoxsahəli ədəbi-bədii çalışmalarının ən önəmli qollarından biri onun uşaq folklorumuz, xalq ədəbiyyatımız ilə ilgilənməsi, xalq ədəbiyyatımızı toplayıb araşdırması və yeri gələndə onların nəşri üçün çalışması, folklorumuzun ən güclü qolu olan nağıllarımızdan ilham alaraq, dünya miqyasında şöhrət qazanan uşaq nağılları, öz adı ilə desək, Səmədin qissələrini yazıb yaratmaqda şərəfli əmək göstərməsi olmuşdur. Bütün pedaqoji-tərbiyəvi görüşlərində birinci yeri uşaqlara verən və onların gələcək dünyanın qurucuları olduqlarına inanan Səməd Azərbaycan folklorunu toplamaqda birinci yeri uşaqların hamıdan çox maraqlandığı və sevdiyi nağıllara vermişdir. Mən sizə Səmədin və onun yaxın əməkdaşlarından Bəhruz Dehqaninin nağıllarımızı toplayıb nəşr etməkdə sərf etdikləri şərəfli əməyi əlyazma nüsxəsi tapıldıqdan sonra yazdığım başlanışla tanış etməyi yerli sanıram.

Onlar ikisi Azərbaycan dilində yazıb-oxumağın yasaq olduğu dildə yazılan kitabların yandılrılmasını eşitdilər və duydular. Eşitdikləri və duyduqları bu macəradan yüksələn alov onların ruhuna və vücuduna gömdü və bütün həyat boyu onları düşündürdü.

Onlardan biri – Səməd öz ana dilinə bəslədiyi inamı 1342-ci ildə ilk əsəri sayılan və özü demişkən, onu “talifat sa-

hibi" eləyən "Parə-parə" ilə göstərdi. Bu yaraşıqlı və yığcam əsərə ümumi bir baxış belə onu toplayanın öz ana dilində dərs oxuya bilmədiyinə baxmayaraq, bu dildə çağlayan şeirin ən dərinliklərinə varmasına canlı sübutdur. O, bu məcmuədə nəzərə aldığı və toxunduğu o tay-bu tay şairlərinin ən gözəl və məzmunlu şeirlərini yüzdən çox xalq bayatısı ilə yerləşdirmişdir. Bu ilk əsərin buraxılışı Səmədə baha başa gəldi, məhkəməyə çağrıldı. Kitabda "Azərbaycan" şeirinə yer verdigi üçün töhmətləndi. Beləliklə, kitab yasaq edildi və Pəhləvi rejimində onun bir daha çap edilməsinə yol verilmədi.

Mənlə bu iki əməkdaşın arasında bir-birimizi görmədən canlanan hüzuru dostluq və yaxınlıq da elə bu kitabla başladı. Onlar, o biri əməkdaşları ilə birlikdə Azərbaycanda illərcə qəribsəmiş və buxovlanmış ana dilinin və milli varlığın carçısı və muştuluqçusu kimi, çoxdan bəri yurd – yuvasından didərgin düşmüş bizim kimilərin davamçısı oldular.

Onlar kitab çantası çiyinlərində, kağaz-qələm əllərində, xalqa və vətənə bəslədikləri duyğular ürəklərində birinci məktəb müəllimi vəzifəsində Azərbaycan kəndlərinə yol açdılar, canlarında alışan alovu uşaqlara aşıladılar, onlarla qaynayıb qarışdılar. Uşaqlar üçün ağa, müəllim yox, bəlkə "Səməd əmi", "Bəhruz əmi "oldular. Təbriz Universitəsini bitirdikləri üçün orta məktəbdə dərs verməyə haqlı olsalar da, birinci məktəbdə dərs verməyi daha dəyərli sandılar. Azərbaycan folklor nümunələrini də elə həmin məktəblərində, dərs verdikləri kəndlərdən və xalq içərisindən toplamağa başladılar. Ağızlardan çoxlu nağıl, bayatı, tapmaca, qoşmaca və el sözləri topladılar. Bir sıra kəndlərin monoqrafiyasını yazdılar. Bu ələ gətirdiklərinin bir qismini yeri gəlincə o günkü mətbuatda və bir qismini də Azərbaycan əfsanələri

(farsca), qoşmacalar və tapmacalar ünvanı ilə çap edə bildilər. Lakin onların topladıqları folklor nümunələrindən hələ çap olmayanları da vardır...

* * *

Səmədlə Bəhruzun Azərbaycan nağıllarından ibarət məcmuəsi Cənubi Azərbaycanda bu günə qədər yığılmış ən dəyərli məcmuələrdən birisidir. Maraqlı burasıdır ki, bu məcmuənin də elə onu toplayanların özü kimi qəribə taleyi olmuşdur. Onlar el içindən topladıqları bu nağılları vaxtı ilə Azərbaycan dilində nəşr etdirməyə imkan əldə edə bilmədikləri üçün çarəsiz farscaya çevirmiş, onun birinci cildini Təbrizdə və ikinci cildini də Tehranda nəşr etdirmişlər.

Həmin illərdə bir təsadüf ortaya çıxdı ki, mən bayatılardan nbarət məcmuəni Təbrizdə və "Azərbaycan dili qramerinin əsasları (Məbani dəsture zəban Azərbaycan)" kitabını Tehranda çap etdirə bildim. Bu kitabların çap olub yayılması Səmədlə Bəhruza qanad verdi və onları gördükləri işdə bir daha ruhlandırdı. Səməd məhəbbətlə dolu bir məktubda qramer kitabının ortaya çıxmasını böyük hadisə sandı və ondan dönə-dönə faydalandığını bildirdi və Bəhruz bayatıların ikinci çapını hazırlamaqda can atmağa, ona təsvirlər və tablolar çəkdirməyə başladı.

1347-ci ilin yayında mən yenə Təbrizə gəldiyim sırada Səməd və dostları ilə görüşdüm. Bəhruz o il hansı seminarda, ola bilsin uşaq ədəbiyyatı seminarında, iştirak etmək üçün İspaniyaya getmişdi. Biz ayrılanda Səməd məni bir tərəfə çəkdi və dedi:

– Mən folklor barədə yazı-pozularımızı, hər nə varsa sizə tapşıracağam. Bunu Bəhruz da bilir. Siz onlardan istə-

diklәriniz kimi, hәtta bizlәrdәn ad aparmadan belә yeri gәlincә istifadә edә bilәrsiz. Dәrdizә dәymәsә dә, bir tәrәfә buraxarsız. İndi istәyirsiz mәn onları sizә gәtirim vә istәyirsiz dә Tehrana göndәrim?

Dedim, Tehrana göndәrmәniz daha yaxşı olar.

Az müddәt sonra Sәmәdin göndәrdiyi bağlama әn tәhlükәli günlәrdә gәlib mәnә çatdı vә mәn ona әl vurmadan belә öz әlyazmalarımla birlikdә birisinә әmanәt tapşırdım. O әmanәt burada danışmağa lüzumu olmayan sәbәblәrdәn asılı olaraq, 25 il sonra gәlib yenidәn mәnә çatdı vә hәlә nә yaxşı ki, gәlib çatdı, öz yazı-pozularımdan çox Sәmәd vә Bәhruzun folklor barәdә topladıqları mәni çox sevindirdi. Arzu edirәm vә elә bilirәm bu Sәmәdin vә Bәhruzun da arzusu olmuş olsun, bu nağıllar elә hәman yazıldığı üslub vә imlada vә imkan qәdәr onlara әl aparmadan çap edilsin...

***M.Ә. Fәrzanә***



حلالزادا قردش ایله حرامزادا قردش

بیرگون وار ایدی، بیرگون یوخ ایدی. بیر دانا حلالزادا قردش وار ایدی، بیر دانا حرامزادا.
شهرده داها ایش یوخ ایدی. بونلار دئییرلر: نه ائلییک، نه ائلمییک؟ دئیرلر: دوراق گئدک بیر
آیری شهرده ایش تاپاق.

بونلار دستماللارینا چؤرک باغلارلار، دوشرلر یولا. ناهار چاغی یئتیشرلر بیر سویون
باشینا. حرامزادا قردش دئییر: قردش، چؤرگینی آچ یئییک. آخشام دا منیمکین یئییریک.
حلالزادا قردش بیر سؤز دئمز. دستمالین آچار باشلارلار یئمگه. سونرا گئنه
دوشرلر یولا. آخشام چاغی یورغون-آرغین یئتیشرلر بیر یئره. حلالزادا قردش
دئییر: قردش، ایندی ده سن آچ‌ام، گتیر چؤرگیندن یئییک. دئییر: اوغلان، گئت
ایشینین دالیجا! چؤرک آنجاق منیم گؤره.

بو، نه قدر ایللاه ائلر، اولماز. آخیردا بونلار ساواشارلار. حلالزادا قردش بیر
طرفه گئدر، حرامزادا قردش بیر طرفه.

حلالزادا آج، سوسوز گلر یئتیشر بیر مقاره‌یه. دئییر گئجه‌نی بورادا دالدالانیم سحر
دوشوم یولا. گیرر مقاره‌یه. گؤرر هئچ کیم یوخدو. بیردن-بیره گؤرر آیاق سسی
گلیر. تئز قاچار گیرر بیر دالدا یئره گیزلنر.

گوپبولدویا-گوپبولدویا بیر دانا آیی گلر. بیر آز سونرا تاپپیلدیا-تاپپیلدیا بیر قورد،
سونرا بیر تولکو. بونلار گلرلر اوتورارلار مقاره‌نین ایچینده.

قورد دئییر: آیی قردش، کئفین بیر کؤک دی، نه وار؟ دئییر: نه اولاجاق، بیر دانا
خرابه تاپمیشام آلتی بوتون خزانه‌دی. گوندوز گئدیرم اورا بیر-ایکی تپیک وورورام.

# HƏLALZADA QƏRDƏŞ İLƏ HƏRAMZADA QƏRDƏŞ

Bir gün var idi, bir gün yox idi. Bir dana həlalzada qərdəş var idi, bir dana həramzada, şəhərdə daha iş yox idi. Bunlar deyirlər: “Nə eliyək, nə eləmiyək?” Deyərlər, duraq gedək bir ayrı şəhərdə iş tapaq.

Bunlar dəstmallarına çörək bağlarlar, düşərlər yola. Nahar çağı yetişərlər bir suyun başına. Hərəmzada qərdəş deyər:

– Çörəyini aç yeyəh, axşam da mənimkin yeyərik.

Həlalzadə qərdəş bir söz deməz. Dəstmalın açar başlarlar yeməyə. Sonra ginə düşərlər yola. Axşam çağı yorğun-arğın yetişərlər bir yerə. Həlalzadə qərdəş deyər:

– Qərdəş, indi də mən acam. Gətur çörəyindən yeyək.

Deyər:

– Oğlan, get işinin dalınca! Çörək ancaq məni görə.

Bu, nə qədər illah elər, olmaz. Axırda bunlar savaşarlar. Həlalzadə qərdəş bir tərəfə gedər, Həramzada qərdəş bir tərəfə.

Həlalzadə ac, susuz gələr yetişər bir məğarəyə, deyər gecəni burada daldalanım, səhər düşüm yola. Girər məğarəyə görər heç kim yoxdu. Birdən-birə görər ayaq səsi gəlir, tez qaçar girər bir dalda yerə gizlənər.

Gunbulduya-gunbulduya bir dana ayı gələr, bir az sonra tapbıldıya-tapbıldıya bir qurd, sonra bir tülkü. Bunlar gələrlər oturarlar məğarənin içində.

Qurd deyər:

– Ayı qərdəş, kefin bərk kökdü, nə var?

Deyər:

– Nə olacaq, bir dana xərabə tapmışam, altı bütün xəzanədi. Gündə gedirəm ora bir-iki təpik vururam gunbuldur. Sonra qulağımı dayıyıram qulaq asıram.

Qurd deyər:

– Bəs, məndən xəbərin yoxdu. Padşahın qızı noxoşdu. Hər nəmənə həkim gətiriblər olmayıb. Davasın mən bilirəm. Bir dana sürü var, içində bir qərə qoyun, o qoyunun beyinin qurudsan, qızın burnuna püfləsən, qız toxdar. Mən gündə

göz ilə yeyərəm onu qaçırdam. Amma heyif ki, çoban göz verir, işıq vermir. Mənim də şövq-zövqüm onadı.

Tülkü deyər:

– Elə də qulaq asın mənə, bir dana təpə var, onun yanında bir aqca sican yuvası var. Bu aqca sican gündə qızılları yuvasından çıxardar sərər gün qabağına üstündə məllaq salar. Mən də oturaram təpənin başında ona tamaşa elərəm.

Bunlar bir qədər də danışandan sonra başların qoyarlar yatarlar. Oğlan öz-özünə deyər: "Ay Allah, necə olaydı mən səhər cağı sağ-salamat buradan çıxıb gedəydim!".

Səhər çağı ayı gunbulduya-gunbulduya gedər, qurd tapbıldıya-tapbıldıya. Tülkü da gedər. Oğlan çıxar eşigə, gedər təpənin yanına. Görər belə tülkü qərdəş oturub tamaşa eləyir sicana. Bir daş atar tülkünün qabırqasına. Tülkü dabana qüvvət qoyar qaçar. Sican qızılları gün qabağına sərib üstündə məllaq salırdı. Oğlanın səsin eşitcək qaçar girər yuxasına. Oğlan gələr qızılları götürər doldurar cibinə gedər sürünün yanına. Bir qədər pul verər qərə qoyunu alar. Başın kəsər. Leşin verər çobana. Gətirər beynin qurudar tökər bir şüşəyə. Gələr şahın imarətinin qabağında başlar:

– Həkiməm, təbibəm!

Şahın adamları çıxar deyər:

– Oğlan, indiyəcə nəmənə həkim gəlib bu qızı toxdada bilməyiblər, şah verib başların kəsiblər. Gəl, qoy çıx get!

Oğlan deyər:

– Olsun, mən də bacara bilməsəm, məni də öldürsün.

Oğlanı gətirərlər içəriyə. Deyər:

– Hamı otaqdan çıxsın!

Hamı çıxar. Qızılan oğlan tək qalarlar. Oğlan şüşəni cıxardar bir az püflər qızın burnuna, qız asqırar durar ayağa.

Şah görər qızı toxdadı, sevindiyindən bilməz nə desin. Deyər:

– Məni istəyən buna ənam!

Hər tərəfdən oğlanın başına qızıl yağdırarlar. Şah deyər: "Məndən bir zad istə!" Oğlan deyər: "Mən heç zad istəmirəm, dediyin kimi qızını ver mənə, bir də şəhərin eşigindəki xərabəni"

Şah deyər:

– Olsun, qızımı verdim sənə, xərabə də sənin.

Oğlan gələr xərabəni sökdürər. Xəzanəni çıxardır. Sonra bir dana gözəl-göyçək imarət düzəltdirər, şahınkında da artıq, qızı da alar. Bir gün küləfrəngidə oturmuşdu, görər həramzada qərdəş çirim-çinda içində əl-ayaq nə şıxda oradan keçir. Onu yanına cağırtdırar.

Deyər:

– Oğlan, məni tanıyırsanmı?

Deyər:

– Qurbanın olum, yox!

Deyər:

– Mən haman adamam ki, bir tikə çörəkdən ötrü məndən ayrıldın.

Bu oğlan bir başın qavzar dürüst baxar görər özüdü. Deyər:

– Sən nə elədin belə dövlətli oldun?

Oğlan başına gələn hal-qəziyyəni buna deyər.

Deyər:

– Mən də getsəm olar?

Deyər:

– Bilmirəm.

Həramzada qərdəş durar gedər məğarədə gizlənər. Bir az sonra gunbulduya-gunbulduya bir ayı gələr. Sonra tapbıldaya-tapbıldaya bir qurd. Sonra tülkü. Bunlar bekef-bedamaq oturarlar yerə. Birdən tülkü deyər:

– Qərdəşlər, biz onda ki, burada danışırdıq, hötma bir nəfər bəni-adam qulaq asırmış. Durun buranı bir axtaraq.

Durarlar ayağa. Məğarəni axtararlar. Oğlanı taparlar, budarlar.

۲-حاجی صیّاد قیزی

گونلرین بیر گونونده بیر حاجی صیّاد وار ایدی، بیر مالّا دوستو. مالّا حاجینین قیزینا درس دئیه‌ردی. بیرگون حاجی صیّاد ایستر گئتسین مکّه‌یه. اوغلون آروادین دا آپاریردی. مالّا حاجینی قورار کی، قیزی پرینی آپارماسین، درسدن دالی قالار. حاجی صیّاد بیر آدام آختاریردی کی، پرینی اونا تاپشیرا.

مالّا دئیه‌ر: حاجی آغا، اؤزوز بیلیرسیز، آما قویون منیم یانیمدا. اؤزوم سندن آرتیق موغایات اولارام.

حاجی دئیه‌ر: عیبی یوخدو. قیزی قویار مالّانین یانیندا. آروادین اوغلون گؤتوره‌ر گئدر. بئش گون، اون گون کئچر. گونلرین بیرینده مالّا ایستر قیزا ساتاشا. قیز دئیه‌ر کی: آغام منی سنه تاپشیریب. هئچ اوتانمیرسان؟ پیس دی. ساققالیندان اوتان باری.

مالّا دئیه‌ر: اولان دئییل. گرک باشینی منله بیر ائلیه‌سن!

قیز گؤره‌ر مالّا ال چکن دئییل. دورار آفتافا گؤتوره‌رک آدینا چیخار ائشیگه. باش آلار گئدر. چؤللو-بیرری بیاباندا یئتیشر چشمه قیراغینا. بیر دانا آغاج وار ایدی. چیخا آغاجا. اوتوروشدو. فیکیرلشیردی کی، گؤره‌سن نه ائلیه‌یم، نه ائلمه‌یه‌یم؟ گؤره‌سن باشیمین قضو-قدری نه‌دی؟

سن دئمه پادشاه گلیر آتین سوواراسین. گؤره‌ر آت سودان اؤکور. باخار سویا گؤره‌ر آدام شوقی دوشوب سویا. بئله باخاندا آغاجا، گؤزل بیر قیز گؤره‌ر. بیر گؤیولدن مین گؤیوله قیزا وورولار.

## HACI SƏYAD QIZI

Günlərin bir günündə bir Hacı Səyad var idi, bir molla dostu. Molla hacının qızına dərs deyərdi. Bir gün Hacı Səyad istər getsin Məkkəyə. Oğlun, arvadın da aparırdı. Molla Hacını qurar ki, qızı Pərini aparmasın, dərsdən dalı qalar. Hacı Səyad bir adam axtarırdı ki, Pərini ona tapşıra. Molla deyər:

– Hacı ağa, özüz bilərsiz, amma qoyun mənim yanımda, özüm səndən artıq müğayat olaram.

Hacı deyər eybi yoxdu. Qızı qoyar mollanın yanında. Arvadın, oğlun götürər gedər. Beş gün, on gün keçər. Günlərin birində molla istər qıza sataşa. Qız deyər ki, ağam məni sənə tapşırıb hec utanmırsan? Pisdi. Saqqalından utan barı.

Molla deyər:

– Olan deyil, gərək başını mənlə bir eliyəsən!

Qız görər molla əl çəkən deyil. Durar aftafa götürmək adına çıxar eşigə, baş alar gedər. Çöllü-bərri biyabanda yetişər çeşmə qırağına. Bir dana ağac var idi. Çıxar ağaca, oturmuşdu fikirləşirdi ki, görəsən nə eləyim, nə eləməyim? Görəsən, başımın qəzəl-qədəri nədi?

Sən demə, padşah gəlir atın suyarsın, görər at sudan ülkür. Baxar suya görər adam şövqi düşüb suya. Belə baxanda ağaca gözəl bir qız görər. Bir göyüldən min göyülə qıza vurular. Qız deyər:

– Qiyamət günü qardaşım, baxma mənə! Görürsən baş açığam. Qoy get işinə!

Padşah deyər:

– Olmaz, gərək deyəsən kimsən, nə karasan? Nəsən? Gərək gələsən mənlən gedək.

Qız deyər:

– Görürsən baş açığam. Heç yana gedə bilməm.

Padşah deyər:

– İndiki baş açıq gələnməsən, paltoyumu atım, sal başına gedək.

Qız bürünər düşər aşağıya. Padşah onu alar atın tərkinə gətirər şəhərə. Qız açar başına gələni deyər. Padşah peyğəmbərin şəriətilən, Allahın buyurduğuylan molla çağırar, kəbin

kəsər, qızı alar. Vurar bir müddət bunun üstündən keçər. Qız bir cüt oğlan doğar. Bir il, iki il oğlanlar olarlar üç-dörd yaş. Bunlar burada qalmaqda olsunlar. Sənə deyim kimdən? Hacı Sayaddan, molladan. Pəri qoyub qaçandan sonra molla götürər kağaz yazar ki, Hacı, başına xeyir! Qızın pis-pis işlərdən çıxır. Gəl sahab dur! Mən qabağın ala bilmirəm. Hacı Sayad da oğluna deyər ki, oğul, mənim abrım var, daha şəhərə gedə bilmərəm. Gedəsən bacını öldürəsən, donunu qana bularsan, göndərərsən mənə, onda gələm şəhərə. Yoxsa nə qədər bacın Pəri diridi, şəhərə gələnmərəm.

Oğlan gələr şəhərə, soraqlaşar bilər ki, bacısı günahsız imiş. Axtarar bacısın tapanmaz. Bir dana quş vurar bacısının donlarından birin bələr qana göndərər dədəsinə ki, bacımı öldürdüm, gəl. Bilər ki, dədəsi mollanın sözün qoyub onun sözünə baxmayacaq. Heç zad bildirməz.

Pəri bir gün oturmuşdu, dədə-nənəsi yadına düşər, ürəgi tutular, başlar ağlamağa. Padşah gələr deyər ki, Pəri, nə olub? Niyə ağlayırsan? Nə fikrin var?

Pəri deyər:

– Allahdan gizlin deyil, səndən nə gizlin. Bə belə... dədə-nənəm yadıma düşüb.

Padşah deyər:

– Mənə mümkün olmaz səni aparam. Hər zaman desən vəzirimi qoşum get gör, gəl.

Padşah verər sələ-sovqət tutarlar, gəcavə yondurarlar. Vəziri qoşar, deyər:

– Vəzir, apar ötur dədəsi evinə, qayıt gəl. Sonra gedərsən gətirərsən.

Pəri oğlanların da götürər vəzir ilə yola düşərlər.

Bir gün çöldə düşmüşdülər dincəlməyə. Vəzir qıza bənd olar. Deyər ki, gərək başını mənlən bir eliyəsən! Eləməsən bir oğlunun başın kəsərəm.

Qız görər pis gətirib. Az deyər, çox deyər olmaz. Vəzir durar gözünün qabağında bir oğlunun başın kəsər, deyər:

– İndi nə deyirsən, başını mənlən bir eləyirsən, ya yox!

Pəri deyər ki, yox!

Vəzir durar o biri oğlunun da başın kəsər. Deyər:

– İndi başın mənlən bir eliyirsən elə, eləmirsən özünü də öldürəcəyəm.

Pəri durar eşigə çıxmaq mahanasına uzaqlanar. Çərqətin başına salar, əkilər. Vəzir ha gözlər, görər Pəri oturub gəlmir. Gedər görər Pəri hardaydı: qəribə əlimə rəng qoydu. Qayıdar gələr padşaha deyər:

– Apardım otuzdurdum. Amma pis adama bənzəyir. Hərdən dururdu o yan-bu yana gedirdi. Şəhərlərinə ötürdüm gəldim. Heç evlərin də tanımadım.

Pəri baş alar gedər. Bir çobana rast gələr. Boyun-qulağındakı qızıllardan verər bir dana qoyun alar. Çobana deyər, başın kəsər, qarnın çıxardar. Onu çevirər başına olar bir keçəlçə. Bir dəst köhnə kişi paltarı alar, gedər öz şəhərlərinə. O yanda-bu yanda, bazarda səslər:

– Ay məni nökər tutan!.. Ay məni nökər tutan!...

Durar dədəsinə rast gələr. Hacı Səyadın ürəgi qızı xoşlar, deyər:

– Oğul, mənə nökər olarsan?

Deyər:

– Niyə olmaram? Haradan çörək çıxa, olaram.

Pəri sirrini dədəsinə bildirməz. Hacı Səyad Pərini aparar evlərinə. Deyər:

– Arvad, gəl bax. Bir dana nökər tapmışam.

Arvadı baxar deyər:

– Gözləri necə mənim qızıma bənzər!

Pəri evdə başlar işə. Hacı Səyadın arvadı görər bu belə nökərçilik bacarmaz. Elə ev işlərin görər. Yaxçı evə zinət verər. Oğlan da baxırdı Pəriyə deyirdi:

– Nənə, bax gör necə bacıma bənzir!

Pəri özünə çox hörmət qazanar. Evdə oğul təkin olar.

Bunlar burada qalmaqda, sənə deyim vəzirdən, padşahdan. Bir gün padşah oturmuşdu vəzirə deyər:

– Vəzir, qız çox yubandı, dur gedək tapaq gətirək.

Durarlar dərbiş paltarında gələrlər şəhərə. Dolanırdılar. Bir keçəlcə bunları görər tanır. Gələr evə. Hacı Səyada deyər:

– Ağa, icazə versən iki dana qonağım var, bu gecəliyə burada qalarlar.

Hacı deyər:

– Oğul, bular nə sözdü? Ev özününkidi. İki olmasın, yüz olsun.

Keçəlcə gələr bir dilinən bunları danışdırar. Deyər:

– Gəlin gedək gecəni mənə qonaq olun.

Deyərlər:

– Boşla çıx get, sən nökər babanın biri, sənin evin harda idi ki, bizi də qonaq aparasan.

Deyər:

– Sizin nə işiniz var? Mənim ağama ərkim var.

Götürər vəzirlən padşahı gətirər. Gecə oturmuşdular danışırdılar. Pəri deyər:

– Ağa, icazə versən mollanı da çağıraq. Mollalar xoş söhbət olarlar. Danışsın qonaqlarımız darıxmasınlar.

Hacı deyər ki, get çağır. Molla da gələr. Oturarlar, qız o yandan-bu yandan söhbət salar. Padşah deyər:

– Məsəldən-zaddan deyin, dərbişlərdə söhbət çox olar.

Padşah deyər:

– Keçəllər yaxçı oxumaq, şer bilərlər, sən de qulaq asaq.

Pərinin dərdləri deşilir. Açar ağzın deyər:

Adım Pəri, Hacı Səyad qızıyam,
Göydə parıldayan dan ulduzuyam.
Getdi, getdi bir dərədə endirdi,
Oturan vəzir bir cüt oğlum öldürdü,
Dostum ağlar, düşmanımı güldürdü.
Dedim: – Ey qanıma qan alan dərbiş,
Atadan, anadan mehriban dərbiş!

Mollanın milabı düşər içinə. Vəzirin suyu süzər düşər əl-ayağa. Dədəsi o yandan qalxar, nənəsi bu yandan, deyərlər:

– Oğul, sözləri bir də de!

Pəri başlar başına gələni deyər. Ondan börkün götürər. Hamı tanıyar. Padşah da özün göstərər.

Səhər olar, qızı apararlar hamama. Padşah verər vəziri, mollanı asdırar. Hacı Səyad verər yeddi gün, yeddi gecə toy-tabaq çaldırar. Evlər şəm çırağı, dağlar göhən çırağı. Qızın tapşırar padşahın əlinə. Padşah götürər gedər.


۱۳

ننه‌سی بو قورقولو قوروب.

قیز دئییر: نه ائله‌ییم به؟

دئییر: گئجه یاتاندا اویان-بویانا آغنا، گوللر ازیلسین.

قیز دئییر کی، یاخجی.

گئجه ائوه گلیب یاتاندا، سحره‌جه ائشینیر، اویان-بویانا آغنار. سحر دورار گئدر توکانا. دمیرچینین ننه‌سی یئرلری ییغاندا گؤرر قیزیل گوللر ازیم-ازیم ازیلیبلر.

اوغلونا دئییر: گؤردون بالا شاگرد قیز دگیل! بیر دانا ساغ گول قالمایب.

دمیرچی گئدر توکانا. بئش-اون گون کئچر. یئنه دمیرچی گلر ننه‌سینه دئییر:

قولو قولباغ یئری دی،
بوینو گردن‌بند یئری،
بارماغی اوزوک یئری دی،
آنا، شاگرد قیزدی، قیز!

ننه‌سی دئییر: اوغول، ال چک! بولار نه سؤزدو؟ اوتان!

دمیرچی ال چکمز. ننه‌سی دئییر: ایندی کی ال چکمیرسن، گؤتور آپار مینجیق داغینا، بیرده تیلیغ داغینا. مینجیقلاردان گؤتورسه، قیزدی. تیلینجلاردان گؤتورسه، اوغلان دی.

یئنه تازی قاچار قیزا خبر وئرر. دئییر: اصلاً مینجیقلارا همیت وئرمه.

آخشام باشی دمیرچی دئییر: گل بیر گئدک داغی دولاناق. نفسیمیز آچیلسین.

اوّل مینجیق داغینا گئدرلر. دمیرچی بیر اوغوج مینجیق گؤتورر دئییر: به‌به! گؤر نه خوش مینجیق دیلار!

## YEDDİ QIZ DƏDƏSİ, YEDDİ OĞLAN DƏDƏSİ

Bir gün var idi, bir gün yox idi. Allahdan səvay heç kəs yox idi. Iki dana qərdəş var idi. Birinin yeddi qızı, o birinin yeddi oğlu. Yeddi oğlan dədəsi hər vəqt qərdəşin görəndə deyərdi:

– Salam-əleykəm, yeddi qançıq atası!

Bu qərdəş başın salardı aşağa, gələrdi evə. Bir gün yenə tutulmuş, pozğun evə gələr. Böyük qız deyər:

– Ata, nə olubdu?

Deyər ki, əmiz gündə belə deyir... Qız deyər:

– Sabah sən də denə, "əleykəl-səlam", yeddi köpək iyəsi! Bir oğlan səndən, bir qız məndən, göndər qoşaq getsinlər çörək qazanmağa. Görək hansı yaxşı qazanar?

Sabah qərdəş rast gələr, deyər:

– Səlam-əleykəm, yeddi qançıq atası!

Bu biri qərdəş başın qavzar, deyər:

– Ələykəl-səlam, yeddi köpək iyəsi. Bir oğlan səndən, bir qız məndən, göndər qoşaq getsinlər çörək qazanmağa. Görək hansı yaxçı qazanar?

Qərdəş sevinər. Öz-özünə deyər ki, qız haradan gedəcək çörək qazanacaq? Hərə özününkünə at, yol xərcliyi verər. Əmoğlu, əmqızı yola düşərlər. Yol ayrımına yetişərlər. Görərlər yazıblar: "Bu yol gedən gelər, bu yol gedən gəlməz".

Oğlan deyər:

– Əmqızı, mən gedirəm gedər-gəlməzə. Sən get o birisinə.

Qız deyər:

– Yox, mən gedəcəyəm gedər-gəlməzə. Bir ilə vəqt verək. Hər kim tez gəlsə burada gözləsin.

Oğlan deyər ki, yaxçı. Hərə gedər bir yola. Qız gedər, gedər yetişər bir şəhərə. Atın satar, bir dəst oğlan paltarı alar geyər, gedər dəmirçi şagirdi olar. Dəmirçi bunun işinə baxar, görər ki, bunda qız nəqşəsi var. Bir neçə gün keçər, bir gün dəmirçi gələr nənəsinə deyər:

Qolu qolbağ yeridi,
Boynu gərdənbənd yeri.
Barmağı üzük yeridi,
Ana, şagird qızdı, qız!

Nənəsi deyər:

– Oğul, bu nə sözdü? Get işinə bax. Əl çək sözlərindən. Qızdan dəmirçi şagird olmaz.

Dəmirçi əl çəkməz. Nənəsi deyər:

– Gecə bir az qızılgül al, salaq döşək altına. Oğlan olsa, oğlan ağır olar, qızıl güllər dağılar, əzilər, qız olsa, tər qalar, heç zad olmaz.

Evdə bir tazı var idi. Dil bilirdi. Gedər qıza deyər ki, usta Həlim xanın nənəsi bu qurqunu qurub.

Qız deyər:

– Ne eləyim bə?

Deyər:

– Gecə yatanda o yan-bu yana ağna, güllər əzilsin.

Qız deyər ki, yaxçı.

Gecə evə gəlib yatanda səhərəcə eşinər, o yan-bu yana ağnar. Səhər durar gedər tükana. Dəmirçinin nənəsi yerləri yığanda görər qızıl güllər əzim-əzim əziliblər.

Oğluna deyər:

– Gördün, bala, şagird qız deyil! Bir dana sah gül qalmayıb.

Gedər dükana, beş-on gün keçər. Dəmirçi nənəsinə deyər:

Qolu qolbağ yeridi,
Boynu gərdənbənd yeri.

Barmağı üzük yeridi,
Ana, şagird qızdı, qız!

Nənəsi deyər:

– Oğul, əl çək! Bular nə sözdü? Utan!

Dəmirçi əl çəkməz. Nənəsi deyər:

– İndiki əl çəkmirsən, götür apar Mınçıq dağına. Bir də Qılınc dağına. Mınçıqlardan götürsə, qızdı, qılınclardan götürsə, oğlandı.

Yenə tazı qaçar qıza xəbər verər, deyər:

– Əsla mınçıqlara əhəmiyyət vermə.

Axşam başı dəmirçi deyər:

– Gəl bir gedək dağı dolanaq. Nəfəsimiz açılsın.

Əvvəl Mıncıq dağına gedərlər. Dəmirçi bir oğuc mıncıq götürər deyər:

– Bəh, bəh! Gör nə xoş mıncıqdılar!

Qız qışqıraraq deyər:

– Usta, onları nə eliyəcəyik? Boşla gedək Qılınc dağına.

Gedərlər Qılınc dağına. Qız bir az pıçaq, qılınc-zad götürər gələrlər evə. Nənə deyər:

– Hə, oğul, necə oldu?

Dəmirçi olanı deyər. Nənə deyər, gördün ,bala, mən deyən oldu, olmadı? Get başını sal işlə.

Yenə üç-dörd gün keçər. Dəmirçi görər şagirddə qız nəqşəsi var ki, var. Gələr yenə nənəsinə deyər:

Qolu qolbağ yeridi,
Boynu gərdənbənd yeri.
Barmağı üzük yeridi,
Ana, şagird qızdı, qız!

Nənəsi deyər:

– Oğul, indi əl çəkmirsən, apar göldə üzün. Orada bilinər oğlandı, ya qız.

Tazı qaçar qıza deyər.Qız deyər:

– Bə mən nə eləyim?

Tazı deyır:

– Qoy əvvəl o düşsün. Mən suyu bulandıraram. Sən tez düş bir suya bat, çıx.

Günorta çağı dəmirçi deyər:

– Gəl bir, gölə gedək. Hava çox istidi.

Dəmirçi qabaqca soyunar düşər suya. Tazı da atılar suya şabaşap suyu daşlandırar. Qız tez soyunar, suya batar, çıxar. Dəmirçi birdən baxar görər şagird çıxıb. Deyər:

– Bə, nə tez çıxdın?

Qız deyər:

– Üşüdüm çıxdım.

Axşam evə gələndə nənə deyər:

– Hə, oğul, nə gördün?

Deyər:

– Vallah, üzdük, amma bir zad anlamadım.

Nənə deyər:

– Gördün, oğul! Di başından çıxart, işlə.

Bir neçə müddər keçər. Bir gün qız tükanda tək başına oturmuşdu, fikirləşir görər bir il qurtarıb. Durar tükanı bağlar, qapıda yazar:

“Qız gəldim, qız getdim, Həlim xan!
Düz gəldim, düz getdim, Həlim xan!”

Baş alar gedər. Yol ayrımına yetişər. Bir gün gözlər görər əmoğludan xəbər olmadı. Deyər, gedim, görüm əmoğlum haradadı.

Gedər, gedər, yetişər bir şəhərə. Axtarar tapar ki, əmoğlusu tovlambarda quylanıb külə, bir başı eşigdə. Hər zadın da satıb xərcləyib. Gedər pal-paltar, at alar gətirər. Deyər:

– Əmoğlu, dur gey, atı min gedək.

Oğlan paltarları geyər, atı minər, qoyarlar gələrlər öz şəhərlərinə sarı. Bunlar burada gəlməkdə olsunlar...

Həlim xan gələr görər tükanı bağlı, qapıda yazıblar:

“Qız gəldim, qız getdim, Həlim xan!
Düz gəldim, düz getdim Həlim xan!”

İki əli olar, bir təpəsi. Gələr nənəsinə deyər:

– Nənə, gördün şagird qız imiş?!

Bir az xərazi malı-zadı alar, düşər qızın dalıyca.

Bu yandan əmoğlu, əmqızı gələrlər yetişərlər öz şəhərlərinə. Hərə gedər öz evinə. Qız çoxluca pul qazanmışdı, verər dədəsinə. Bir gün oturmuşdular, deyər:

– Ata, əmoğlunun atı mənimdi. Dur get al gətir.

Dədə durar gedər, deyər:

– Qızım deyir, “əmoğlu, atımı ver!”.

Oğlanın dədəsi baxar nənəsinə, nənəsi baxar dədəsinə. Qızın dədəsi atı alar gətirər. Bir neçə gün keçər. Qız deyər:

– Ata, əmoğlunun pal-paltarı mənimdi. Dur get al gətir.

Dədə durar gedər, deyər:

– Qızım deyir, “əmoğlu, pal-paltarımı ver”.

Yenə oğlanın dədəsi baxar nənəsinə, nənəsi baxar dədəsinə. Qızın dədəsi pal-paltarı alar gətirər. Oğlan qalar lütüryan.

İndi sənə deyim Həlim xandan. Həlim xan yetişər şəhərə. Ucadan səsliyə-səsliyə dolaşırdı ki, qız eşitsin çıxsın. Qız da eşidər çıxar çölə. Həlim xanı tanıyar. Həlim xan da onu tanıyar. Danışarlar. Həlim xanı götürər gələr evə. Dədəsinə deyər ki, bə bu, o adamdı. Həlim xan deyər ki, bə mən də səndən ötür gəlmişəm. Nənəmin gözü yoldadı.

Toy tutarlar. Çalıb-çağırarlar. Həlim xan qızı götürər gedər.

Göydən bir alma düşdü. Özü mənim, pülüşü eşidənlərin.



آلتیم توپ

گونلرین بیر گونونده بیر دانا باجی وار ایدی، بیر دانا قردش. هیچ زادلاری یوخ ایدی. قردش گئدردی قوش شیکار ائلردی گتیرردی، ایکیسی یئیه‌ردیلر دولانار دیلار. آخشام چاغی قردش گلنده، باجی چیخاردی دورادی قاپیدا. قردشین آتین آلاردی سالاردی طؤولیه، آرپا تؤکردی، گلردی ائوه. اوتوراردیلار شام یئیه‌ردیلر دانیشاردیلار یاتاردیلار.

بیرگون قردش یئنه گئتمیشدی شیکارا. قویوداان بیر سس گلر. تیز گئدر قویو باشینا. دئیه‌ر: ای قویوداکی، آدامسان دئییلسن! حیوانسان دئییلسن!

قویوداان سس گلر کی، ایپ سالللا، منی چک اشیگه.

تیز ایپ تاپانماز. چادراسین آچار سالار. گوجن-زوران چکر چیخارتار. گؤرر بیر دانا دا ساری دئو دی. تیز قیشقیرار قاچسین، دئو دئیه‌ر: قاچما! ایندی کی، منی قویوداان قورتاردین سنی یئمیرم. آما گرک سنی آلام.

تیز دئیه‌ر: یوخ، اولماز! من سنه گلمه‌رم.

دئو دئیه‌ر: منه گلمه‌سن، ئوزوندو ئولدوررم، قارداشینی دا.

آخیردا اولماز، تیز گئدر دئوه.

بو یول، آخشام اولاندا دئو دالدا-بوجاقدا گیزلنیردی کی، تیزین قردشی گؤرمه‌سین. سحر اولجاق کی، قردش گئدیردی شیکارا، چیخیردی اشیگه.

بیرگون ساری دئو دئیه‌ر کی، تیز بئله ایگیللی اولماز. گرک قردشینی گؤنده‌رم ئولومه. بن داها دالدا-بوجاقدا قالماقدان یوروولدوم.

## ALTIM TOP

Günlərin bir günündə bir dana bacı var idi, bir dana qərdəş. Heç zadları yox idi. Qərdəş gedərdi quş şikar edərdi gətirərdi, ikisi yeyərdilər, dolanardılar. Axşam çağı qərdəş gələndə bacı çıxardı durardı qapıda. Qərdəşin atın alardı, salardı tövləyə, arpa tökərdi, gələrdi evə. Oturardılar şam yeyərdilər, danışardılar, yatardılar.

Bir gün qərdəş yenə getmişdi şikara. Quyudan bir səs gələr. Qız gedər quyu başına. Deyər:

– Ey quyudakı, adamsan dillən! Heyvansan dillən!

Quyudan səs gələr ki, ip salla, məni çıxar eşiyə.

Qız ip tapanmaz, çadranı açar salar. Gücən-zoran çəkər çıxardar. Görər bir dana sarı devdi. Qız qışqırar qaçsın, dev deyər:

– Qaçma! İndi ki məni quyudan qurtardın, səni yemirəm. Amma gərək səni alam.

Qız deyər:

– Yox, olmaz! Mən sənə gələnmərəm.

Dev deyər:

– Mənə gəlməzsən özünü də öldürərəm, qardaşını da.

Axırda olmaz, qız gedər devə.

Bu yol, axşam olanda dev dalda-bucaqda gizlənirdi ki, qızın qərdəşi görməsin. Səhər olcaq ki, qərdəş gedirdi şikara çıxırdı eşigə.

Bir gün sarı dev deyər ki, qız, beləliyilən olmaz, gərək qərdəşini göndərəm ölümə. Mən daha dalda-bucaqda qalmaqdan yoruldum.

Qız deyər, axı mənim dünyada bir dana qərdəşim var, onu da göndərsək ölümə, necə eləyim?

Dev deyər:

– Mən belə zadları bilmərəm. Axşam gərək özünü vurasan noxoşluğa. Qərdəşin gələndə deyərsən ki, dərmanım ağ dev bağındakı üzümdü.

Qız ağlar, sızlar. Axşam olar. Qərdəş gələr görər bacı haman deyil, deyər:

– Bacı, sənə nə olub? Çoxdandı sən haman bacı deyilsən. Bə o günlər harda qaldı? Bə niyə belə olmusan?

Bacı deyər:

– Qərdəş, Allahdan gizlin deyil, səndən nə gizlin. Çoxdandı sancılanmışam. Deyirlər dərmanım ağ dev bağındakı üzümdü.

Qərdəş deyər:

– Dünyanın o başında da olsa, gedərəm gətirərəm. Bu gecəni mənə möhlət ver. Sabah hər yandan olsa gedərəm.

Səhər gün baş verməmiş durar atın minər yola düşər. Az gedər, çox gedər, yetişər ağ dev bağına. Atı bağlar bir yanda. Duvardan aşar düşər bağa. Dev o yandan çıxar gələr, deyər:

– Ay həramzada, sən burda nə edirsən? İndicə səni qanına bularam.

Qərdəş yüyürər devlən güləşməyə. Götürər devi başına vurar yerə. Oturar sinəsi üstə. Dev deyər:

– Bir də vur, sonra öldür.

Deyər:

– Bizlərdə dəb deyil.

Dev bir anqırar. Elə ki, qərdəş sarı devin səsin eşidər. Qıza deyər ki, qərdəşin qərdəşimi öldürdü. Qız sevinər.

Qərdəş ağ devi öldürər, üzümlərdən dərər gələr. Deyər:

– Bacı, al ye! Kaş sənin dərmanın üzüm ola!

Bacı yeyər, toxdar. Beş gün, on gün keçər. Yenə sarı dev başlar ki, gərək qərdəşini göndərəm ölümə. Özünü vur noxoşluğa, denən ki, dərmanın qərə dev bağındakı qarpızdı.

Yenə qərdəş atın minər. Az gedər, çox gedər, yetişər qərə dev bağına. Atı bağlar, duvardan düşər o yana. Dev çıxar gələr. Deyər:

– Ay haramzada, sən hara, bura hara? Quş quşluğu ilən burdan keçənməz. Sən necə gəldin? İndicə qanına bularam.

Qərdəş yerir qabağa. Güləşərlər. Götürər devi vurar yerə. Dev deyər:

– Bir də vur, sonra öldür.

Deyər:

– Bizlərdə dəb dəyil. Elə bir dəfə vurarıq.

Dev bərkdən anqırar. Səsi gələr çatar sarı devin qulağına, deyər ki, qız, qərdəşin qərdəşimi öldürdü. Qız sevinər.

Qərdəş devi öldürər, qarpız dərər gələr. Deyər:

– Bacı, al ye! Kaş sənin dərmanın qarpız ola.

Günlərin bir günündə qız yeriklər, gün keçər, ay keçər, vurar qızın uşağı olar. Əl girər qızın ürəginə ki, axşam qərdəşim gəlsə nə deyəcəyəm? Bu oğlan uşağını nə təhər üzə çıxardacağam?

Axşam qərdəş gələr. Deyər:

– Bacı, rəngin niyə saralıb?

Qız deyər:

– Qərdəş, Allahdan gizlin deyil, səndən nə gizlin. Qabağa çıxmışdım. Gördüm yol üstə bir oğlan uşağı. Dedim, Məhəmməd hümmətidi, yerdə qalmasın, götürdüm gəldim evə. Sonra qorxdum ki, acığın gələr.

Qərdəş uşağa baxar, məhəbbəti gələr. Adın qoyarlar "Altım top". Bir gün, iki gün, üç gün... Uşaq olar dörd yaşında, əldən yapışmalı. Oğlana dayı-dayı deyirdi. Qərdəş çox sevirdi. Axşam evə gələndə Altım top qaçardı qabağına. Atı çəkərdi tövləyə, yem verərdu, gələrdi oturardı.

Bir gün Altım top əl çəkməz, qız açar başına gələni deyər. Deyər ki, ama dayına bir söz demə. Altın top deməz.

Dev yenə bir gün qıza deyər ki, mən tək qalıram, darıxıram. Səni də burda qoyub gedənmirəm. Gərək qərdəşinin çörəyinə zəhər tökəsən ölə, mən çıxam eşigə. Qız ağlar, sız-

lar, dev əl çəkməz. Sən demə, Altım top da eşidirdi. Axşambaşı qərdəş evə gələndə kəsər qabağın deyər:

– Mən gəlincə qəza yemə, mən gəlim sonra.

Dayı deyər yaxçı.

Altın top hövlü atı çəkər tövləyə, arpa tökər. Gələr oturar dəstərxan başında, bir dana tazıları var idi. Deyər:

– Əvvəl bir tikə tazıya ataq, sonra özümüz yeyək.

Tazı tikəni yeyər, yıxılar ölər. Qərdəş hirslənər. Bilər ki, bacısı zəhər töküb, qılıncı çəkər vurar, bacı ölər. Altın top deyər:

– Dayı, onu niyə öldürdün? O, günahsız idi.

Açar bu yol qəzəv-qədəri söylər. Qədrəş durar ayağa, qılıncı çəkər, keçər sarı dev yanına, onu da öldürər. Qalarlar ikisi. Altım top on altı yaşında-zadda idi. Dayı deyər:

– Day burda qalanmarıq. Gedək çöldə-dağ başında yaşayaq. Ev-eşiklərin satarlar, sovarlar, gedər dağ başında çadır qurarlar, qalarlar. Bir gecə dayı yatırdı, Altım top ayaq altında, baş üstündə şəm yandırırdı, keşik verirdi. Bir gecə də Altın top yatırdı, dayı keşik verirdi.

Bir gecə yenə Altım top keşik verirdi. Dayının ayaq şəmi sönər. Altım top qalar bilməz ki, baş üstə şəmi neçı yandırsın. Uzaqdan bir işıq gəlirdi. Deyər ki, gedim ordan yandırım gəlim. Gedər-gedər, görər dərin pilləkan var. Düşər gedər, görər qırx həramlar düzülüb deyirlər-gülürlər. Çal-çağırdı. Bir yanda düyü süzürlər. Bir yanda samavar qaynır. Keçər qazan başına, görər neçə hərami yapışıb qazanı qavzayanmırlar. Götürər tək canına qazanı atar o yana, deyər:

– Dayımın ayaq şəmi sönüb, gəlmişəm onu yandıram.

Deyərlər:

– Eybi yoxdu, yandır.

Altım top şəmi yandırar. Qayıdanda görər taqçada iki alma var. Birin götürər çıxar eşigə. Eşikdə deyər: “Gedim o birin də götürüm aparım dayıma”. Gələr o biri almanı da götürər. Qırx həramibaşı görər çox zirək cavandı. Deyər:

– Gəl bizimlən şərik ol. Bu gecə gedəcəyik şahın xəzanəsin kəsək.

Altım top deyər:

– Gedim dayımın ayaq şəmin qoyum gəlim.

Qaranlıqda Altım top gedər qayıdar. Qırx həramılar dolarlar şahın evinə. Altım top deyər:

– Siz durun eşikdə. Mən gedim görüm adam-madam yoxdu, çağırım gəlin.

Duvardan aşar düşər həyətə. Gedər görər kiçik qızın otağıdı. Kağaz yazar qoyar sinəsi üstə ki, qismət olsa səni alacağam özümə. Bir də bir öpüş alar. Almalardan da birin qoyar sinəsi üstə. Gedər, gedər, görər böyük qızın otağıdı. Yenə bir kağaz yazar qoyar sinəsi üstə ki, qismət olsa səni alacağam dayıma. Bir də bir öpüş alar. O biri almanı da qoyar onun sinəsi üstə keçər. Gedər görər padşah yatıb. Ağzı yanında bir adı batmış istər girsin ağzına. Keçər şahın xəncəlin çəkər. Adı batmışı xəncəlin oxuna taxar, qoyar baş üstünə. Öz xəncəlin də taxar şahın belinə. Gələr çıxar duvar başına. Qılıncın çəkər qırx həramılara deyər:

– Bir-bir çıxın üstə, sallayım o yana.

Qırx həramılar bir-bir çıxdıqca Altım top başın kəsər salar həyətə. Qırxın da öldürər qoyar gedər dayısının yanına.

Səhər olar, kiçik qız ayılar görər ki, nə var. Gedər dədəsinin yanına, deyər:

– Təxtin tabut olsun, yerin qanilən dolsun. Sən nə günün şahısan ki, gecə evinə adam gəlir, qızının yanına belə kağaz qoyur.

O yandan böyük qız ayılar, hay salar. Bu yandan padşah görər ayrı xəncər belinə bağlayıblar, öz xəncəli baş üstündə elə, qırx hərami başını da kəsib töküblər həyətə. Şəhərə xəbər düşər. Padşah əmr elər, şəhərin adamların bir-bir gətirsin görəm bu iş kimin işidi? Hamını gətirərlər, heç kimin xəbəri olmaz. Padşah deyər ki, kim qalıb? Deyərlər, heç kim qalmadı, amma dağda iki nəfər var, onların işi olmaz. Onlar fəqir-füqəra bir adamdılar.

Padşah deyər:

– Gedin onları da gətirin!

Padşahın adamı gələndə Altım durar deyər ki, nə deyirsiz? Deyərlər, bə padşah çağırır.

Altım top deyər:

– Keçin, gedək.

Dayı deyər:

– Baba, boşla getsinlər! Şahın bizimlən nə işi olacaq? Ağrımaz başına niyə saqqız salırsan?

Altım deyər:

– Dayı, tez qayıdaram.

Gələrlər yetişərlər padşahın yanına. Altım padşaha uzaqdan baş əyər, keçər deyər:

– Padşah sağ olsun! Gəl qabağca mənim xəncəlimi ver özümə, deyim.

Bu yol açar başdan deyər ki, necə getdim şəmi yandırmağa, qırx həramibaşı məndən xoşu gəldi. Dedi: "Gedək padşahın xəznəsin kəsməyə". Dedim: "Yaxçı". Gəldim çıxdım duvara, dedim siz durun, mən baxım səs-səda olmasa si-

zi çağırım. Gəldim kiçik qızın başı üstə kağaz yazdım, qoydum sinəsi üstə. Bir də öpüş aldım. Alma qoydum, keçdim böyük qızın otağına, orada da kağaz yazdım, bir də öpüş aldım, alma qoydum. Gəldim sənin otağına. Gördüm adı batmış istir girsin ağzına. Xəncəlini çəkdim, adı batmışı taxdım ucuna, öz xəncəlimi bağladım belinə. Gəldim çıxdım duvar başına. Qırx həramıları bir-bir öldürdüm, tökdüm həyətə. Getdim dayımın yanına. Indi öz yanındayam. Öldürəcəksən öldür, saxlayacaqsan, saxla.

Padşah görər zirək oğlandı. Çəkər alnından öpər. Göndərər dayısın da çağırarlar.

Yeddi gün, yeddi gecə toy tutarlar. Kiçik qızı Altım top alar, böyük qızı dayı. Padşah onu vəzir elər.

Yedi, içdi mətləbinə yetişdi.


٢٥

٥- اکینچی نین قیزی

گونلرین بیر گونونده شاه عباس دورار وزیری گؤتورەر گئدرلر شیکارا. چؤللو-برری-بیاباندا
گؤرەرلر قوجا بیر اکینچی وار. شاه عباس گؤرەر کی قوجا چوخ دونیا گؤرموشدو. دئیەر: قوجا عمی،
اوزاقداسان، یا خیندا؟
قوجا شاه عباسی تانیار. دئیەر: اوزاقدا ایدیم، ایندی یاخینداییام.
شاه عباس دئیەر: ایکیدەسن، اوچدە؟
قوجا دئیەر: ایکیدە ایدیم، ایندی اوچدەیم.
شاه عباس دئیەر: ایکیدەسن، دؤرددە؟
قوجا دئیەر: ایکیدە ایدیم، ایندی دؤرددەیم.
بوجور صحبتلشرلر. قوجا دئیەر: بیزیم ائوە قوناق اولون. بویول، پادشاهی، وزیری
گؤتورەر آپارار ائوینه. قوجانین بیرجه قیزی وارایدی. بیر گؤزو چپری ایدی. قیز دئیەر:
دده، آرپا کؤکسین نەجور قویاق قوناقلارین قاباغینا؟
قوجا دئیەر: اولسون، عیبی یوخدو.
شاه عباس گؤرەر قیز بیلیجی قیزدی. باشدان بوخاری باخار، دئیەر: قوجا، بوخاری
یاخچی بوخاری دی، باشی کج دی.
قیز قاییدی دئیەر: کجلیگین نه ائلیرسن؟ توستوسو چکمگینی دی!

## ƏKİNÇİNİN QIZI

Günlərin bir günündə Şah Abbas durar vəziri götürər gedərlər şikara. Çöllü-bərri biyabanda görərlər qoca bir əkinçi var. Şah Abbas görər ki, qoca çox dünyagörmüşdü. Deyər:

– Qoca əmi, uzaqdasan, yaxında?

Qoca Şah Abbası tanıyar. Deyər:

– Uzaqdaydım, indi yaxındayam.

Şah Abbas deyər:

– İkidəsən, üçdə?

Qoca deyər:

– İkidəydim, indi üçdəyəm.

Bu cür söhbətləşərlər. Qoca deyər, bizim evə qonaq olun. Bu yol padşahı, vəziri götürər aparar evinə. Qocanın bircə qızı var idi. Bir gözü çəp idi. Qız deyər:

– Dədə, arpa kökəsin nə cür qoyaq qonaqların qabağına?

Qoca deyər:

– Olsun, eybi yoxdur.

Şah Abbas görər qız bilici qızdı. Başdan yuxarı baxar, deyər:

– Qoca, buxarı yaxçı buxarıdı, başı kəjdi.

Qız qayıdıb deyər:

– Kəjliyin nə edirsən? Tüstünü çəkməyini de!

Şah Abbas barmağın dişlər, çörək yeyərlər, durar getməyə, qayıdar padşah qocaya deyər:

– Qaz göndərsəm, ütərsən?

Qoca deyər:

– Ax, necə! Ustasıyam.

Şah, vəzir gələrlər yerişərlər şəhərə. Vəzir soruşar:

– Şah sağ olsun, o sözlər nə idi danışırdız?

Şah Abbas deyər:

– Get, qocadan soruş, örgəş.

Vəzir görər özün saxlıyanmaz, gələr qocanın yanına. Qoca deyər:

– Hər sözə yüz tümən alaram, deyərəm.

Vəzir qəbul elər. Qoca deyər:

– O ki, padşah soruşdu: “uzaqdasan, yaxındasan?”, mənim gözlərimi soruşdu. Mən də dedim, yaxındayam. Yani uzağı görənmirəm. O da ki, soruşdu :“ikidəsən, üçdə?”, yəni sayılan yol gedirsən, ya yox? Mən də dedim, “üçdəyəm”, yani bəlli sayılan gedərəm. O da ki, dedi: “ikidəsən, dörddə?”, eynəklərimi soruşdu. Mən də dedim ki, dörddəyəm, yəni eynək taxıram. Qaz da ki, sənsən göndərdi, yoldum.

Vəzir dedi:

– O nəmənədi ki, buxarı yaxçı buxarıdı, başı əyridi?

Qoca dedi:

– Onu da qızım bilir.

Gələr qızın yanına. Qız deyər:

– Mən onu tanıdım, bildim ki, padşahdı. Arpa kökəsi də mən özümü deyirdim. O da dedi ki, qız yaxçı qızdı, amma gözü cəridi. Mən dedim ki, cəriliyinə baxma, əlinin işinə,özünün başaraçılığına bax.

Vəzir örgəşər gələr. Şah Abbas deyər:

– Vəzir, o qızı gərək alasız mənə.

Vəzir adam göndərər ki, qoca, qızını padşah istir. Qız eşidər, söz göndərər ki, mən gələmmərəm, padşahın əlində sənət yox. Bəyə adamdı, işdi elə olmadı, belə oldu, padşahlıqdan düşdü, haradan çörək qazanacaq? Mən ac qalaram, getsin sənət örgənsin, sonra məni alsın.

Şah Abbas özü-özünə deyər: “Qəribə işdi! Əkinçi babanın qızında ifadəyə bax!” Nə qədər elər olmaz. Qız deyər: “Toyuq bir qıçlıdı ki, bir qıçlıdı, sənət örgəşməsə gəlmərəm”.

Şah Abbas məcbur qalar gedər həsir toxumaq örgəşər. Qız deyər, hə, indi gələrəm. Şah Abbas verər toy-tabağıla qızı gətirərlər. Şah Abbasın bundan sonra iki arvadı daha var

idi. Bir gün istər arvadlarının ağılların yoxlasın. Böyük arvadın yanına gedər, deyər:

– Xanım, sən səhər çağı nə təhər ayılırsan?

Deyər:

– Mənim həyətə getməyim olar, ayılaram.

Bundan sonra durar gedər taza arvadın yanına. Deyər:

– Xanım, sən səhərçağı nə cür ayılırsan?

Qız deyır:

– Padşah sağ olsun, səhərçağı behişitin qapıları açılar, bir xoş iyi gələr. O məni ayıldar.

Padşahın bir məhəbbəti vardısa, min olar. Görər layiq qızdı.

Günlərin bir günündə Şah Abbas dərviş paltarında gedər bir qəssab tükanına. Durar növbəyə ət alsın. Qəssabbaşı deyər:

– Baba dərbiş, əyləş içəridə verək.

Şah Abbas içəri keçmən haman, ayağının altı xomar düşər bir qaranlıq yerə. Görər ki, özündən sonra ayrı adamlar da vardı. Deyərlər ki, bu tükanda adam əti satarlar. Bizi də tutubblar ki, öldürsünlər, ətimizi satsınlar.

Şah Abbas görər ki, işi pisə çəkib. Bir gün oturmuşdu, bir nəfər gələr ki, dur görək, nöbə sənindi.

Padşah deyər:

– Mənim ətimdən neçə qazanarsız?

Deyər ki, filan qədər.

Şah Abbas deyər:

– Mən yaxçı həsir toxumaq başarram. Məni öldürməyin, sizə həsir toxuyum, aparın satın, yüz o qədər pul qazanın.

Deyər:

– Yaxçı...

Küləş alarlar gətirərlər, Şah Abbas başlar həsir toxumağa. Toxuya-toxuya həsirin bir yanında yazar ki, vəzir, amandı qoşun götür, gəl. Filan yerdə qalmışam. Yüz tümən desələr, beş yüz tümən ver, həsiri al.

Həsiri qurtarar, deyər:

– Aparın filan küçəyə. Orada yaxçı pula gedər.

Həsiri küçədə dolandıranda, vəzirin gözü sataşar Şah Abbasın xəttinə. Bilər ki, nə var. Yüz deyirlər, beş yüz verər, həsiri alar. Tez qoşun götürər gedər qəssab tükanını dövrələr. Şah Abbası çıxardar. Tükanı dağıdar, gələrlər evə.

Şah Abbas əkinçi qızının əqlinə heyran qalar, məhəbbəti çoxalar.

Rəvayət digər əz inqese darim. Dər dəftəre digər, anca Şah Abbas vəzirra ba möhlət-e çehel ruze sər-e pinəçi (becaye əkinci). Mifererestəd və dər bargəşte vəzir qese təmam mişəvəd. Hərf-e doxtər və felan həm dər bin nist.

(Bu nağıldan başqa bir rəvayətimiz də var. Başqa bir kitabda orada Şah Abbas vəziri 40 günlük möhlət ilə baş pinəci (əkincinin yeri) kimi göndərir. Vəzirin dönüşündə nağılımız bitir. Qız-filan da burada verilmir).

## ۴ـ قاری ننه‌نین جوجه‌سی

بیر دانا قاری وار ایدی. بیر دانا بونون جوجه‌سی وار ایدی، بیر دانا دا گیرده‌کان آغاجی.
یئل ووراردی گیرده‌کانلار تؤکولردی، تؤکولدوکجه، جوجه یئییه‌ردی.
بیر گون قاری دئییه‌ر: کؤپک اوغلو جوجه، قویمیاجاقسان بیر دانا گیرده‌کان درمان
اوچون ده قالسین؟ ایندیجه سنین‌کینی سنه وئره‌رم.
گتیره‌ر بیر منقل اود قویار. جوجه‌نی توتار. گؤتون قویار اودا. ئوتوره‌ر.
یئنه یئل وورار گیرده‌کانلار تؤکولر. جوجه گئدیب یئمز. قاری ننه باخار
اوره‌گی یانار. دئییه‌ر: جوجه‌م، گل!.. گل!.. گیرده‌کانلار دوشوبدو!..
جوجه یئرییر، یئرییر، کوسن کیمین اولموش دئییه‌ر: یئری، یئری، قاری ننه!.. گؤتوم
پیشیبدی!..

## QARI NƏNƏNİN CÜCƏSİ

Bir dana qarı var idi. Bir dana bunun cücəsi var idi, bir dana da girdəkan ağacı. Yel vurardı girdakanlar tökülərdi. Töküldükcə, cücə yeyərdi. Bir gün qarı deyər:

– Köpək oğlu cücə, qoymayacaqsan bir dana girdəkan dərman üçün də qalsın? İndicə səninkin sənə verərəm.

Gətirər bir mənqəl od qoyar. Cücəni tutar. G...qoyar oda. Ötürər.

Genə yel vurar girdəkanlar tökülər. Cücə gedib yeməz. Qarı nənə baxar ürəgi yanar. Deyər:

– Cücəm, gəl!....Gəl!... Girdəkanlar düşübdü!...

Cücə yeriyər, yeriyər, küsən kimin olmuş deyər:

– Qarı nənə!... G... pişibdi!...

## BƏYBİLİCAN HA, BƏYBİLİCAN!...

Bir gün var idi, bir gün yox idi. Allahdan savay heç kim yox idi. Bir dana bacı var idi, bir dana qərdəş. Bir gün deyərlər ki, duraq gedək ayrı şəhərə görək nə elərik, burda bir iş yoxdu. Gedərlər, gedərlər yolda qərdəş susuzlar. Deyər:

– Bacı, mən susuzam.

At ayağının yerində su durmuşdu. Deyər:

– Bacı, içəcəyəm.

Bacı deyər:

– Qərdəş, başına dolanım, icmə! At olarsan.

Qərdəş içməz, gedərlər. İt ayağının yerində su durmuşdu. Deyər:

– Bacı, mən susuzam, içəcəyəm.

Bacı deyər:

– Qərdəş, başına dolanım, içmə! İt olarsan.

Qərdəş içməz, yola düşərlər, oradan gedərlər. Ahu ayağının yerində su durmuşdu, qərdəş deyər:

– Bacı, mən susuzam, içəcəyəm.

Bacı deyər:

– Qərdəş, amandı, içmə! Ahu olarsan.

Qərdəş deyər:

– Ölsəm də, qalsam da gərək bundan içəm.

Başlar sudan içər, olar bir dana ahu. Bu yazıq bacı götürər ahunu da salar yanına, gedər oturar dağ başında.

Padşah şikara çıxmışdı. Gələr görər bir gözəl qız oturub dağ başında, bir dana ahu da otdur.

Padşah deyir:

– Bə, burada niyə? Bə bu cür niyə?

Qız açar başına gələni buna deyər. Padşah bir göyüldən min göyülə qıza vurular. Qoşuna xəbər verər ki, mən şikarımı elədim. Şikarını eylən qayıtsın. Götürər qızı da, ahunu da gətirər. Verər, toy tutarlar. Qızı alar.

Qızın bir dana qərə qaravaşı var idi. Bir gün bunlar gedərlər hamama. Soyunarlar. Qaravaş itələr qızı salar çarhovuza. Nəqqa balıq qızı udar. Qaravaş durar xanımın par-paltarın geyinər gələr evə.

Padşah deyər:

– Qız, bə niyə bu cür? Qəp-qərə qərəlib yanmısan.

Qaravaş deyər:

– Hamamın suyu biləmə düşmədi.

Demə, bu qız da boyludu. Naqqa balığın qarnında doğur, oğlu olar, adın qoyar İsmayıl.

Bir gün vurar qəra qaravaş yeriklər. Padşaha deyər:

– Ahunu kəsin, mən yeyim.

Padşah deyər:

– Qız, bu nə sözdür! O, sənin qərdəşindi.

Deyər:

– Olmaz. Ahu ətinə yerikləmişəm, gərək kəsəsiz, yeyəm.

Padşah görər olan iş deyil, deyər:

– Ahunu gətirin kəsin.

Ahunu gətirər kəsməyə. Ahu üzün dolandırar padşaha. Öz dilicə:

– Qoyun gedim, bir dolanım, gəlim, kəsin.

Padşah deyər:

– Qoyun getsin dolansın, gəlsin.

Ahu baş alıb gedər çarhovuza, deyər:

– Bəybilican ha, bəybilican!
Bəybilican qurbanın olsun!
Asılı qazanlar asılıb,
İtili pıçaqlar itilib,
Qərə qaravaş ətimə yerikləyib.

Çarhovuzdan səs gələr:

– Bəybilican ha, bəybilican!
Bəybilican qurbanın olsun!
Qəra qaravaş atıbdı,
Naqqa balıq udubdu,
Şah oğlu şah İsmayıl
Qucağımda yatıbdı.
Saçı da gərdənimi tutubdu.

Ahu qayıdar gələr. İstərlər başını kəssinlər, yenə ahu öz diliycə deyər:

– Qoyun bir gedim, dolanım gəlim.

Padşah deyər:

– Qoyun getsin.

Ahu baş alar gedər çarhovuza. Padşah düşər heyvanın dalınca ki, görüm bu heyvan hara gedir qayıdır. Gedər, görər ahu durub çarhovuzun başında, deyir:

–Bəybilican ha, bəybilican!
Bəybilican qurbanın olsun!
Asılı qazanlar asılıb,
İtili pıçaqlar itilib,
Qərə qaravaş ətimə yerikləyib.

Çarhovuzdan səs gələr:

– Bəybilican ha, bəybilican!
Bəybilican qurbanın olsun!
Qəra qaravaş atıbdı,
Naqqa balıq udubdu,
Şah oğlu şah İsmayıl
Qucağımda yatıbdı.
Saçı da gərdənimi tutubdu.

Padşah eşitməlisini eşidər, bilməlisini bilər. Əmr elər çarhovuzun ayağın çəkərlər. Naqqa balığı çıxardarlar. Qarnını sökərlər, qızı, uşağı çıxardarlar. Padşah görər saç dolanıb qızın boynuna. Padşah deyər:

– Burada niyə?

Qız deyər ki, qəra qaravaş itələdi düşdüm.

Qərə qaravaş evdə oturmuşdu. Görür hay-küylən qızı gətirdilər. Padşah əmr verər qərə qaravaşı bağlatdırar qatırların quyruğuna. Dağı-daşı o qədər dolandırar ki, tükləri qalar qatırların quyruğunda.

Bu da sizin sağlığıza!


٣۵

پیس-پیسلی باجی — A

گونلرین بیر گونونده بیر دانا پیس-پیسلی وار ایدی. بیر گون دئیه‌ر کی،
دوروم گئدیم اؤزومه بیر دانا ار تاپیم.
دورار چادراسین سالار باشینا، گئدر ار تاپماغا. گؤره‌ر ایت گلیر.
ایت دئیه‌ر: هارا گئدیرسن پیس-پیسلی باجی؟
دئیه‌ر: گئدیرم بیر دانا ار تاپام.
دئیه‌ر: گل من سنی آلیم.
دئیه‌ر: دؤیه‌نده نه ایله دؤیه‌رسن؟
دئیه‌ر: قویروغوموا دورارام باتارسان زیغا.
دئیه‌ر: یئری، یئری!.. من سنه گلمه‌رم.
گئدر گؤره‌ر بیر دانا قورباغا گلیر.
قورباغا دئیه‌ر: پیس-پیسلی باجی هارا گئدیرسن؟
دئیه‌ر: گئدیرم اؤزومه ار تاپام.
دئیه‌ر: گل من سنی آلیم.
دئیه‌ر: دوراندا نه ایله دورارسان؟
دئیه‌ر: آتیلارام مینه‌رم باشینا، قالارسان اوردا بوغولارسان.
دئیه‌ر: یئری، یئری!.. من سنه گلمه‌رم.

## PIS-PISLI BACI

Günlərin bir günündə bir dana pıs-pıslı var idi. Bir gün deyər ki, durum gedim özümə bir dana ər tapım.

Durar çadrasın salar başına, gedər tapmağa. Görər it gəlir. It deyər:

– Hara gedirsən, pıs-pıslı bacı?
Deyər:
– Gedirəm bir dana ər tapam.
Deyər:
– Gəl mən səni alım.
Deyər:
– Döyəndə nə ilən döyəssən?
Deyər:
– Quyruğumla vuraram batarsan zığa.
Deyər:
– Yeri, yeri! Mən sənə gəlmərəm.
Gedər görər bir dana qurbağa gəlir.
Qurbağa deyər:
– Pıs-pıslı bacı, hara gedirsən?
Deyər:
– Gedirəm özümə ər tapam.
Deyər:
– Gəl mən səni alım.
Deyər:
– Vuranda nə ilən vurarsan?
Deyər:
– Atılaram minərəm başına, qalarsan orda boğularsan.
Deyər:
– Yeri, yeri! Mən sənə gəlmərəm.
Yenə bir az gedər, görər bir dana siçan gəlir. Siçan deyər:
– Pıs-pıslı bacı, hara gedirsən?
Deyər:
– Gedirəm özümə ər tapam.
Deyər:

– Gəl mən səni alım.

Deyər:

– Vuranda nə ilən vurassan?

Deyər:

– Quyruğumla gözünə sürmə çəkərəm.

Deyər:

– Gələrəm.

Siçanın padşahın evində yuvası var idi. Pıs-pıslını götürər gedər evə.

Bir gün betər yağış yağmışdı. Pıs-pıslı deyər:

– Mən gedirəm hamama.

Siçan deyər ki, xanım, boşla! Yağış yağıb, küçələr zığdı, o cür-bu cür. Pıs-pıslı saymaz. Durar gedər, at ayağının yerində su durmuşdu. Ayağı büdürər, düşər qalar orada. Hər nə elər çıxanmaz.

Bir az keçər, görər tap-tup gəlir. Padşahın atlıları keçirdi.

Deyər:

Tapbur-tupbur atlılar!
Tirmə qərə börtdülər!
Şah evinə gedərsiz,
Penir-çörək yeyərsiz,
Siçan bəyə deyərsiz:
Pıs-pıslı Püstə xanım,
Saçı dabanı üstə xanım,
Düşübdü at ayağının yerinə,
Gəlsin onu çıxartsın.

Atlılar bir o yana baxarlar, bir bu yana, diyərlər, bu kimdi, kim deyil? Qoyarlar gedərlər padşahın evinə, deyərlər: “Yolda, gəlirdik, bə bu cür eşitdik....”

Siçan bəy eşidər. Durar gələr. Görər pıs-pıslı xanım düşüb at ayağının yerinə çıxanmır, deyər:

Pıs-pıslı Püstə xanım,
Saçı dabanı üstə xanım,
Əlin ver mənə, çəkici!

Deyər:

– Yeri, yeri! Mən səndən küsüci!

Siçan bəy deyər:

Pıs-pıslı Püstə xanım,
Saçı dabanı üstə xanım,
Gümüş nərduvan qoysam çıxarsan?...

Deyər:

– Yeri, yeri! Mən səndən küsüci!...

Sican bəy deyər:

Pıs-pıslı Püstə xanım,
Saçı dabanı üstə xanım,
Qızıl nərdivan qoysam, çıxarsan?

Deyər:

– Yeri, yeri! Mən səndən küsüci!

Siçan bəy götürər bir parça palçıq, calar pıs-pıslının üstünə. Deyər:

– Qal, köpəgin qızı, öl!


۹- اذانچی

بیر گون وار ایدی، بیر گون یوخ ایدی. بیر دانا دربیش وار ایدی. بو دربیش گئدر بیر دانا
قاپینی دؤیر، گؤرر بیر دؤوری قیزیل گلدی. دؤوروسو ده قیزیل، سرپوشو ده قیزیل. بو یول،
بوشالدی قابلارین وئرر. دئیرلر کی، بابا دربیش هامیسی سنینکی دی. گؤتور گئت.
قابلاری گؤتورر کئچر او بیری قاپینی دؤیر. ینه گؤرر بیر دؤوری قیزیل گلدی.
دؤوروسو ده قیزیل، سرپوشو ده قیزیل. بوشالدی. قابلاری وئرنده دئیرلر کی، بابا دربیش هامیسی
سنینکی دی. گؤتور گئت.
قابلاری گؤتورر کئچر. یئددی قاپی دؤیر. یئددیسینده ده بیر دؤوری قیزیل آلار.
یئددینجی قاپیدا دئیر کی، به بو نه ایش دی؟ دئیرلر کی، بو قاپیلارین یئددیسی ده بیر نفرین
دی. اونا هر کیم گلسه بو جور قیزیل وئرر.
دربیش قویباو گئدر پادشاهین اوینه. قاپینی دؤیر. گلرلر گؤررلر دربیش دی.
گتیررلر بونا – توز دیلیمیز – بئش قیران پول وئررلر. دربیش دئیر: اولماز. من گرک
پادشاهین اوزون گؤرم.
چکیش-برکیش... اولماز. پادشاها خبر چاتار. دئیر: قویون گلسین.
دربیش گئدر پادشاهین یانینا. دئیر: به، قیبله‌ئی عالم ساغ اولسون، بورا
پادشاه اوی دی، منه بئش قیران پول وئریرلر، فیلان یئرده یئددی قاپی وار،
یئددیسی ده بیر آدامین. هر قاپییا گئتدیم بیر دؤوری قیزیل گتیردیلر. دؤوروسو ده

## ƏZANÇI

Bir gün var idi, bir gün yox idi. Bir dana dərbiş var idi. Bu dərbiş gedər bir dana qapını döyər, görər bir dövri qızıl gəldi. Dövrüsü də qızıl, sərpuşu da qızıl. Bu yol boşaldı qabların verər. Deyərlər ki, baba dərbiş, hamısı səninkidi. Götür get.

Qabları götürər keçər o biri qapını döyər. Yenə görər bir dövrü qızıl gəldi. Dövrüsü də qızıl, sərpuşu da qızıl. Boşaldı. Qabları verəndə deyərlər ki, baba dərbiş, hamısı səninkidi, götür, get.

Qabları götürər keçər, yeddi qapı döyər, yeddisində də bir dövrü qızıl alar. Yeddiminci qapıda deyər ki, bə bu nə işdi? Deyərlər ki, bu qapıların yeddisi də bir nəfərindi. Elə hər kim gəlsə bu cür qızıl verər.

Dərbiş qoyar gedər padşahın evinə. Qapını döyər. Gələrlər görərlər dərbişdi. Gətirərlər buna, öz dilimiz beş qıran pul verərlər. Dərbiş deyər:

– Olmaz, mən gərək padşahın özün görəm.

Çəkiş-bərkiş...olmaz. Padşaha xəbər çatar. Deyər:

– Qoyun, gəlsin.

Dərbiş gedər padşahın yanına. Deyər:

– Bə qibleyi-aləm sağ olsun, bura padşah evidi, mənə beş qıran pul verdilər, filan yerdə yeddi qapı var, yeddisi də bir adamın. Hər qapıya getdim bir dövrü qızıl gətirdilər. Dövrüsü də qızıl, sərpuşu da. Bə sən nə günün padşahısan?

Padşah durar dərbişlik paltarı geyər, gedər.

Yeddi qapıdan pay istər. Dərbişə verən təkin buna da verərlər. Yeddiminci qapıda deyər:

– Bax,mən bu qızılı da istəmirəm... Məni bu sirridən agah eləyin görüm bu yeddi qapı kimindi.

Qapıçılar deyərlər:

– Bizim xanımımızındı.

Padşah deyər:

– Məni aparın onun yanına.

Padşah gələr görər bir dana arvaddı, qərə geyinib, oturub. Deyər:

– Ay xanım, məni bu sirrindən agah elə görüm, sənin nə qədər qızılın var ki, belə bağışlayırsan?

Arvad deyər:

– Mən sirrimi heç kimə deməréəm. Filan şəhərdə bir dana qaltaqsaz var. Gündə bir qaltaq qayırar. Üstündə iki dana əksi çəkər. Axşam olu bunu bir dana atdı gələr alar. Elə ki aldı, pulun verdi, istər gedə, qaltaqsaz deyər:

– Ver görüm, bir yeri qalır, düzəldim verim.

Pulların verər əlinə. Alar sındırar atar o yana. Tükanı doludu bu zadlarılan. Sən məni bunun sirrindən agah elə, mən də səni öz sirrimdən agah eləyim.

Padşah qayıdar, deyər:

– Baba dərviş, sən oturmalı oldun, mən getməli.

Gedər, gedər yetişər qaltaqsazın tükanına, görər, bəli, bir dana qaltaq qayırıb, iki əksi – biri oğlan, biri qız üstündə çəkib. Axşam bir dana atlı gələr bunu alar. Pulların verər, istər gedə, kişi deyər:

– Ver görüm qərdəş, orasın düzəldim verim.

Alar sındırar, pulların verir. Atlı çıxar gedər.

Padşah keçər deyər ki, bu gecəni sənə qonağam.

Gecəni qaltaqsaza qonaq olar. Şam gətirərlər. Padşah deyər:

– Gərək sirrindən məni agah eləyəsən, sonra şam yeyəm.

Deyər ki, şamını ye, dərviş baba. Mən indiyəcən heç kimi sirrimdən agah eləməmişəm. Filan şəhərdə bir əzançı var. Hər gün çıxar güldəstəyə, əzan verər. Əzan verər qurtarar. O qədər ağlar ki, yıxılar qəşş elər. Tutarlar qoyarlar yerə. Bir azdan sonra ayılar. Onun sirrin sən mənə desən, mən də sirrimi sənə deyərəm.

Padşah şamın yeyər, başın qoyar yatar. Səhər durar gedər əzançının şəhərinə. Əzan çağı görər, bəli, biri çıxdı güldəstəyə. Orada əzan verdi. Qurtarandan sonra başladı ağladı. Ağladı, ağladı, qəşş elədi, yıxıldı. Tutdular qoydular yerə.

Elə ki, əzançı ayılar, padşah keçər deyər:

– Bu gecə sənə qonağam.

Deyər:

– Eybi yoxdu, gözüm üstə yerin var.

Gecə yemək gətirərlər. Padşah deyər, yemərəm. Sən sirrini mənə deməyincə yemərəm.

Əzançı deyər:

– Dərbiş qərdəş, şamını ye. Vallah mən sirrimi nə bir adama demirəm, nə də bir adam mənim sirrimi bilir. Filan şəhərdə bir nəfər var. Bir dana qəfəsə qız salıb. Bir dana onun iti var, bir dana da ağ saqqallı quru kəllə var. Gətirər itin qabağına pilov qoyar. Elə ki, it yedi doydu, artığın verər qıza, yeməz. Gedər başı gətirər bu qızın yanında ağaclan döyər. Qız deyər döymə, yeyim. Onun sirrindən sən məni agah eləsən, mən də səni öz sirrimdən agah elərəm. Amma bunu da bil ki, çoxları gedib onun sirrin gətirənməyib, ölüblər.

Yenə səhər olar, durar gedər yetişər bir çinar ağacına. Dibində yatmışdı, görər çığır-bağır gəlir. Durar görər əjdaha dırmaşır Simuruğun balaların yesin. Qılıncın çəkər əjdahanı iki şəqqə elər. Bir şəqqəsin verər balalar yeyər. Bir şəqqəsin də atar o yana, gələr, yatar. Bu yol Simurq gələr. Öz-özünə deyər: "Ahan, mənim balalarımı ildə bu yeyirmiş". Gedər bir daş gətirər salsın başına. Balaları hay salarlar ki, nənə, amandı, onu öldürmə, bizi qurtarıb.

Simurq baxar əjdahanın şəqqəsin görər. Daşı aparar qoyar yerinə, gələr qanadın basar suya, çəkər padşahın üstünə. Padşah yuxudan ayılar. Simurq deyər:

– Hara gedirsən? Bu yüzlərədə nə qayırırsan?

Deyər ki, bəs belə. Gedirəm filan yerə.

Simurq deyər:

– Ora gedən qayıtmaz. O, sirrin heç kəsə deməz, desə də öldürər.

Deyər:

– Gərək gedəm, olan dəyil.

Simurq bir dəstə tükündən verər deyər:

– Harada darda qaldın tükümü ota tut, mən gəlim.

Padşah gedər, gedər oranı tapar. Görər əyani bir yerdi. Qapını döyər, deyər:

– Gecəni burada qonağam.

Gedər gecəni orada qonaq qalar. Görər kişi itinin yanında oturdu, elə ki, şam vaxtı gəldi, görər bir dana dəmir qəfəs gətirdi, içində bir dana qız, boşqabda pilov gətirdi, qabaqca qoydu itin qabağına. Elə ki, it yedi doydu, verdi qıza. Qız yemədi. Getdi quru kəlləni gətirdi. Bir-iki döyəndə qız dedi:

– Vurma, yeyim!

Qız başladı yedi. Kişi apardı kəlləni, qəfəsi qoydu yerinə, qayıtdı. Padşah dedi:

– Səni and verrəm səni, məni yaradan Allaha! Sirrindən məni agah elə görüm bu nə işdi?

Kişi deyər:

– Mənim sirrimi heç kəs bilməyib, bilməz. Çörəgin ye, neçə gün qalacaqsan qal, çıx get, qonaqsan.

Padşah əl çəkməz ki, hökmən de.

Kişi durar padşahı aparar bir dana qəbristana. Deyər:

– Bax, bir belə adamı görürsən? Hamısına demişəm, öldürmüşəm. Mən qoymaram sirrim çıxa eşigə.

Padşah deyər:

– De, məni də öldür.

Gələrlər oturarlar. Kişi deyər ki, vallah indi ki, belə oldu, qulaq as, deyim:

– Günlərin bir günündə əmqızımı aldılar mənə. Gecənin bir vaxtı ayılar görərdim bumbuz gəlir, deyərdim: "Əmqızı, haradaydın?" Deyərdi, əmoğlu, səhər azarına düşmüşəm. Bir gecə öz-özümə dedim ki, belə də deyil ki, belə ola. Barmağımı kəsdim. Yerinə duz basdım. Özümü vurdum yuxuya. Gecənin bir vaxtı oldu. Durdu geyindi, şəmşirimi götürdü, dedi:

– Yatmısan? Oyaqsan, boynun vurum.

Səsimi çıxartmadım. Mehtər atımı hazır saxlamışdı. Mindi getdi. Mən də dalıyca getdim. Bu getdi, mən də getdim. Bir yerdən işıq gəlirdi. Qapını döydü. Açdılar. Girdi içəri. Atımı bağladım. Duvardan düşdüm. Gördüm qırx həramılar oturublar. Ağ saqqal, baş qoca qırx həramı də başda oturub. Dedi:

– Çəpəl həramzada, hardasan? Tez ol saqi dolandır.

Əmqızım dedi:

– Köpək yuxlamamışdı.

Qırx həramıbaşı dedi:

– Sabah başın kəs gətir mənə.

Dedi:

– Eybi yoxdu.

Mən gördüm bunlarınan başaranmaram. Girdim tövləyə. Atları qatdım bir-birinə. Bir gurhagur-çalhaçal oldu ki, gəl görəsən. Tövlənin yanında durdum. Bir-bir gəldikcə boyunların vurdum tökdüm tövləyə. Əmqızımlan ağ saqqal kişi qaldılar. Girdim evə. Əmqızım dedi:

– Ahan, özü gəldi. Tut öldür, yəxəm qurtulsun.

Qırx həramıbaşı yügürdü mənim üstümə, çəngəlləşdik. Oturdu sinəm üstə. Demə, bəs, itim də mənlən gəlib. Xənçəl çəkib məni öldürmək istəyəndə it dalıdan xayaladı. Qırx

həramıbaşı kırıxıb düşdü. Qalxdım, başın kəsdim. Bu qızı da götürdüm gəldim. İndi bu it haman itdi. Bu qız haman qız. Bu kəllə də qırx həramıbaşının kəlləsi. Odu ki, kəlləni vuranda qız deyir ki, vurma, yeyim! İndi ki mənim sirrimi bildin, dur gedək öldürüm.

Padşah deyər:

– Durum namazımı qılım, ondan sonra öldür.

Aftafa götürər çıxar, görər hər yan qıravuldu. Fikirləşdi ki, nə cür çıxsın getsin. Birdən-birə tük yadına düşdü. Tutar ütar. Simruq hazır olar. Bunu götürər gedər.

Kişi evdə ha gözlər, görər xəbər olmadı. Çıxar eşigə. Bilər ki, dərviş qaçıb. Öz-özünə deyər ki, mənim ki, sirrim eşigə çıxdı, qalmağımın faydası yoxdu. Gələr həmi qızı, həmi özün öldürər. Padşah da gələr əzançının yanına. Deyər ki, bəs belə, bu cürdü, o cürdü. Əzançı deyər:

– İndi sənə sirrimi bildirrəm.

Deyər: Günlərin bir günündə çıxdım əzan verməgə. Allaha yalvardım, yaxardım. Bir anda gördüm yel əsdi, tufan qopdu. Mən yıxıldım özümdən çıxdım. Göz açdım, gördüm ayrı şəhərdəyəm. Durdum ayağa, o yana – bu yana baxdım, acmışdım. Hər yandan pul verdim çörək alam, ələ saldılar. Bir qoca var idi. Dedim:

– Pul verirəm, çörək vermirlər.

Qoca dedi:

– Oğul, burada verməzlər. Burada hər zad səlavatadı.

Getdim hər yanda səlavat çevirdim, çörək istədim vermədilər. Getdim qocaya dedim ki, vermirlər. Apardı məni gəzməyə, dedi:

– Düş burada yuyun, get, harada səlavat çevirsən verərlər.

Düşdüm çeşmədə yuyundum, getdim çörək aldım. Qoca məni apardı evlərinə. Bir dana qızı var idi. Dedi:

– Gəl qızı verim sənə.

Mən də aldım. Qız şərt-şurt elədi ki, hər nə desəm, mənə deyinib-dinməyəsən. Dedim, eybi yoxdu. Bir zaman keçdi. Uşağımız oldu. Bir gün gəldi, dedi ki, dədəmgili qonaq çağırmışam. Mən açıqlandım ki, indi ki, qonaq çağıracaqdın, mənə deyəydin! İki barmaqlı bir silli vurdum biləsinə. Yenə yel əsdi, tufan qopdu ki, elə bil qiyamətdi. Düşdüm, üzü qoyulu. Elə ki, yel qurtardı, gözümü açdım, gördüm buradayam. Indi, odu ki, hər əzan verəndə ağlaram ki, yenə gedim şəhərə, olmaz. Bu da mənim sirrim.

Padşah qoyar gələr qaltaqsazın yanına. Əzançının sirrin deyər. Gecə gedək evə, mən də sirrimi deyim.

Gecə gedərlər evə. Şam yeyərlər. Qaltaqsaz deyər:

– Mən bir tək oğlan idim. Səhər gedərdim işimə, axşam gələrdim. Özüm pişirərdim, özüm yeyərdim. Bir gün gəldim evə, gördüm ev süpürülü, hər yan tərtəmiz, şam pişirilib. Ha axtardım, ha fikirləşdim bir zad tapa bilmədim. Sabah da işdən gəldim gördüm bunun tayı, bir gün evdə gizləndim ki, görüm bu kimdi gəlir evi silir-süpürür. Durmuşdum, gördüm bir dana göyərçin düşdü həyətə. Cildindən çıxdı oldu bir gözəl qız. Mən gizlənmişdim. Keçdi işlərimi görsün, cildin götürdüm. Elə ki, hər yanı sildi, süpürdü, işdən qurtuldu, gəldi cildin götürsün, görür yoxdu.

Dedi:

– And verrəm səni, məni xəlq eylən Allaha, üzünü mənə əyan elə görüm kimsən, mənim cildimi niyə götürmüsən?

Mən çıxdım. Dedi:

– Mən elə səndən ötür gəlirəm. Amma gərək mən gedəm. Bəni-adəmdə vəfa olmaz. Sən məni saxlayanmazsan.

Dedim:

– Yox, gərək mən səni alam, qoymaram gedəsən. Şərt elədi ki, mən hər nə desəm gərək ola. Məni vurmayasan, hər nə mən desəm dinməyəsən. Dedim:” Yaxşı”. Vurdu, bizim oğlumuz oldu. Bir gün çörək pişirirdik. Oğlan da böyümüşdü. Durmuşdu təndir başında. Çörək qurtuldu, arvad götürdü oğlanı, təndir odlu-odlu atdı təndirə, dedi:” Bacı, götür bunu da”. Mən qorxudan dinə bilmədim. Vurdu bizim bir qızımız oldu. Yenə bir gün çörək pişirirdik. Qız durmuşdu təndir qırağında. Qorxdum yenə bunu da ata təndirə, keçdim durdum yanında. Elə ki, çörək qurtuldu, mənim yanımda yapışdı qolundan, atdı təndirə ki, götür, bacı, bunu da, mən özümü saxlayanmadım. Iki barmaqlı elə bir silli vurdum ki, üzü qəpqərə oldu, sifəti-zadı dəyişildi. Beş-altı aydan sonra yenə çörək pişirirdik. Durdum təndir başında ki, bu yolda özün atar. Elə ki, çörək qurtuldu, əlin uzatdı təndirə ki, bacı, ver oğlanı. Oğlanı sağ-salamat çıxartdı, sonra da qızı. Beş-altı gün keçdi. Dedi:

– Bizi apar çölə, darıxmışıq.

Durduq getdik çölə. Arvad yapışmışdı uşaqların əlindən. Quyu var idi. Dedim:” O yana getmə quyu var”. Saymadı. Quyuya yetişəndə özü ilə uşaqları atdı quyuya. Da, xəbərim olmadı. Mən, odu ki, ondan bu yana uşaqların əksin cəkərəm, istərəm satam, ürəgimdən gəlməz, alaram sındıraram, bu da mənim sirrim.

Padşah oradan durar gələr, qızıl verən yerə. Qaltaqsazın sirrin deyər. Arvad başlar ki, indi ki, belə oldu, mən də sirrimi deyərəm:

– Mənim dərbiş ərim var idi. Özü kimya düzəldərdi. Gedər dolanardı, gündə də üç-dörd qonaq gətirərdi. Pişmişlərinə kimya vurardı, olardılar şüş qızıl. Bizim nökərimiz də var idi. Mənə bənd oldu ki, gəl mənilən başını bir elə. Mən acıqlandım. Nökər əl çəkmədi. Bir gün şam çəkmişdim. Demə, bəs nökər kimya oğurlayıb kışının payına vurub. Kişi ol tikəni götürdü, ikiminci tikəni götürəndə oldu qızıl. Nökər dedi:

– İndi nə deyirsən?

Gördüm olmuyacaq, dedim:

– Yaxşı da, qoy iddəm çıxsın, sonra gələrəm sənə.

Bir gün nökərin pişmişinə kimya vurdum. Əvvəl tikəni götürdü, ikiminci tikəni ağzına qoyanda oldu şüş qızıl, dəgdi yerə. İndi bu qızılları paylayıram ki, kasıb-kusub aparsın xərcləsin.

Padşah dedi:

– Axı, sənin nə qədər qızılın var ki, belə paylayırsan?

Arvad durar padşahı aparar bir yekə yerə ki, adamlar bir-birinin üstünə qalanıb, hamısı da qızıl. Ərin də dayayıb duvara.

Padşah deyər:

– Gəl, səni mən alım.

Arvad deyər:

– Əri nə eləyirəm? Padşahdan çox varım var.

Deyər:

– Mən elə padşaham. Səndən ötür neçə ildir çöllərə düşmüşəm.

Padşah açar başına gələni nəql elər. Deyər:

– Baba dərviş, sən vəzir ol, mən də padşah.

## NARXATIN

Bir dana nənə var idi, bir dana qız. Qızın adı Narxatın idi. Nənə də bir dana devə aşiq olub gətirib salmışdı bir dana otağa. Bir gün açar qalmışdı yerdə. Qız gedər otağı açar, görsün nəmənə var. Açar görər bir dana devdi. Açarları gətirər qoyar yerinə. Axşam nənəsi gələr gedər devi görsün. Devə deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, ağa dev gözəl!

Dev də deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, Narxatın gözəl!

Deyər:

– Sən Narxatını harada gördün?

Deyər:

– Gəlmişdi buraya.

Arvad qızı çıxardar ötürər eşigə. Qız da gedər görər axşam oldu, bir qapı açıqdı, gedər ora. Gedər dolanar hər yanı. Görər heç kəs yoxdu. Adam-zad yoxdu. Oturmuşdu, görər yeddi dana oğlan gəldi. Demə, yeddi qərdəş imişlər.

Deyərlər:

– Qız, sən burada neylirsən?

Deyər:

– Bu cür, nənəm devə aşiq olmuşdu. Dev məni görüb, nənəm məni ötürüb eşigə. Da, bir yanım yoxdu. Gəlmişəm buraya mən də.

Deyirlər:

– Lap yaxşı, sən də bizim bacımız!

Bu yol, oğlanlar gündüz gedirdilər işə, axşam bacılarıylan yeyirdilər, içirdilər. Yenə bir gün arvad gedər devin yanına. Deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, ağa dev gözəl!

Dev deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, Narxatın gözəl!

Deyər:

– Vay, köpək oğlu, Narxatını eşigə də ötürdüm, əl çəkmədin?

Dev deyər:

– İndi gedib yeddi qərdəşlərə bacı olub.

Arvad bu yol devin yanından çıxar gələr. (Narxatın da saqqızı çox sevirmiş.) Bir az saqqız alar gətirər zəhər buna vurar, gələr bu yol Narxatın olan yeri tapar-yeddi qərdəşlərin yerin. Qapı döyülər, qız gedər qapıya görər nənəsidi. Nənəsi hər nə eylər ki, aç qapını, açmaz. Bu yol nənəsi saqqızı qapının altından salar. Deyər:

– Saqqız almışdım sənə, götür apar çeynə.

Bu, bu yol götürər saqqızı, gələr hovuz başına. Saqqızı çeynər, saqqız da axı zəhərli idi, bu, bu yol yıxılıb orada – hovuz başında qalar. Axşam qərdəşlər gələr qapını döyür, görürlər ki, açan olmadı. Bir-birinə deyərlər ki, bu da bizə bacı olmadı, ev-eşigimizi də götürdü apardı.

Duvardan düşərlər, gələrlər görərlər bacıları hovuz başında yatıbdı. Dəbərdərlər, görürlər bu ölüb da. Zəhər veribլər. Həkimə-zada apararlar. Həkim deyər:

– Da əlacı olmaz. Buna zəhər veriblər.

Bu yol bunlar gələr, heyfləri gələr ki, bacımızı necə quyluyaq? Bir xurcun götürərlər, bir tayına qızıl doldurarlar, bir tayına da bu qızı qoyarlar. Salarlar atın üstünə, ötürərlər çölə, hər kim əlac eyliyə bilsə, bu qız, bu da pul!

Padşah çıxmışdı şikara. Görər bir at, bir xurcun qızıl, bir də qız. Götürər padşah bunu aparar. Min göyüldən, bir göyülə ölüyə vurular. Həkimlər deyər:

– Yeddi hovuz süd ver doldursunlar.

Bunu, bu yol basarlar bir hovuza, bir az qalar, oradan o biri hovuza. Axırdakı hovuzda görər bu bir az ayılır, düzəlir. Narxatın dirilir. Padşah bunu alar. Bir ildən sonra bir cüt oğlu olur.

Uşaqlar bir az böyümüşdü, gündə gedərdilər padşaha salama.

Yenə bir gün Narxatının nənəsi gedir devin yanına. Deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, ağa dev gözəl!

Dev deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, Narxatın gözəl!

Deyər:

– Vay! Sən Narxatını öldürdün də, əl çəkmədin?

Deyər:

– Ölməyib, indi padşahın arvadıdı, bir cüt də oğlu var.

Bu nənə, bu yol durar gələr. Az gələr, çox gələr, gələr bu padşahın evini tapar. Deyər ki, mən Narxatının nənəsiyəm.

Bir gün qalar, qız deyər padşaha:

– Mən nənəmdən qorxuram, saxlamayın burada!

Padşah deyər:

– Qız, nənəndi da! Nəyindən qorxursan?

Gecə bu yol yatmışdılar. Qızın nənəsi durar uşaqların ikisinin də başını kəsər. Pıçağı da gətirər qoyar Narxatının cibinə. Səhər olar görərlər ki, bu uşaqlar padşaha salama gəlməyib. Padşah adam göndərər ki, uşaqlar gəlməyib. Gələrlər,

görərlər uşaqların başın kəsiblər. Da, Narxatın da bilməz ki, pıçağı da qoyublar cibinə. Bu yol, Narxatının nənəsi deyər ki, hamının cibini axtarın, hər kimin cibindən qanlı pıçaq çıxsa, bilin o kəsibdi.

Hamının cibin axtararlar. Heç kəsdən çıxmaz. Bu yol deyərlər ki, axı Narxatının da cibin axtarın.

Deyərlər:

– Niyə? Nənə də balasının başını kəsər?

Padşah deyər:

– Axtarın!

Axtararlar, bunun cibindən çıxar qanlı piçaq. Nənələrinin cibindən. Padşah özünün də gözlərin çıxartdırar, uşaqların da ölüsün verər bunun qucağına, şəhərindən xaric elər.

Deyər:

– Götür, get, buradan!

Bu gedər məçidə, yer tapmaz, məçiddə ağlar, ürəgi pis olar. Yuxuda görər ki, bir nəfər gələr, buna deyər:

– Niyə ağlayırsan?

Deyər:

– Da nəyə ağlıyacağam? Bu cür da uşağımın başın kəsiblər, padşah da özümün gözlərimi çıxardıb, gəlib qalmışam burada.

Yuxuda görən adam da əlin çəkər bunun gözlərinə, uşaqların da başına, bir oğuc da torpaq tökər ətəginə, deyər:

– Dur ayağa, hec zadın dəyil!

Bu yol yuxudan ayılar, görər uşaqları məcidin eyvanında o yan-bu yana qaçırlar, özünün də gözləri düzəlib, baxar görər ətəgindəki torpaq da olub cəvahirat, qızıl. Durar, bu yol, uşaqlarını da götürər gedər. Çöldə bir dam düzəldər,

oturar. Cəvahiratı da xərclədikcə azalmırdı, nə qədər idi, elə o qədər də qalırdı.

Narxatın uşaqlarını qoyar məktəbə. Uşaqlar bir az böyümüşdü, dərs oxurdular, götürər çöldə bir imarət saldırar nə gözəllikdə. Yüz dəfə padşahınkından artıq, bir kərpici qızıldan, bir kərpici gümüşdən.

Uşaqlar çıxarmışlar çöldə-zadda oynarmışlar. Padşah oraya şikara-zada gedəndə uşaqları görərmiş, imarəti də. Güdərmiş gündə , bu yol vəzirilən kecəndə deyərmiş:

– Vəzir, bu imarət görəsən kimindi, bu cür düzəldib?

Padşah uşaqları çox sevirmiş. Gəlib keçəndə dindirərmiş ikisini də. Narxatın örgədər uşaqlara ki, padşah sizi dindirəndə, sarmaşın qıçlarına ki, gəl, gedək bizə.

Bir gün padşah keçəndə, uşaqlar əl çəkməzlər. Padşah deyər:

– Axı, sizin eviz hardadı?

Deyərlər ki, bəs o imarət bizimdi.

Uşaqlar çox elər, padşah getməz. Keçərlər gedərlər. Vəzir deyər:

– Qibleyi-aləm sağ olsun! Gərək idi gedəydin. Uşaqlar məyus oldu. Bu dəfə desələr gedək.

Yenə bir də padşah ordan keçəndə, bu uşaqlar əl çəkməz ki, gəl gedək bizə!

Vəzir deyər:

– Qibleyi-aləm sağ olsun! Ürəklərini sındırmağa gəlməz. Gərək ayaq üstə baş vuraq.

Gedərlər padşahla vəzir. Padşah görər ki, balam, bura yaxşı imarətdi, qəribə dəsgahdı! Bir az oturarlar, durar bunlar getsin. Uşaqların da nənəsi örgətmişdi: "Qızıl çay qaşığını aparın salın padşahın başmağının içinə".

Bunlar durarlar getməgə, uşaqlar deyir:

– Axtaracayıq!..

Hamını axtararlar. Padşahın başmağının içindən qaşıq çıxar.

Narxatın da durmuşdu pərdə dalından qulaq asırdı.

Vəzir deyər:

– Olan, padşah da oğurluq elər?

Oradan Narxatın deyər:

– Bəs, nənə da balasının başın kəsər?

Vəzir deyər:

– Bu nə cür sözdü?

Bu yol uşaqların nənəsi çıxar pərdə dalından eşigə deyər:

– Bəs bunlar sənin oğlanlarındı, mən də sənin arvadın Narxatınam.

Açar başının qəziyyəsini nağıl elər padşaha. Padşah bunun nənəsin də tapıb öldürər, o devi də. Yeyər, içər, mət-ləbinə yetişər.

# MƏHƏMMƏD GÜLBADAM

Bir dana padşah var idi. Bunun bir dana vəziri var idi. Bu qızı sərpərdədə saxlamışdı. Gün-hava görməzdi. Bir lələsi yanında olarmış.

Bir gün oynurmuş, ya neylərmiş, bir şey atar aqışqanın şüşəsi sınar.

Qar yağmışdı, gün cıxmışdı. Bu, bu yol hökmən lələsinə deyər:

– Onu tut, ver mənə!

Günü bilmirdi nəmənədi. Lələsi cox deyər,” bu gündü, tutulmaz”. Əl cəkər, bu yol qavzar qız eşigi görər. Görər ki,qar yağıb. Qarın üstünə iki dana quş qonmuşdu, iki damcı da qan dammışdı.

Quşlar bir-birinə deyər:

– Görəsən, qarılan qandan da gözəl şey var?

O biri quş deyər:

– Niyə yoxdu? Məhəmməd Gülbadam bunların hamısından gözəldi.

Bu qız bir göyüldən, min göyülə vurular Məhəmməd Gülbadama, gün-gündən noxoşlar, saralar, solar. Bir gün , bu yol, padşah vəzirə deyər:

– Vəzir, qırx gün möhlətdi. Bunun əlacın tapdın tapmısan, tapmadın boğazına quqrquşun tökdürəçəyəm.

Otuz doqquz gün kecər, vəzir tapanmaz. Qırxıncı günün gecəsi bekef gələr evə. Kiçik qızı deyər:

– Niyə bekefsən, ata? Gərək deyəsən.

Deyər ki, qızım, sən nə eliyəcəksən? Bu cür, padşahın qızı ki, noxoşdu , mənə qırx gün möhlət verib ki, onun əlacın tapam. İndi mən də onun əlacın tapanmıram, məni öldürəcək.

Qız deyər:

– Ata, o ki, elə cətin bir şey deyil. Sabah qonaqlıq versin padşah, mən onun dərdin tapım, əlacın padşah özü eləsin.

Vəzir səhər padşaha deyər,o da qonaqlıq verər. Vəzir-vəkilin arvadı, qızı – hamısı yığışmışdılar bağa. Vəzirin qızı deyər:

– Ata, bir dana ürək dəlik-dəlik eləsinlər, aslasınlar bağın bir guşəsində.

Bu, bu yol padşahın qızın dolandırırdı. Ürəgin yanına yetişəndə padşahın qızı deyər:

– Ey ürək, mənim ürəgim Məhəmməd Gülbadamdan ötür dəlik-dəlikdi, sən niyə elə olmusan?

Qız gələr vəzirə deyər. Vəzir də gedər padşaha deyər ki, bəs qızın vurulub Məhəmməd Gülbadama.

Padşah deyir:

– Da mənə o cür qız lazım dəyil. Sandıq gətirin! Bu hələ sərapərdə də qalıb Məhəmməd Gülbadama vurulub....

Qoyar bu qızı sandığa, atar çaya. Məhəmməd Gülbadamın bağına su gedirdi. Görər su azaldı. Çıxar eşigə baxsın görsün nəmənədi, görər bir dana qutudu kəsib suyun qabağını. Qutunu açar görər bir dana qızdı. Çıxardar qızı atar o yana gələr, nənəsi soruşar ki, Məhəmməd Gülbadam, nəmənə idi?

Deyər, bir dana qutu idi, içində bir dana qız.

Deyər:

– Gətirəydin da evə?

Deyər:

– Baba, nəmənə idi ki? Bir dana qız idi da!

Qız da durub eşigdə eşidir ki, bu Məhəmməd Gülbadam özüdü.

Nənə hökman deyər ki, mən də elə təkəm, get onu gətir mənə yoldaş olsun. Özümə qız elərəm.

Gedər bu qızı gətirər. Bircə ay nənəsi ilə bu qız qalar. Nənəsi görər ki, bu belə çox ədəbli-zaddı. Soruşar, bu, başının qəzayasin deyər buna ki, bu cür olub gəlmişəm, çatmışam bura.

Nənəsi bu qızı daha sevər. Elə hər gün axşam Məhəmməd Gülbadam evə gələndə deyərdi ki, Məhəmməd Gülbadam, gəl bu qızı alım sənə.

O da deyərdi:

– Yaxşı olsaydı bə, su üzündə niyə gəlirdi?

Bir gün, bu yol Məhəmməd Gülbadam gedirdi səhər, nənəsi deyər:

– Məhəmməd Gülbadam, hansı gül bağına gedirsən?

Deyər:

– Ağ gül bağına.

Nənəsi bu yol, bu qıza bir dana ağ at verər, bir dəst ağ paltar, bu qızı örgədər, yola salar ağ gül bağına. Qız gedər bağa, görər Məhəmməd Gülbadam gəlir. Deyər:

– Gül biçim, qonça, qonça biçim.

– Hər qonçadan bir dəstə gül.

– Xəstəyə dərman istərəm.

Səndəl gələr. Xanım əgləşər. Bir az söhbət-zad. Qız baxar o yan-bu yanına. Məhəmməd Gülbadam deyər:

– Xanım, nə istiyirsiz?

Deyər:

– Su istirəm.

Deyər:

– Qızıl camda su gətirin!

Deyər:

– Xeyir, biz qızıl camda içmərik, gümüş camda gətirin.

Suyu içər, durar hər güldən də bir dəstə tutarlar verərlər, qoyar gələr, evlərinə. Axşam olar, Məhəmməd Gülbadam gələr yenə nənəsi deyər:

– Məhəmməd Gülbadam, gəl bu qızı alım sənə.

Deyər:

– Yox nənə, bağımıza bu gün bir qız gəlmişdi, bir qız gəlmişdi ki, nə gözəllikdə!

Yenə səhər olar. Məhəmməd Gülbadam gedəndə nənəsi soruşar:

– Məhəmməd Gülbadam, bu gün hansı gül bağına gedirsən?

Məhəmməd Gülbadam deyər:

– Sarı gül bağına.

Bu, yenə durar qıza bir dana sarı at, bir dəs sarı paltar verər, örgədər, yola salar gedər. Qız bağın qapısından girəndə görər Məhəmməd Gülbadam gəlir, deyər:

– Gül biçim, qonça, qonça biçim.
Hər qonçadan bir dəstə gül,
Xəstəyə dərman isərəm.

Məhəmməd Gülbadam deyər, səndəl gələr. Xanım əyləşər. Yenə bu görər bu qız baxır o yan-bu yanına, deyər:

– Xanım, niyə baxırsan?

Deyər:

– Su istirəm.

Deyər:

– Qızıl camda su gətirin!

Alar, bu qız suyu içər, qabın verər. Yenə hər güldən bir dəstə tutarlar verərlər, qız qoyar gələr. Gecə Məhəmməd Gülbadam gələr evə. Nənəsi deyər:

– Məhəmməd Gülbadam, gəl bu qızı alım sənə.

Deyər:

– Ah nənə, mən onu nə eliyəcəyəm? Bu gün bağımıza bir qız gəlmişdi dünənkindən də gözəl!

Səhər olar, Məhəmməd Gülbadam durar getsin. Nənəsi soruşar:

– Məhəmməd Gülbadam, hansı gül bağına gedirsən?

Deyər:

– Qızıl gül bağına.

Yenə bu durar qıza bir dana qırmızı at verər, bir dəs qırmızı paltar verər. Örgədər, yola salar. Qız qapıdan girəndə görər Məhəmməd Gülbadam gəlir. Deyər:

– Gül biçim, qonça, qonça biçim.
Hər qonçadan bir dəstə gül,
Xəstəyə dərman isərəm.

Yenə səndəl gələr, zad gələr. Xanım əyləşər. Söhbətləşərlər. Yenə bu qız baxar o yan-bu yanına. Məhəmməd Gülbadam deyər:

– Xanım, nə buyurursunuz, baxırsız o yan-bu yana?

Deyər:

– Su istirəm.

Deyər:

– Qızıl camda xanıma su gətirin.

Deyər:

– Xeyir, qızıl camda içmərik, büllur camda gətirsinlər.

Büllur camda su gətirərlər. Bu qız içər. İçər qabı salar ayağına. Qab sınar ayağın kəsər. Məhəmməd Gülbadam tez cibindən dəsmalın çıxardar bu qızın ayağın bağlar. Hər güldən yenə bir dəstə, bu qız gələr. Gecə olar, Məhəmməd Gülbadam gələr, nənəsi deyər:

– Məhəmməd Gülbadam, gəl bu qızı alım sənə.

Deyər:

– Nənə, nə eliyəcəyəm? Üç gündür bağımıza bir qız gəlir, bir-birindən gözəl, bugünkü hamısından gözəl.

Nənəsi qıza da örgətmişdi, gedib hovuz başında yerin salıb yatmışdı. Məhəmməd Gülbadam gedər hovuz başında dəstamaz alsın, görər ki, bu qız elə orada yatıb deyir:

Qızıl camın eşqinə,
Canım getdi düşgünə;
Xərab olasan, qızıl gül bağı,
Vay ayağım, vay ayağım!...

Məhəmməd Gülbadam bunu eşıdər görər ki, bu qız deyir elə. Gələr bu qızın ayağına baxar görər ki, dəsmalı necə bunun ayağına bağlayıb oradadı. Gələr nənəsinə deyər:

– Nənə, bu yol bu qızı alıram.

Nənəsi deyər:

– Oğul, bu filan padşahın qızıdır. Sənin eşqindən ötür gəlib, haman qızdı ki, üç gündü gəlir bağa.

Məhəmməd Gülbadam qızı alar, yeddi gün, yeddi gecə toy tutar.

# KÜP QARISI

Bir dana padşah var idi, bunun bir oğlu var idi. Padşahın arvadı vurular öz oğluna. Oğlu deyər ki, sən mənim nənəmsən. Bu arvad qəbul eləməz.

Oğlan deyər:

– Gedərəm padşaha deyərəm.

Bu arvad görər bu cürdü, tez gedər padşaha deyər:

– Oğlun mənə əl atır.

Padşah da deyər:

– Cəllad gəlsin, bu oğlanın boynun vursun!

Vəzir-vəkil deyər ki, qibleyi-aləm sağ olsun, öldürmə, şəhərindən xaric elə.

Bu, oğlana bir at verər, xaric elər. Oğlan gedər çöldə bir köhül var idi, orada qalar. Gedərdi günüz şikar elərdi, gətirərdi, orada yatardı. Bir gün bir dana tülkü keçirdi. Görər burada leş-zad vardı. Oturar bunları yeyər, deyər:

– Hətma, burada adam-madam vardı.

Getməz qalar orada. Axşam olar, oğlan gələr. Görər bir dana tülkü var, bir az özü yeyər, bir azın da verər bu tülküyə.

Bir gün də bir dana qurd keçirdi. Görər tülkü oturub. Deyər:

– Tülkü qərdəş, nə oturmusan?

Deyər:

– Neyləyim, ağam var mənim, gətirər verər, mən də yeyərəm.

Deyər:

– Tülkü qərdəş, mən də qalım?

Deyər:

– Qal da!

Axşam oğlan gələr, görər bir dana da qurd var. Öz-özünə deyər: "Bu cik-canavar hardan yığışır?" Yenə vurduğundan bir az özü yeyər, bir az verər onlara.

Bir gün də bir dana it keçirdi. Görər tülküylə qurd oturublar. Deyər:

– Tülkü qərdəş, qurd qərdəş, nə oturmusuz?

Deyərlər:

– Neyliyək? Bizim ağamız var. Gətirər, verər biz də yeyərik.

Deyər:

– Mən də qalım?

Deyərlər:

– Qal da!

Axşam oğlan gələr görər bir da it var. Sabah çox şikar elər, gətirər ki, bu heyvanlar məni dağıdar, qoy qarınların doyurum.

Bir gün yenə bir dana qərəquş keçirdi göydən. Görər tülkü ilə qurd, bir də it oturublar. Deyər:

– Tülkü qərdəş, qurd qərdəş, it qərdəş, nə oturmusuz?

Deyərlər:

– Neyliyək, bizim ağamız var, o gətirər, biz də yeyərik.

Deyər:

– Mən də qalım?

Deyərlər:

– Qal da!

Axşam yenə oğlan gələr, görər bir də bir quş var.

Bir gün tülkü durar gedər, bir daşı dığırlada-dığırlada gətirər qoyar altına, deyər:

– Qurd qardaş, it qərdəş, qərəquş qərdəş, insafdı ki, elə ağa gətirsin, versin, biz yeyək oturaq?

Deyərlər:

– Neyliyək?

Deyər:

– Neyliyəcəyik, durun gedək padşahın qızını gətirək ağaya.

Deyərlər:

– Axı olmaz, biz necə gətirə bilərik?

Tülkü deyər:

– Bir az mıncıqdan, zınqırovdan-zaddan tapın, gətirin, bağlayın mənim quyruğuma, deyim sizə.

Taparlar, gətirərlər, bağlarlar quyruğuna, bəzərlər. Deyər ki, gedək mən su gilifindən girərəm, keçərəm içəriyə, itilən qurd da dursun qapıda, qərəquş göydə dolanar. Qız çıxanda eşigə götürər qaçar qızı.

Durarlar, gedərlər padşahın qızının həyətinə. İtilən qurd durar qapıda, qərəquş da göydə. Tülkü girər başlar oynar həyətdə. Kəniz görər, gedər deyər:

– Xanım, bir dana şey gəlib, elə oynur ki..!

Xanım çıxar həyətə. Buna baxanda qərəquş qızı çalar götürər gedər. Bunlar çıxarlar qaçarlar. Gətirərlər bu qızı qoyarlar köhülə. Qız görər bir dana köhül, cik-canavar bikef-məyus oturmuşdu. Axşam olar. Görər tülkü-zad hamısı getdilər.

Ağa görər bu gün tülkü-zad pişvaza gəliblər. Tülkü düşər qabağa oynaya-oynaya gələr. Oğlan gələr görər ki, köhüldə bir qız. Deyər:

– Qız, sən hara, bura hara?

Deyər:

– Məni bunlar gətiriblər, qoyublar bura.

Padşaha xəbər gedər ki, qızını quş götürdü apardı. Padşah qarı salar. Bir küp qarısına pul verər ki, gedə qızı tapa gətirə.

Qarı gətirər küpün quylar çölün bir tərəfində, gələr oturar oğlanın yolu üstə. Oğlan gələndə deyər:

– Oğul, mən karvan keçirdi, düşüb qalmışam yolun arasında.

Oğlan deyər:

– Olsun qarı nənə, mənim də bir xanımım var, aparram mən, onla həmsöhbət olarsız. Tülkü bu yol görər ağa qarını da gətirər. Bir əgri-əgri baxar.

Səhər olar, bu oğlan yenə durar gedər. Qarı deyər:

– Qızım, bu çölü heç çıxıb gəzmisən?

Qız deyər:

– Yox, qarı nənə!

Qarı deyər:

– Dur qızım, bu çölü bir dolanaq.

Çıxarlar bu çölü dolanmağa. Gələrlər yetişərlər qarının o küpünün dibinə. Qız deyər:

– Qarı nənə, bu nəmənədi?

Qarı deyər:

– Nə bilim, qızım əyil, bir bax gör!

Qız əyilib baxanda itələr bu qızı basar küpün içinə, ağzını bağlar, özü də oturar üstündə. Qalxar göyə, aparar padşaha.

Axşam oğlan gələr, yetişər, görər bu gün tülkü başın qoyub yatıbdı. Girər görər ki, nə qarı var, nə qız var. Öz-özünə deyər:

– Ona görə bu tülkü mənə əgri-əgri baxırdı, ha! Köpəgin qızı, qarı!...

Yenə bir-iki gün keçər. Tülkü görər ki, ağaları çox bikefdi. Yenə gedər daşı dığırlada-dığırlada gətirər, qoyar altına, deyər:

– Qurd qərdəş, it qərdəş, qərəquş , bilirsiz nə var?

Deyərlər:

– Yox!

Deyər:

– Allaha xoş getməz ki, ağa gəlib bu cür bikef otursun.

Deyərlər:

– Nə eliyək?

Deyər:

– Gedək qızı gətirək.

Yenə gətirərlər bu tülkünün quyruğuna zınqrovdan-mınqrovdan bağlarlar, durarlar, gedərlər. Yenə itlə qurd kəsər qapını, qərəquş göydə dolanar. Tülkü keçər, gedər içəri. Bu qızın da kənizini dəgyişmişdilər. Ayrı kəniz qoymuşdular yanına. Kəniz çıxar həyətə, görər tülkü həyətdə oynur. Deyər:

– Xanım, bir dana əntiqə şey gəlib, elə qəşəng oynur ki!...

Qız baxar, görər ki, tülküdür. Gedər qiymətdə ağır, vəzndə yüngül bir şey-mey götürər, çıxar həyətə. Çıxcaq qərəquş bunu vurar götürər, gedər. Tülkü tez təpilər su gilifindən çıxar qaçar. Gətirərlər qızı, qoyarlar köhülə.

Axşam olar, ağanın gəlmək vaxtı olar. Tülkü deyər:

– Qurd qərdəş, it qərdəş, qərəquş, gedək ağanı gətirək!

Ağa görər ki, bəli, bu gün yenə tülkü qərdəşin kefi sazdı, hamı gəlib pişvaza. Gələr görər ki, qız köhüldədi. Qızdan soruşar. Qız deyər:

– Bu cür küpəgirən qarı məni götürdü apardı.

Beş-on gün keçər. Padşah bu yol qoşun çəkər bu oğlanın üstünə. Qız çıxar köhülün üstündən baxar görər ki, qoşun düşüb oğlanın yolu üstə. Tülkü görər ki, bu qız bikef oldu. Durar baxar görər ki, bəli, qoşun düşübdü nə qədər ağanın yolu üstə. Axşam yenə daşı dığırlada-dığırlada gətirər qoyar altına, deyər:

– Qurd qərdəş, it qərdəş, qərəquş, durun gedək ağanı gətirək!

Bunlar burada tutarlar ağanı.

Bunlar durarlar gedərlər ki, oğlanı görərlər. Oğlan görər ki, bu gün çox uzaqlığa gəliblər. Deyər:

– Görəsən, bu gün nə var ki, bunlar buraca gəliblər?

Tülkü düşər qabağa, ayrı yoldan gətirər oğlanı. Oğlan gələr görər ki, qız bikef. Soruşar:

– Nə var?

Qız deyər:

– Dədəm qoşun çəkib, bə sən necə gəldin?

Oğlan deyər:

– Məni tülkü ayrı yoldan gətirdi.

Deyər:

– Da, bizimki buracan idi. Gecəni yataq, görək səhər başımıza nə gələr.

Yenə tülkü gedər daşı dığırlada-dığırlada gətirər qoyar altına, deyər:

– Qurd qərdəş, it qərdəş, qərəquş bəs bunlar ki, bu cür bikefdilər, duraq biz gedək qoşunu öldürək. Quş qərdəş gözlərin çıxardar, itlən qurd boğar, mən də bir başdan başlaram yeməyə.

Bunlar, bu yol, durarlar gedərlər, girərlər qoşunun içinə. Quş qərdəş gözlərin çıxardar, itilən qurd boğar, tülkü də

bir başdan başlar yeməyi. Gələrlər bu yol başlarını qoyarlar yatarlar arxayın.

Səhər bu oğlan durar, çıxar baxar görsün qoşun ordadı, ya gedib. Görər ki, hamısı ölüb, deyər:

– Qız, da bizim burada qalmağımızın bəhrəsi yoxdu. Gərək buradan gedək. Tülkügilə də bir illik azuqədi. Cəmdəkləri ha yeyərlər, qurtarmayacaq ki!...

Durar atını minər, bu qızı da alar atın tərkinə. Çıxarlar gedərlər.

## QIRAVIL QƏRƏ MƏMMƏD

Hamam, hamam içində, xəlbir saman içində, dəvə dəlləklik elər, köhnə hamam içində. Dinin Məhəmməd dinində, Məhəmməd cəmalinə bir səlavat çevir.

Biri var idi, biri yox idi. Allahın kərəmi çox idi, yenə çox olsun!

Bir dana keçəl, Qıravıl Qərə Məmməd var idi. Daridünyada bir dana qarı nənəsi var idi. Bir gün nənəsinə dedi:

– Ay nənə, bəs mənim bu dədəm öldü getdi, mənə heç zad qoymadı? Bə bu haranın dədəsi idi?

Qarı dedi:

– Niyə qoymadı oğul, odu bax, duvardaki tüfəng.

Qıravıl Qərə Məmməd əl elədi duvardaki tüfəngə, aşırdı çiyninə. Gecə gözü düşdü yola. Az getdi, çox getdi, ignə yarım yol getdi. Göz-gözü görmürdü. Şabbadan-şubbadan Qıravıl Qərə Məmmədin alnı toxundu bir əgri-ügrü igdə ağacına. Baş bulandı qana. Birdən gözü düşdü təpə başında bir canavara. Bir tərəfində saz çalır, bir tərəfindən işıq gəlir. Qıravıl Qərə Məmməd əl elədi tüfəngə, çignindən aşırdı, düzlədi, şaqqıldadıb, güllə toxundu canavara. O dəqiqə canavar düşdü Qıravıl Qərə Məmmədin qabağına. Qıravıl Məmməd öz-özünə dedi:

– Hələlik bu da çoxdu. Aparaq qoyaq evimizə, işığında oturaq, sazıylan dəm eliyək.

Qapıya yetib döydü. Qarı səsləndi:

– Adam, nə adamsan?

Dedi:

– Mənəm, aç, nənə.

Qarı acıqlanıb dedi:

– Get, köpək oğlu!... Nə tez qayıtdın? Get, özünə çörək qazan. Qapını açmaram.

Qırıvıl Qərə Məmməd dedi:

– Aç, nənə, elə bir zad şikar eləmişəm ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Daha çıraq yandırmayacaqsan.

Qarı qapını açdı. Qıravıl Qərə Məmməd canavarı sürüdü içəri. Otağın bir guşəsində yer elədilər. Qıravıl Qərə Məmməd dizin dizinin üstünə aşırıb istədi bizim dilimiz, bir dincini alıb dəm eləsin. O saat gördü qapı döyüldü.

Demə, bəs bir qarı Qıravıl Qərə Məmmədi görüb padşaha xəbər aparıb ki, ey padşah, təxtın tabut olsun, ürəgin qanla dolsun, nə oturmusan. Qıravıl Qərə Məmməd ol şikarında elə bir canavar şikar edib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Elə bir canavardı ki, sən kimi şahlara layiqdi, nə ki qoyula o cür hisli dama.

Şah da adam göndərib dedi:

– Qıravıl Qərə Məmmədi gətirsinlər.

Qıravıl Qərə Məmməd gedib şahın evinə çatdı. Şah dedi:

– O ki, əvvəl şikarında gətirmisən, biz kimi şahlara layiqdi, nə ki qoyula o cür hisli dama. Get, onu gətir mənə!

Qıravıl Qərə Məmməd əlin göz üstə qoyub dedi:

– Həlbət ki, sizə layiqdi, indicə gedib gətirrəm.

Qıravıl Qərə Məmməd o saat gedib canavarı gətirdi. Şah fikirləşdi ona layiq ənam nə ola bilər. Heç zad tapa bilməyib vəzirə dedi:

– Vəzir, gərək vəzirligivi keçəl Qıravıl Qərə Məmmədə verəm.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, bu gün heç, sabah gəlsin verim.

Vəzir getdi evə. Başında bir baba taskülahi var idi. Qoydu qabağına, dedi:

– Ey baba taskülah, başına dolanım, bu nə iş idi mən düşdüm? Bu köpək oğlu keçəl hardan tapıldı? Axı, mən necə vəzirligimdən əl çəkim verim bir adama oxşamaz keçələ? Mənə bir tədbir tök, işim düzəlsin.

Onda gördü baba taskülahdan bir səs gəldi:

– Ey vəziri-külli-əzəm, heç özünə toz qondurma. Bu iş su içimdi. Sabah keçələ deyərsən, gedər qırx madyan sütü gətirər. Daha onunki ona dəyər.

Vəzir baba taskülahı götürüb iki əlli qoydu iki qaşının üstünə. Səhər tezdən gün çıxar-çıxmaz, şah tumanın geymiş-geyməmiş qondu şahın qapısına. Padşah dedi:

– Nə var?

– Şaha, bu gecə bir yuxu görmüşəm, gəldim onu deyim.

– Nə yuxu?

– Bəs eşit ki, gecə yuxuda gördüm Qıravıl Qərə Məmməd gedib qırx madyan sütü gətirib. Şah, onu göndər getsin gətirsin.

Padşah güldü dedi:

– Vəzir, bu nə sözdü? Mənim qoşunum qırılıb, qırx madyan südü gətirə bilməmişəm, o, necə gətirəcək?

Vəzir dedi:

– Biri ki əvvəl şikarında bir elə heyvan şikar elədi ki, bir yanında saz çalar, bir yanından işıq gələr, elə onu da gətirər.

Padşah dedi:

– Vəzir, mən ölüm?

Dedi:

– Sən öləsən!

Əmr oldu. Qıravıl Qərə Məmməd hazır oldu.

Padşah dedi:

– Gedərsən, qırx madyan sütü gətirərsən, onda sənin ənamını verərəm.

Qıravıl Qərə Məmməd öz qəlbində dedi:" Qadam sənə də, vəzirliginə də! Evin xərab olsun, məni hara göndərirsən?" Amma üzə salmayıb dedi:

– Gətirərəm.

Keçəl Qıravıl Qərə Məmməd gəldi evə, dedi:

– Nənə, dur, çörək bağla görək.

Dedi:

– Hara?

Dedi:

– Şah göndərir gedim qırx madyan sütü gətirim.

Qarı dedi:

– Oğul, getmə. Vəzir istəyir səni ölümə verə. Onu helə-helə adamlar gətirə bilməyib, sən necə gətirəcəksən?

Keçəl dedi:

– Ölsəm də, qalsam da, gərək gedəm gətirəm.

Qarı dedi:

– İndi ki, elə oldu, get padşaha deyilən qırx tuluq şərab, qırx yük pambıq versin, gəl, mən deyim necə get.

Qıravıl Qərə Məmməd üz qoydu padşahın evinə tərəf. Şeyləri alıb qayıtdı.

Qarı dedi:

– Oğul, bunları götürüb gedərsən. Çox gedəndən sonra yetişərsən bir dəryanın qırağına. Orada ahakilan pambıqılan

yekə bir hovuz düzəldərsən. Şarabı tökərsən onun içinə. Özün də yüz qədəmlikdə bir çuxur qazıb gizlənərsən. Az keçər, çox keçər, onda görərsən ki, hava qaranlıqlaşdı, göy şaqqıldadı, dərya təlatümə gəldi, su aralandı, dəryadan hezar bir bəla dağ təkin heyvan çıxdı. Dalında otuz doqquz balası. Onlar üz qoydular çimənə sarı. Orada çox otlayıb qayıdarlar dərya qırağına, su içməyə. Amandı, oğul, onda özünü görsətmə. Qırx madyan hovuza yetişər. Şarabı iyləyib gedər. Yenə də az-çox otlayıb, gələrlər su içməyə. Bu dəfə də içməzlər. Üçüncü dəfə də day susuzluqdan amanları kəsilmiş başların soxarlar şarabın içinə doyunca içərlər. Onda sən quş kimi qalxıb minərsən qabaqdakı madyanın üstünə. Bir yumruq qaşqasından vurarsan, özü üz qoyar bu yana sarı. Daha balalarıylan işin olmaz. Onlar özləri dalıyca gələcəklər.

Keçəl Qıravıl Qərə Məmməd belinə çörək bağlayıb çəkdi çustun dabanın, qırdı yerin damarın, dərələrdən yel kimi, təpələrdən sel kimi, badi-sərsər kimi, baş yastığa, göz yuxuya verməyib gəldi çatdı dərya qırağına. Bir yekə hovuz tikdi, özü də bir kənar guşədə gizləndi. Az keçdi, çox keçdi, onda gördü hava qaranlıqlaşdı, göy şaqqıldadı, dərya təlatümə gəldi, su aralandı, dəryadan bir bala dağ təkin heyvan çıxdı. Dalında otuz doqquz balası üz qoydular çimənə sarı. Otladılar, susuzdadılar, gəldilər su içməyə. Hovuzu iylədilər, içməyib tazadan üz qoydular çəmənə. Üçüncü dəfə daha amanları kəsildi başların soxdular hovuza. İçdilər, içdilər, kefləndilər. Qıravıl Qərə Məmməd aman verməyib quş kimi daşlandı oturdu qabaqdakı madyanın belində. Bir yumruq qaşqasına yendirib, budu ha qoyma, otuz doqquz madyan da dalısında üz qoydu şəhərə sarı. Qırx madyanı evinə yetirib sütündən sağdı padşaha göndərdi.

Bu tərəfdən eşit ki, bir qarı var idi, padşaha xəbər apardı ki, taxtın tabut olsun, ürəgin qanilən dolsun! Nə oturmusan ki, keçəl qırx madyanın özün gətirib, ötürüb evinə.

Padşah adam göndərdi, Qıravıl Qərə Məmmədi hazır elədilər. Əmr elədi qırx madyanı gətirsin ötürsün padşahın tövləsinə. Elə ki, keçəl də qırx madyanı gətirib ötürdü padşahın tövləsinə, padşah vəzirə dedi:

– Daha, vəzir, bu dəfə gərək vəzirligindən əl çəkəsən, verəsən Qıravıl Qərə Məmmədə.

Vəzir dedi:

– Şaha, mənim sözüm yoxdu. Getsin sabah gəlsin, vəzirliyi ona verim.

Vəzir yenə də baba taskülahı qoyub qabağına, dedi:

– Ey mənim baba taskülahım, bu köpək oğlu keçəl Qıravıl Qərə Məmməd istəyir mənim vəzirligimi əlimdən alsın. Dünən bir, bu gün iki, o keçəlliginən istəyir vəzir olsun. Mənə tədbir tök, bunun əlindən qurtarım.

Onda gördü taskülahından bir səs gəldi ki, qorxma, ey vəzir, bu iş su içimdi. Sabah şaha deyərsən Qıravıl Qərə Məmmədi göndərsin, getsin o əjdahanı ki, çoxdandı şaha qənim olub və şahın çoxlu qoşunun öldürüb, dağıdıb, onu gətirsin.

Vəzir taskülahı öpüb qoydu iki qaşının arasına. Sabah gün çıxar-çıxmaz, şah tumanın geyməmiş aldı qapını.

Padşah dedi:

– Vəzir, xeyir ola, nə xəbər var?

Dedi:

– Şaha, yuxu görmüşəm.

– Nə yuxu?

– Dünən yuxuda gördüm ki, keçəl Məmməd gedib əjdahanı gətirib. Çağır göndər, getsin gətirsin.

Padşah dedi:

– Vəzir, bu nə sözdü? Mənim qoşunum qırılıb, əjdahanı gətirə bilməyib, o, necə gətirəcək?

Vəzir dedi:

– Şaha, sən bilmirsən. Bir adam ki, əvvəl şikarında elə bir heyvan şikar elədi ki, bir yanında saz çala, bir yanından işıq gələ, qırx madyanı otuz doqquz balasıynan tutub gətirə, elə əjdahanı da gətirə bilər.

Padşah dedi:

– Vəzir, mən ölüm?

Vəzir dedi:

– Sən öləsən!

Qıravıl Qərə Məmmədi çağırdılar. Padşah dedi:

– Qıravıl Qərə Məmməd, bir dana sözüm var. Onu da yerinə yetirsən, vəzirlik səninkidi. Gedirsən filan yerdəki əjdahanı öldürürsən öldür, öldürməsən, diri tut, gətir mənim yanıma.

Qıravıl Qərə Məmməd öz qəlbində dedi: ”Qadam olsun sənə də, vəzirliginə də. Evin xərab olsun, vəzir, daha nə iş qaldı mənim başıma gətirməyəsən?” Gəldi evə, nənəsinə dedi:

– Nənə, dur çörək bağla görək, yenə iş çıxdı.

Qarı dedi:

– Oğul, gəl bu daşları ətəgindən tök! Onu gətirməkdə qoşunlar qırılıb,canlar gedib. Hələ-hələ adamın işi deyil. Vəzir istəyir səni ölümə göndərə.

Qıravıl Qərə Məmməd dedi:

– Ölsəm də gedəcəyəm, qalsam da! Nənə, bir yol bilirsən, örgət.

Qarı dedi:

– İndi ki belə oldu, bəs, bil ki, əjdaha dərin bir dərənin təkində yatıb. Altmış arşın uzunluğudu. Sən çox gedəndən sonra bir uca dağa yetişərsən. Qalxarsan dağa, görəsən hər nə quş gəlir, heyvan gəlir, daş gəlir, çör-çöp gəlir, hamısı hüjmülən dolur dərənin təkinə. Amandı, oğul, onda dərəyə düşməzsən. Gözlərsən ki, hər zad öz havasında qala. Onda ki, gördün quş göydən uça-uça gedir, puka-iri daşlar daha dərəyə hüjum eləmirlər, bilərsən ki, əjdaha yuxulayıb. Tez yüyürəsən dərəyə. Əjdahanı görəsən ki, yatıb xorna çəkir, qaşqasın nişana gedərsən. Əjdahanı öldürüb, götürüb gələrsən. Amandı, oğul, qabaqca dərəyə girmə ki, sən də quşlar, daşlar kimi gurup-gurupbaz gedərsən əjdahanın kamına.

Qıravıl Qərə Məmməd əlin qoydu göz üstünə. Belinə çörək bağladı, çəkdi çüstün dabanın, qırdı yerin amanın, dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi, baş yastığa, göz yuxuya verməyib, gəldi çatdı bir uca dağ ətəginə. Dayanmayıb, dırmaşdı dağın kəlləsinə. Nə gördü? Gördü... Paho! Qəribə aləmdi: hər nə göydən keçər, hər nə daş var, çör-çöp var, hamısı ayaq tutub, baş qoyub dərənin təkinə. Bildi əjdaha oyaqdı, hər nə olsa çəkəcək kamına. Dayandı. Vəqt o vəqt oldu ki, hər zad öz yerin tutdu. Bu yol üz qoydu dərəyə. Yetişdi əjdahanın bərabərinə. Gördü əjdaha, nə əjdaha! Elə bil dağdi, böyrü üstə düşüb. Qaşqasın nişanə gətirdi, vurdu. Deh birin də, ikisin də, əjdaha bir nərə çəkdi, buradan ora kimi süründü qaldı.

Keçəl yeridi qabağa. İndi da bilmirəm, onu nə cür şaha gətirdi, özü bilir. Ancaq gətirdi, saldı padşahın qapısına, dedi:

– Götür, düşmənin belə olsun.

Vəzirin əli girdi ürəginə.

Padşah dedi:

– Da bu dəfə bunu əliboş göndərmək olmaz. Gərək vəzirligini verəsən.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, mənim sözüm yoxdu. Getsin sabah gəlsin, verim.

Yenə gecə vəzir taskülahı qoydu qabağına, dedi:

– Ey mənim baba taskülahım, köpək oğlu keçəlin gözü mənim vəzirligimdədi. Dünən bir, bu gün iki, istir vəzir ola. Heç demir ki, mən keçəl babanın biri, vəzirlik nə yaraşar mənə. Ey mənim baba taskülahım, tədbir tök, məni qurtar.

Onda gördü baba taskülahdan bir səs gəldi:

– Aya vəziri-külli-əzəm, sən heç qorxma. Bu iş mənim əlimdə su içimdi. Sabah şaha deyərsən ki, keçəli göndərsin Firəng şahının qızını gətirməyə.

Vəzir sevindi. Baba taskülahı öpüb qoydu iki qaşının arasına. Sabah səhər çağı xoruz bannıyanda, ulduzlar göydəkən qondu padşahın qapısına:

– Şaha, yuxu görmüşəm.

– Nə yuxu?

– Şaha, gecə yuxuda gördüm ki, keçəl gedib Firəng padşahının qızını gətirib. Göndər gedə gətirə. Bu fürsət ələ düşməz.

Padşah güldü, dedi:

– Vəzir, nə deyirsən? Mənim qoşunum onu gətirə bilməyib, Qıravıl Qərə Məmməd, bir keçəlin birisi necə getsin gətirsin? İnsaf da yaxşı şeydi.

Vəzir dedi:

– Şaha, elə xəyal eləmə. Bir adam ki, əvvəl şikarında elə bir heyvan ələ sala ki, bir yanında saz çala, bir yanından işıq gələ, qırx madyanı, əjdahanı gətirə, elə bunu da eyliyə bilər.

Padşah dedi:

– Vəzir, mən ölüm?

Dedi:

– Sən öləsən!

Qıravıl Qərə Məmməd tazaca yuxudan ayılmışdı ki, qapı döyüldü.

Qarı dedi:

– Oğul, dur, gör bu yol nə aş pişiriblər?

Uzun sözün qısas,ı keçəl gedib qayıdandan sonra dedi:

– Nənə, dur çörək bağla görək. Yenə gedər oldum. Şah əmr eləyib gedəm Firəng padşahının qızın gətirəm.

Qarı dedi:

– Oğul, getmə, vəzir səni ölümə göndərir. O qızı hələhələ igidlər ələ gətirməyib.

Qıravıl Qərə Məmməd dedi:

– Ölsəm də gedəcəyəm, qalsam da. Yol bilirsən örgət.

Qarı dedi:

– Bala, mən bir yol bilmirəm. Özün get, Allaha tapşırdım.

Qıravıl Qərə Məmməd belinə çörək bağlayıb çəkdi çustun dabanın, qırdı yerin damarın, dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi baş yastığa, göz yu-

xuya verməyib, az getdi, çox getdi, ignə yarım yol getdi, yetişdi dərya qırağına. Gördü bir adama oxşamaz adam kimi başın salıb dəryaya qurtum-qurtum su qantarır. Hər qurtumunda dəryanın suyu qarış yarım aşağı düşür.

Qıravıl Qərə Məmməd mat qaldı. Dedi:

– Köpək oğlu, bu haranın su içməyidi?

Dəryanın suyun qurudan baş qavzadı dedi:

– Köpək də oğlu, it də oğlu, bunu mənə çox görmə. Onu ona çox gör ki, Qıravıl Qərə Məmməd əvvəl şikarında bir heyvan şikar eyləyib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Mən onu görsəm, beləsinə qul olacağam.

Keçəl Qıravıl Qərə Məmməd sevincək güldü, dedi:

– Gədə, elə o mənəm da!...

Dedi:

– Sən Allah?!

Dedi:

– Vallah!

Qıravıl Qərə Məmməd dəryanın suyun qurudanı özünə qul eləyib, yola düşdülər. Az getdilər, çox getdilər, ignə yarım yol getdilər, bir adama oxşamazın birinə yetişdilər. Gördülər neçə dəgirman daşı, hər biri bir dağ kimi boynunda dolandırır, hər nə qabağına gəldi vurur, dağıdır. Keçəl dedi:

– Köpək oğluna bax, dəli olub.

Dəgirman daşı dolandıran durdu dedi:

– Köpək də oğlu, it də oğlu. Bunu mənə çox görmə. Onu ona çox gör ki, Qıravıl Qərə Məmməd əvvəl şikarında elə bir heyvan şikar eləyib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Mən onu görsəm, beləsinə qul olaram.

Dəryanın suyun qurudan dedi:

– Gedə, elə bu özüdü da!

Dedi:

– Sən Allah?!

Dedi:

– Vallah!

Qıravıl Qərə Məmməd onu da özünə qul eləyib yola düşdülər. Az getdilər, çox getdilər, ignə yarım yol getdilər, bir süfəng atana yetişdilər. Yekə-yekə daşları, qayaları qoyurdu süfəngə tulazlayırdı o yan-bu yana.

Qıravıl Qərə Məmməd dedi:

– Köpək oğlu, bir sapandını saxla görüm, nəçisən! O nə cür süfəng atmaqdı?

Süfəng atan dayandı, dedi:

– Köpək də oğlu, it də oğlu. Bunu da mənə çox görmə. Onu ona çox gör ki, Qıravıl Qərə Məmməd əvvəl şikarında elə bir heyvan şikar eləyib ki, bir yanında saz çalar, bir yanından işıq gələr. Mən onu görsəm, beləsinə qul olacağam.

Dedilər:

– Gədə, elə bu özüdü də!

Dedi:

– Sən Allah?!

Dedi:

– Vallah!

Keçəl Qıravıl Qərə Məmməd onu da özünə qul edib, baş aldılar getməyə. Neçə mənzil gedəndən sonra yetişdilər bir adama oxşamazın birinə. Gördülər bir qulağın altına, bir qulağın üstünə salıb yatıb.

Keçəl dedi:

– Köpək oğlu, bu haranın qulağıdı, salmısan alt-üstünə?

Qulağı uzun ayılıb dedi:

– Köpək də oğlu, it də oğlu, bunu mənə çox görmə ki, bir qulağım altımdadı, bir qulağım üstümdə. Özüm də dörd ağacdan dörd ağaca hər nə danışsalar, eşidirəm. Onu ona çox gör ki, Qıravıl Qərə Məmməd əvvəl şikarında elə bir heyvan şikar eləyib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Mən onu görsəm, beləsinə qul olacağam.

Dedilər:

– Gədə, elə bu özüdü də!

Dedi:

– Siz Allah?!

Dedilər:

– Vallah!

Qıravıl Qərə Məmməd onu da özünə qul eləyib üz qoydular getməyə. Az-çox gedəndən sonra yetişdilər Firəng padşahının məmləkətinə. Dərvazalar bağlanmışdı. Neçə qıravıl, keşik o yan-bu yanda durmuşdular. Süfəng atan soruşdu:

– Bunlar kimdir?

Kecəl dedi:

– Bunlar qıravıldular ki, şəhərə özgə-mözgə qoymayalar.

Süfəng atan dedi:

– Ah , kec görüm oyana, bunlar nə qələt darta bilərlər.

Əl eləyib qıravılların hamısını basdı süfəng arasına, başına, dörəsində bir tovlandırıb tolazladı.

Firəng şahı oturmuşdu qəsrdə, bir anda gördü, oho, göydə qoşunları fırlana-fırlana gəlirlər. O dəqiqə xəbər yetişdi ki, təxtin tabut olsun, ürəgin qanla dolsun, nə oturmusan ki, dörd adama bənzəməz, dilbilməz kəsib dərvazanı, deyirlər, Firəng şahının qızın aparacağıq.

Şah dedi:

– Gedin gətirin.

Dəgirman daşı dığırladan düşdü qabağa. Dam-divarı yıxa-yıxa üz qoydular şahın qəsrinə. Şah dedi:

– Gedin sabah gəlin, danışaq.

Bu tərəfdən də vəziri çağırıb dedi:

– Vəzir, bunlarıylan başarmaq olmaz. Ver car çəksinlər ki, sabah məmə yeyəndən pəpə yeyənəcən mənə qonaqdılar. Özün də aşpazbaşıya de ki, qırx qazan pılov bişirsin, qırxıncısına zəhər qatsın, verək bunlara, yesinlər, ölsünlər.

Bu tərəfdən Qıravıl Qərə Məmmədgil oturmuşdular, birdən qulağı uzun qəhqəhə çəkib güldü. Dedilər:

– Gədə, nə var? Dəli oldun?

Dedi:

– Yox, şahla vəzir bizə aş pişirirlər.

Dedilər:

– Nə aşı?

Dedi:

– İstəyirlər bizə zəhər verib öldürsünlər.

Dəryanın suyun qurudan dedi:

– Görərik!

Sabah oldu. Məmə yeyəndən pəpə yeyənəcən doldular şahın qəsrinə. Qıravıl Qərə Məmməd qullarınan gəldi əgləşdi. Bir az kecdi. Qıravıl Qərə Məmməd dedi:

– Padşah, icazə ver, mənim aşpazbaşım da getsin aşpazxanaya baş çəksin.

Padşah dedi:

– Eybi yoxdu, getsin.

Keçəl dəryanın suyun qurudanı göndərdi. Aşpazbaşı qırx qazan düyünü dəmləyib, qırxıncısını zəhərləyib, əl bel-

də, dəsmal çigində dayanmışdı. Dəryanın suyun qurudan dedi:

– Aşpazbaşı, mən də Qıravıl Qərə Məmmədin aşpazbaşıyam. İcazə versən qazanlara baş çəkəcəyəm.

Sonra keçdi əvvəlminci qazanın başına. Ağzın götürüb dalı aşpazbaşiya əl elədi, qazanı siyirib qoydu ağzına, utdu. Di, o birisin, di bu birisin, qırx qazan düyünü yedi. Aşpazbaşı hələ dayanmışdı dedi:

– Düyülər necə pişiblər?

Dəryanın suyunu qurudan dedi:

– Çox gözəl!

Sonra keçdi oturdu yerində, padşah dedi naharı çəksinlər. Aşpazbaşı yeridi qabağa. Qazanın ağzın götürdü. Gördü dərman üçün bir dana düyü qalmayıb. O qazan, bu qazan, qırx qazandan qırx dana düyü heç tapa bilmədi. Əli girdi ürəginət. Padşah gəldi, bildi ki, bu iş keçəlgilin işidir. Hirsindən dil-dodağın gəmirirdi. Hərəni bir dillə yola saldılar ki, bugünkü qonaqlıq qaldı sonraya. Qıravıl Qərə Məmməd də qullarını götürüb getdi.

Padşah dedi:

– Vəzir, qaldıq bu dələduzların əlində. Tədbir tök.

Vəzir dedi:

– Şah, de polad hamamı qızdırsınlar. Hamısın doldur ora, qapıların bağlat, o qədər su töksünlər ki, boğulsunlar.

Padşah dedi:

– Vəzir, yaxşı fikir eləmisən.

Keçəl qullarla əyləşmişdi ki, birdən qulağı uzun qəhqəhə çəkib güldü. Dedilər:

– Gədə, nə var? Dəli olmusan?

Dedi:

– Yox, dəli olmamışam, vəzir bizə aş pişirir.

– Nə aşı?

– Bizi salacaqlar polad hamama, su töksünlər boğulaq.

Dəyirman daşı dığırladanla dəryanın suyun qurudan dedilər:

– Görərik!

Sonra dəyirman daşı dığırladan dedi:

– Mən daşlarımı da aparacağam!

Sabah padşah adam göndərdi, beşini də dəvət elədilər polad hamama. Qapıları bağlandı. Hamamın üst bacasını açdılar, şarhaşar su tökdülər. Dəryanın suyun qurudan necə ki, ağzın açdı bacanın altına qoymadı bir damcı su yerə dama. Çox vaxtdan sonra üzün tutdu dəyirman daşı dığırladana, dedi:

– Çatdadım axı! O daşları hansı günə saxlamısan?

Bu söz ağzından çıxmaq haman daşlar oynadı. Hamamın polad duvarı çat yedi, baca açıldı. Dəryanın suyun qurudan necə ki, ağzını dayadı bacaya puf elədi, Firəng padşahının məmləkətinin yarısını sel götürdü. Xəbər getdi Firəng padşahına ki, təxtin tabut olsun, ürəgin qanıylan dolsun, nə oturmusan ki, məmləkətinin yarısını sel götürübdü. Bir dənə öz qızından ötrü niyə xalqı ölümə veridin, qızını ver, götürsünlər getsinlər. Yəxəmiz qurtarsın.

Firəng padşahı axırda çarəsiz qalıb Qıravıl Qərə Məmmədi çağırıb dedi:

– Bu qız, bu da siz, götürün gedin.

Qıravıl Qərə Məmməd qızı kəcavəyə mindirib, dörd qul yanında yola düşdü. Mənzilbəmənzili teyyi-mənazil gəldilər cıxdılar öz şəhərlərinə. Adam göndərib şaha xəbər verdi ki, Firəng padşahının qızını gətirdim, qabağa çıx.

Padşah əmr elədi, qoşun atlandı, çəlal ilə qabağa çıxdılar. Qıravıl Qərə Məmməd şəhərə varid oldu. Qızı bir baş apardı öz evinə, padşahı saymadı. Xəbər çatdı padşaha ki, evin yıxılsın, anan mələr qalsın, nə oturmusan ki, keçəl Firəng padşahının qızını özünə çıxdı. Padşah adam göndərdi ki, Qıravıl Qərə Məmməd tez qızı gətir mənə. Elə bir qız mənim kimi şahlara layiqdi, nə ki, sənin kimi kor-keçələ.

Keçəl də adam göndərdi ki, padşah, bilirsən ki, heç, bilmirsən, bil və agah ol: "Biri ki əvvəl şikarında elə bir heyvan şikar eliyə ki, bir yanında saz çala, bir yanından işıq gələ, qırx madyanı, əjdahanı tuta gətirə, Firəng padşahını bezdirə, qızını ala gətirə, səni də, vəzirini də darmadağın edə bilər. Ya bu saat mənim şikarımı, qırx madyanımı özümə ver, çıx bu şəhərdən get, ya da gəlib təxtini bilənə tabut edəcəyəm.

Padşah vəziri çağırıb dedi:

– Vəzir, tədbir tök görək. Bu köpək oğlu bizi işə qoyacaq.

Vəzir dedi:

– Padşah, tədbir yoxdu. O köpək oğlu keçəl hər nə desə elər. Yaxşısı budu, başımızı götürüb qaçaq gedək bir ayrı yerə.

Durdular, təl-tələsik yır-yığış eləyib şəhərdən çıxdılar.

Keçəl də taxta əyləşib, nənəsini də özünə vəzir elədi. Sonra yeddi gün, yeddi gecə toy tutub şadmanlıq elədi, Firəng padşahının qızını aldı.

## ƏHMƏD TƏRƏKƏMƏ

Bir gün var idi, bir gün yox idi. Allahdan sonra heç kəs yox idi. Bir dana padşah var idi. Bir dana vəziri. Bir gün vəzir deyər:

– Qebleyi-aləm sağ olsun. Mənə bir icazə ver, gedim gəzim dolanım, fikrim açılsın, dincəlim. Çoxdandı da eşigə çıxmamışam.

Padşah deyər:

– Vəzir, neçə gün gedirsən, get dolan.

Vəzir deyir ki, qırx gün. Sabaxısı durar düşər yola, başlar gəzməyə. Bu şəhərdən, o şəhərə. O kənddən, bu kəndə. Yetişər bir suyun başına. Görər bir qoca kişi əyləşib, əlində iki əksi. Birinə baxır ağlıyır, o birinə baxır gülür.

Vəzir mat qalar. Gedər yaxına soruşar:

– Ay qoca əmi, bu nə işdi? Ağlamaq nədi, gülmək nədi?

Qoca deyər:

– Bu əksi ki görürsən, baxıram ona, gülürəm. Əhməd Tərəkəmənin qızı Pəridi. Dünyada ona tay gözəl ola bilməz. Aşiq olmuşam, istəyirəm alam. Bu birisi əksidə mən özüməm. Baxıram ağlıyıram ki, mən qocalıqda kişiyə hansı qız gələr.

Vəzir baxar görər qəribə qızdı. İki göz istir tamaşaya. Öz-özünə deyər ki, yaxşısı budu, bunu alım aparım padşaha töhfə. Qocaya deyər:

– Qoca, gəl bunu sat, mən alım. Sən özünə ayrısın taparsan.

Qoca qəbul eləməz. Vəzir çıxardar yüz tümən verər qocaya, deyər:

– Gəl, al bu yüz tümən sənin, əksi sat mən alım. Yüz tümən də sənə çox puldu. Apar vecudunə maya qoy, qabağa düş.

Qoca pulu alar. Əksi verər vəzirə. Vəzir sevincək qoyar gələr öz şəhərinə.

Padşah deyər:

– Vəzir, bizə nə sovqat gətirmisən?

Vəzir deyər:

– Padşah, sənə layiq bir əksi gətirmişəm.

İstər çıxarsın əksi versin, padşah deyər:

– Vəzir, daha heç şey tapmadın? Mən əksi nə eliyəcəyəm? İstəməz. Onu da verdim özünə.

Vəzir yazıq xing olar. Padşah gedər namaz qılmağa. Namaz üstə fikirləşər ki, vəzir də yazıq idi. Ürəginə dəydim. Yaxşıdı əksi biləsindən alam, sevməsə ataram eşıgə.

Namazı qurtarandan sonra gələr vəzirə deyər:

– Vəzir, birdən ürəginə dəgər, ha! Mən şuxluq elədim, əksi ver baxım.

Vəzir çıxardar Pərinin əksini verər. Padşah bir baxar, ruhu bacaları gəzər, huşu başından olar. Deyər:

– Vəzir, bu qız kimin qızıdı? Gərək deyəsən, mən bunu almasam ölərəm.

Vəzir açar başına gələni deyər. Padşah deyər:

– Vəzir, dur məni apar su başına, qocanın yanına. Daha mən dayanmaram.

Durallar ikisi gedərlər yetişərlər qocanın yanına. Özləri də dərbiş paltarı geymişdilər. Padşah deyər:

– Qoca, bu qız kimdi?

Qoca deyər:

– Bu, Əhməd Tərəkəmənin qızı Pəridi. Əhməd Tərəkəmə də bir devdi.

Padşah deyər:

– Pəri heç su başına gələr?

Qoca deyər:

– Niyə? Hərdəmbir. Amma çox vaxt bir dana külfəti var, adı Ağca o, gələr su aparar.

Padşah deyər:

– Vəzir, qırx günəcə padşahlığı verirəm sənə, get mənim yerimdə otur. Mən gərək o qədər burada oturam ki, Pəri gələ, onu görəm alam.

Vəzir deyər:

– Yaxşı.

Qoyar gedər. Qoca da deyər ki, daha siz olduğuz yerdə Pəri məni saymaz. Durum gedim başıma çarə qılım. O da durar gedər. Padşah tək qalar. Yuxu tutar, uzanar yatar.

Bu yandan vurar külfət gələr su başına. Görər bır dana oğlan uzanıb yatıb, nə gözəllikdə. İki göz istir tamaşa. Deyər ki, Allah, nə olardı, bu bir oyanaydı, mənlə danışaydı. Özözünə deyər:

– Görəsən, adı nəmənədi? Deyər ki, elə mən tüklü deyəcəyəm. Bu yol deyər:

Canım tüklü, gözüm tüklü!
Canım sənə qurban tüklü!
Nə karasan, şikarasan?
Şikara deyəllər sənə.

Padşah birdən gözün açar, görər bir qız durub baş üstündə söz deyir. Bilər Ağcadı. Ağzın acar deyər:

Canım Ağca, gözüm Ağca!
Canım sənə qurban, Ağca!
Pərini görəm gəlmişəm,
Pərini deyəm gəlmişəm.

Ağca deyər:

Canım tüklü, gözüm tüklü!
Canım sənə qurban, tüklü!
Sən məndən bir cüt busə al,
Pərini yetirim sənə.

Padşah deyər:

Canım Ağca, gözüm Ağca!
Canım sənə qurban, Ağca!
Bu bağ Pərinin bağıdı,
Kilidin verməröm sənə.

Ağca deyər, padşah deyər, axırı olmaz. Padşah Ağcadan bir cüt öpüş alar. Ağca hovludan qabları boş-boşuna götürər çıxar gedər.

Pəri soruşar:

– Qız, bəs qabları niyə boş gətirmisən? Suyu hanı?

Ağca deyər:

– Xanım, gün qurutdu.

Sonra görər Pəri inanmadı, deyər:

– Xanım, mən görəni sən görsəydin, heç qabları da gətirməzdin. Bir dana oğlan var su başında, səndən ötrü gəlib. Mən adını "Tüklü" qoydum.

Pəri deyər ki, dur gedək görüm necə oğlandı.

Durarlar ikisi gələrlər. Pəri görər padşah oturub, deyər:

Canım tüklü, gözüm tüklü!
Canım sənə qurban tüklü!
Nə karasan – şikarasan?
Şikara deyərlər sənə.

Padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban, Pəri!
Pərini görəm gəlmişəm,
Pərini deyə gəlmişəm.

Pəri deyər:

Canım tüklü, gözüm tüklü!
Canım sənə qurban tüklü!
Sənin adın tüklü deyil,
Adını bəyan eylə mənə.

Padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban, Pəri!
Mənim adım tüklü dəgil,
Mənim adım Fərhud şahdı.

Pəri deyər:

– İndi ki belə oldu, məndən ötrü gəlmisən, dur gedək bizə. Amma mənim dədəm devdi. Bilsə səni öldürər. Qirxdanbir sürümüzün çobanı yoxdu. Deyəcəyəm mən səni çoban tutmuşam.

Beləliklə, qoyarlar gedəllər evə. Gecə olar, Əhməd Tərəkəmə anqıra-anqıra gələr ki;

Köşdü balaban lulu elədi
Bir gözümü kor elədi.

Pəri bir badyə qatıq, bir teşt su, malağa, bir dəstə çörək gətirər qoyar. ƏhmədTərəkəmə doğrama elər içər. Yeyəndən sonra qız deyər:

– Ata, bir dana çoban tutmuşam.

Əhməd Tərəkəmə deyər ki, get gətir görüm nə cür oğlandı. Qız gedər padşahı gətirər. Dev bir baxar deyər:

– Qızım, elə bil bundan çoban çıxmaz.

Qız deyər:

– Ata, qoy bir milazə eylək də. Nə olar?

Dev dedi:

– Çox yaxşı, bir sürünü qat qabağına, getsin o biri çobanların yanına.

İt aparar nişan verər. Sabah qız padşaha deyər:

– Böyük çobanı gör, hər zadı de biləsinə. O qoymaz çox inciyəsən. Bir az qal da, mən özüm gəlim yanına.

Padşah qoyunu qatar qabağına gedər, yetişər o biri otuz doqquz çobanın yanına. Qorxar, istəməz böyük çobana sözün desin. Çöldə bir tərəfdə baş saxlar. Günü axşamacan bir daş dibində yatırdı. Sürü də dağılırdı o yan-bu yana.

Üç-dörd günəcə sürü yarıya yetişdi. O biri çobanlar dedilər:

– Belə ki, olmaz. Əyər bu gün də yatsa öldürəcəyik. Yoxsa Əhməd Tərəkəmə gələr bizim dədəmizi yandırar.

Sabahısı yenə padşah yatar, otuz doqquz dəyənək əldə gələrlər baş üstünə. İstərlər yendirsənlər ki, padşah gözün açar deyər:

– Əl saxlayın, sözüm var.

Hamı əl saxlar, padşah böyük çobana sözün deyər. Böyük çoban bu yol deyər ki, bəs bağışlayın. Biz səni tanımamışıq.

Çobanlar da deyər:

– Gədə, Şaha baş əyin!.... Baş əyin!

Hamı baş əyər. Çöldə daşdan bir yer düzəldərlər. Padşahı qoyarlar orada qalar. Qoyunların da hərə bir azın götürər qatar öz davarına. Padşahı əzizlərlər.

Bir gün vurar Əhməd Tərəkəmə durar gələr çobanlara baş çəkməyə.

Bu yandan Pəri görər dədəsi getdi eşigə. Fikirləşər ki, neyləyim, necə eliyim ki, özümü yetirim Fərhud şaha. Bir dana qarı var idi. Durar gedər onun evinə, deyər:

– Qarı nənə, başına dolanım. Bəs, hal budu: dədəm gəlsə, özümü vuracağam naxoşluğa. Gəlib səni gətirsə, deyərsən ki, ötür qızı getsin çobanların yanına, havası dəyişilsin, düzəlsin.

Qarı deyər:

– Yaxşı.

İndi sənə deyim kimdən, Əhməd Tərəkəmə gələr yetişər çobanların yanına. Görər sonraki çoban oturub, hamı biləsin əzizləyir. Çobanlar onu görəndə deyərlər:

– Şaha baş əy!... Baş əy!...

Əhməd Tərəkəmə saymaz. Çobanlar əl elərlər dəyənəklərə, nə yemisən turşulu aş.

Vurarlar eni-uzunu bir olar. Əhməd Tərəkəmə görər baş saxlayanmayacaq, qoyar qaçar. Gələr qızına deyər:

– Qız, bu nə çobandı tutmusan?

Görər qızı sızlır, deyər:

– Qızım, sənə nə oldu?

Deyər:

– Elə sən gedənnən halım yoxdu. Get qarı nənəni gətir, görsün nəyimdi.

Əhməd Tərəkəmə gedər qarını gətirər. Qarı bir baxar, Pərini o yan-bu yan elər, deyər:

– Bir zadı dəyil. Göndər getsin çobanların yanında bir az qalsın, havası dəyişilsin.

Toxdar. Qəlbi sıxılar da, ondandı.

Dev Pəriyə deyər:

– Get qırx günəcə qal. Havan dəyişilsin.

Pəri gedər qalar Fərhud şahın yanında. Yeyirdilər, içirdilər, çobanlar da qulluq eləyirdilər.

Bir gün ordan ayrı bir padşahın karvanı keçirdi. Görərlər bir dana gözəl qız var, bir dana çoban, nə şıxda. Deyərlər ki, bu gözəllikdə qız cobana layiq dəyil. Gəlin bunu aparaq öz şahımıza. Gələrlər, çobanı tutarlar, bağlarlar, Pərini götürər, qaçırdarlar.

Bu yandan çobanların xəbəri olar. Düşərlər karvanın dalıyca. Onda yetişərlər ki, Pərini aparırdılar padşahın yanına.

Padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban, Pəri!
Çobana layiq deyilsən.
Gəl səni vəzirə alım.

Pəri deyər:

Mənim şahım, qibləgahım,
Canım qurban olsun sənə.
Vəziri mən istəmirəm,
Xan çobanı sən ver mənə

Padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban, Pəri!

Çobana layiq deyilsən,
Gəl səni alım oğluma.

Pəri yenə öz sözün deyər, istəməz, padşah deyər:

Canım Pəri, gözüm Pəri!
Canım sənə qurban, Pəri!
Çobana layiq deyilsən,
Gəl səni alım özümə.

Pəri yenə öz sözün deyər, getməz, padşah acıqlanar, deyər:

– Babam, gedin bu çobanı gətirin görüm nə cür adamdı ki, qız ondan əl çəkmir.

Gedəllər gətirərlər. Padşah deyər, aparın öldürün.

Apararlar soyundurarlar ki, öldürsünlər, görərlər ki, altdan bir yaxşı paltarı çıxdı, bir dana bazubənd qolda, padşahınkının tayı, deyərlər ki, bax hələ oğurluq da eləyib.

Bazubəndi apararlar padşahın yanına. Padşah baxar öz bazubəndinə, deyər:

– Yox, oğurlamayıb mənimki yerindədi. Gedin gətirin görüm bunu hardan tapıb, kimdi.

Fərhud şahı gətirərlər, padşah deyər:

– Bəs, sən kimsən?

Fərhud şah açar başına gələni deyər. Padşah deyər:

– Məni bağışla. Səni tanımamışam. Atanla mən siğə qardaş idik. Bazubəndləri də cüt almışdıq.

Bu yol, çəkər Fərhud şahın alnından öpər, əzizlər, sonra verər yeddi gün, yeddi gecə toy-tabaq elərlər. Şah Pəri xanımı götürər gələr öz yerinə. Vəzirə deyər:

– Getdim Pərini gətirdim gəldim.

## ŞAH ABBASLA PİNƏÇİ

Bir gün qışda Şah Abbas çıxmışdı vəzirlə gedirmiş. Görər bir pinəçi oturub ağzının – burnun suyu qarışıb bir-birinə. Yazığı gələr, yeriyər qabağa, deyər:

– Qoca, doqquzu vuraydın üçə! Yeyən mal-davarın neçədi?

Deyər:

– On.

Deyər:

– Qaz göndərsəm ütərsən?

Deyər:

– Ax, necə!

Şah Abbas vəzirlə qayıdarlar bargaha. Vəzirə deyər:

– Vəzir, de görüm, mən qocayla nə danışdım?

Vəzir deyər:

– Padşah, on gün möhlət ver tapım.

Bu yol vəzir gedər pinəçini tapar, deyər:

– De görüm, nə danışırdız padşahla?

Pinəçi deyər:

– Yox, demərəm.

Vəzir iki yüz tümən boyun olar. Pinəçi deyər:

– O dedi “doqquzu vuraydın üçə”, yani doqquz ay işləmisən, üç ay qış işləmə daha. Mən də ki, ona dedim, “otuz ikilər qoymadı”. O da dişlərimdi ki, qoymadı. Mal-davar da uşaqlarımdı ki, deyirdi neçə başın yiyəsisən. Mən də dedim, on başın.

Bir də ki, dedi, “qaz göndərsəm ütərsən? ” Mən də dedim ,“ax necə”. O da ki, sənsən. Göndərdi, ütdüm.

Vəzir gedər padşaha deyər. Şah Abbas deyər:

– Nə bildin? Bəs vəzirlik elə o qocanın həqqidi.

Pinəçi oldu vəzir, vəzir işdən düşdü.

## VƏZİRLƏ ZIRNACI

Bir gün bir nəfər fələklə əlbəyəxə idi. Arvad buna hökmən deyər ki, kişi, bax axşam cörək gətirməsən, evə qoymayacağam.

Sənə mən deyim , bu cıxar eşigə, görər da pıcaq bəndə dayanıb, carə yoxdur.Öz-özünə deyər: ”Gəl get şahın bargahına”.

Qapıcılar qoymazlar ki, nə sözün var de, biz şaha deyək. Deyər ki, yox olmaz. Gərək öz qulağına deyəm . Gedərlər şaha deyərlər ki, bəs belə. Bir nəfərdi, deyir şahın qulağına söz deyəcəyəm.

Şah da eyş-işrət üstə idi, xoş vaxtı idi, deyər:

– Qoyun gəlsin.

Bu bir baş yomular şahın qulağına, o ki yaman idi deyər. Hər zadın söyər, qatar-qarışdırar bir-birinə.

Şah bir fikrə gedər.Görər, bax da bu əcəl davu vurur. Deyər:

– Buna yüz tümən verin getsin.

O gecə sevincək gələr evinə. Yüz züməni beş-altı gün xərclər, qurtular. Yenə arvad başlar ki, gərək gedib cörək gətirəsən.

Kişi cıxar eşigə. Deyər: “Yenə gəl get şahın yanına. Öldürsün yəxən qurtulsun”.

Ginə gedər bargaha. Şaha deyərlər ki, haman adam gəlib, deyər sözüm var. Şah yenə işrət üstə idi. Deyər:

– Qoyun gəlsin.

Bu yenə gələr, başlar ağzına gələni şahın qulağına deyər. Şah görər ki, da fələklə əlbəyəxədi, deyər:

– İki yüz tümən verin getsin.

Vəzirin qarnı sancılanar. Düşər kişinin dalınca görsün bu nə deyir ki, belə pullar alır. Kişini tutar soruşar ki, sən şaha nə deyirsən ki, əvvəl yüz tümən, sonra iki yüz tümən aldın?

Kişi deyər:

– Sənə deməli söz deyil. O elə şaha layiq idi, dedim.

Vəzir cox elər, əl cəkməz, axırda kişi deyər:

– Min tümən alaram deyərəm.

Vəzir deyər:

– Olsun, verərəm.

Kişi pulu alar deyər:

– Şaha zırna calmaq örgətirəm.

Vəzir deyər:

– Mənə də örgət.

Kişi deyər:

– Min tümən də alaram, zırna calmaq örgədirəm.

Vəzir min tümən də verər. Kişi necə gündə vəziri qabil zırnacı elər. Uzun bir zırna biləsinə tapar deyər:

– Vəzir, şahla şikara gedəndə zırna calmağın sənə cox xeyri dəyər.

Bir gün vəzirlə şah şikara cıxmışdı. Qəmiş ucu vəzirin bürünməsinin altından cıxmışdı eşigə. Şah görər deyər:

– Vəzir, o nəmənədi?

Vəzir gülər, deyər:

– Qibleyi aləm sağ olsun, sənə örgətəndəndi da.

Şah bir də soruşar:

– Vəzir, o nəmənədi deyirəm?

Vəzir gülümsər deyər:

– Padşah, sən örgəşəndəndi da.

Şah hirslənər, cığırar:

– Gədə, deyirəm o nəmənədi? Bə niyə oyun verirsən? Cıxart görüm eşigə....

Vəzir zırnanı cıxardar, enlənə-enlənə bir calar deyər:

– Padşah, necə örgəşmişəm?

Şah deyər:

– Bunu kim sənə örgədib?

– Padşah, haman adam ki, sənin qulağına deyirdi, örgədirdi, mənə örgədib.

Şah qayıdar kişini cağırtdırar ki, olan, bu nə nəmənədi? Düzün de.

Kişi deyər:

– Gəlmişdim bargaha məni öldürəsən, yəxəm qurtula. Şansımdan xoş vəqtin idi, öldürmədin.Vəzir pəxillik elədi, düşdü dalımca, mən belə elədim....

Şah deyər:

– Elə vəzir sənsən. Bu da getsin zırnacılığına.

## ARVADLARIN PƏXMƏLİGİ

Bir dana kişinin bir dana arvadı var idi, bir dana nənəsi. Kişi gedər bazara, xanım da bir az su götürər gedər tövlədə yuyunmağa. Soyunar daş üstə oturar. Birdən xanımdan bir yel çıxar.

Bunların bir keçıləri var idi. Başlar mınqıldamağa. Xanım çox türkusayar idi. Deyər bəs ki, keçi deyir, ağa gəlsə deyəcəyəm, deyər:

– Keçı, sən Allah demə, çadramı verərəm sənə.

Çadrasın götürər atar keçinin üstə. Keçi yenə mınqıldar. Xanım deyər: "Az oldu? Şalvarımı da verirəm sənə, demə".

Keçinin boğazı tutulmuş idi. Yenə mınqıldar. Xanım deyər ki, elə bil yenə az oldu. Gala, tumanımı da verirəm sənə, demə.

Götürər tumanı da atar keçinin üstünə. De donun, carqatın, başmaqların, corabların, hamısın atar keçinin üstünə deyər: "Demə, sən Allah, məni evdən ötürər eşigə".

Özü bu yol lüt-üryan oturar daş üstə. Görər keçi yenə mınqıldar. Başlar ağlamağa. Qaynana gələr deyər:

– Qız, kül başına, bəs belə niyə?

Gəlin deyər:

– Allahdan gizlin dəyil, səndən nə gizlin. Yuyunurdum birdən məndən bir yel çıxdı. İndi bu yol keçi deyir, ağa gəlsə deyəcəyəm. Nə qədər eləyirəm, elə deyir deyəcəyəm".

Keçi yenə mınqıldar. Qayınana çadrasın atar üstünə deyər: "Keçi, sən Allah, qız yazıqdı. Çadranı verdim sənə.

Keçi yenə mınqıldar. Qayınana da bir-bir pal-paltarın verər keçiyə, özü lüt-üryan oturar daş üstə.

Vurar oğlan bazardan qayıdar. Gələr tövləyə, gördüyundan qurur, deyər.

– Əqlizə qadam, bu nədi?

Nənəsi deyər:

– Bala, Allahdan gizlin dəyil, səndən nə gizlin...

Başlar bu yol başlarına gəldiyini deyər. Oğlan deyər:

– Durun köpək uşaqları, sizi əkib-doğan belə-belə olsun.

Hirslə çıxar getsin qızın dədəsin görsün. Görər bazardan gəlir. Dədə deyər:

– Sən keç evə, burda bir qoduq var, onu s..... gəlim.

Oğlan deyər:

– Tu! ...sənə. Belə dədədən elə də qız olar. Gedim görüm nənəsi nə cürdü.

Gələr görər qaynanası oturub paltar yuyur. Çadra başında tumançaq. Oğlan öskürər, qaynana deyər:

– Keç gəl, seyin-seyrana daldadı.

Helə oğlan keçər deyər:

– O nə qızdı böyütmüsən?

Qaynana əlin soxar özünə çıxardar deyər:

– Bax, onun əlindən içalatım belə yanıb.

Oğlan öz-özünə deyər:

– Başımı alım gedim, bu köpək uşaqlarının əlindən yəxəm qurtarsın.

Az gedər, çox gedər yetişər bir çeşmə başına. Əl-üzün yuyar, oturar daş üstə, fikrə gedər. Bir kəniz gələr su aparmağa. Deyər:

– Əmi, hardan gəlirsən?

Oğlan dinməz, kəniz yenə deyər. Oğlan bu yol hirslənər deyər:

– Cəhənnəmdən, gordan gəlirəm!..

Kəniz sevincək qaçar xanıma deyər:

– Xanım, bir kişi var, deyir cəhənnəmdən-gordan gəlirəm.

Xanım deyər:

– Qaç, çağır gəlsin, görüm rəhmətlik atamıza bir zad-mad göndərə bilərik.

Kəniz gedər deyər. Oğlan bilər ki, özününkündən heyvanına rast gəlib. Durar gələr, xanım deyər:

– Düzün de görək, cəhənnəmdən-gordan gəlirsən? Mənim dədəmi gördün?

Oğlan deyər:

– Niyə görmədim? Amma yazıq biçara lap pis haldadı.

Xanım deyər:

– Necə?

Oğlan deyər:

– Necə olacaq. Yazığın diriliyində min tümən borcu var idi. İndi ona görə biləsən iki şəqqə eləyirlər. Bir səqqəsin vil qurusundan aslayıblar, bir səqqəsin Bərhut çölündən, gündə də bir dəs kötəgi var.

Xanım deyər:

– Belə başına dolanaram. Kişinin evdə min tüməni var. Onu verim, apar ver dədəmin borcuna. Kişiyə deyərəm kəbinimə hesab eləsin.

Deyər:

– Çox işdi deyirsən. Amma da sənə xatər gedərəm.

Min tümən alar. İstər getsin, gözü sataşar ləyəndə beş-altı yumurtaya, deyər:

– Xanım, yumurtaları da ver. Yol gedəcəyəm, bu da yol həqqim.

Xanım əyilər başın soxar yumurtaları çıxarta, oğlan biləsin basmalar. Hələ yumurtaları da alar qoyar gedər. Azdan sonra xanımın əri gələr. Xanım deyər:

– Kişi, muştuluğumu ver deyim...

Kişi deyər:

– Arvad nə muştuluğu ? Nə deyirsən de qurtar.

Axırda xanım başına gələni deyər. Kişi deyər:

– Denə biləni s... da.

Ər durar atı minər çapar oğlanın dalınca. Oğlan uzaqdan görər bir atlı gəlir. Yerə dəysə min tikə olacaq. Bilər ki, bundan ötrü gəlir.

Bir keçəl on top bez qoymuşdu qabağına yuvurdu.

Oğlan deyər:

– O atlını görürsən?

Keçəl deyər:

– Niyə görmürəm.

Deyər:

– Şaha döhüllük yığırlar, keçəl baş dərisi axtarırlar.

Keçəl deyər:

– Nə eləyim?

Deyər:

– Sən paltarlarını ver mənə, təpil kürədə gizlən, mən bir təhərilən yola salaram.

Keçəl təl-tələsik təpilər kürəyə, oturar bez yumağa. Atlı yetişər deyər:

– Ay qərdəş, bir nəfər belə adam burdan keçmədi ki?

Oğlan deyər:

– Niyə keçmədi, budu, bax təpilib kürəyə.

Kişi atdan düşər deyər:

– Zəhmətdi, atdan yapışın, mən köpək oğlun çəkim eşigə.

Kürəyə girmək haman, bu birisi qardaşım tez minər, bezləri götürər, yallah gedər.

Kişi küpədən hay verər:

– Gədə, köpək oğlu, çıx gəl eşıgə. Məni dildən saldın.

Keçəl dalı çəkilir. Kişi gedər qabağına deyər:

– Deyirəm, çıx gəl. Hara gedirsən?

Keçəl də görər dibə getməyəcəkdi:

– Mən elə bərk keçəl deyiləm. Döhüllük deyiləm vallah.

Kişi deyər:

– Gədə, köpək oğlu, mən döhulu nə elirəm. Mən pulumu istirəm.

Keçəl başına gələni deyər. Kişi görər, balam, başına börk keçub. Çıxar gələr evə deyər:

– Arvad, səni evdə s......, məni çöldə.

Bu yandan oğlan az gedər, çox gedər yetişər bir naxırçıya, deyər:

– Bir atım var. On put bezim. Min tümən pulum. Bunların hamısın verirəm bir doyunca turşulu aşa.

Naxırçı deyər:

– Burada ol, mən tez gətirim.

Gələr evə arvada deyər :

– Dur aş pişir. Bir dənə pəxməsin tapmışam. Bir at, min tümən pul, on top bez verir, bir doyunca turşulu aşa.

Arvad durar tər-tələsik aş pişirər. Birdən ayağı gedər, bala salar. Kişi durar özü aş doldurar bəsdiyə, atar dalısına getsin.

Arvad zarıya-zarıya deyər:

– Kişi, bezdən bir top ver aparım dədəm evinə.

Kişi əyilər yerdən bir saman götürər deyər:

– Bax, bir belə də verməərəm.

Aş da tökülər boyun-boğazın pöşlər.

Bu yandan, oğlan naxırı, qatar qabağına qayıdar evə, deyər:

– Bax bir os..... gör, nə qədər xeyri dəydi!

# QIZIALA BALIQ

Bir gün var idi, bir gün yoxdu. Günlərin bir günündə bir padşah var idi. Bunun üç dana oğlu var idi. Vurar bir gün bu padşahın gözləri tutular. Həkim-təbib əlac eylə bilməz. Axırda biri deyər:

– Qibleyi-aləm sağ olsun, sənin gözünün dərmanı bir qızılala balıqdır ki, filan dəryada olur.

Şahın böyük oğlu durar ayağa, gedər dərya qırağına, tor atar, tutanmaz. Ortancıl oğlan gedər, tutanmaz. Axırda balaca oğlan gedər, tor atar balığı tutar. Baxar görər bir balıqdı ki, Allahın kərəm dəryası cuşa gələndə onu xəlq eləyib. Öz-özünə deyər: “İnsaf deyil, bu köyçək balığı tutasan”. Atar dəryaya qoyar gələr.

Şeytan tez yetirər özün padşahın yanına. Deyər ki, bəs hal-qəziyyə belə oldu. Oğlan gələr evə deyər:

– Ata, tutanmadım.

Padşah deyər:

– Mirqəzəb hazır olsun.

Vəzir deyər:

– Qurban, sən öz oğlunu öldürsən, hamı sənə töhmət elər. Öldürmə, təbid elə.

Bu əmr elər, oğlanı şəhərdən çıxarsınlar. Oğlan gələr nənəsinin yanına, deyər:

– Nənə, məni təbid elədilər, bir sözün var mənə de.

Nənəsi gətirər üç dana kökə verər, deyər:

– Yolda hər kim qabağına çıxsa, bir dana kökə ver, denən, ala, böl.

Gördün ki, yarıdan çoxun verdi sənə, onunla yoldaş ol, yarıdan azın verdi, qayıt ayrı yolunan get.

Oğlan kökələri alar, düşər yola. Gələr, bir nəfərə rast gələr, kişi deyər:

– Oğul, hara gedirsən?

Deyər:

– Bəs, dədəm məni xarici-bələd eləyib, gedirəm, görüm hara yetişərəm.

Deyər:

– Mən də dünyadan doymuşam, elə sənlə yoldaş olacağam.

Bunlar gələrlər, yetişərlər bir yerə. Acıdılar. Oğlan çıxardar kökələrin birin verər ona, deyər:

– Ala, böl yeyək.

Kişi kökələri alar. Bölər, yarından çoxunu özü götürər, azı verər oğlana. Oğlan kökəni yeyər, deyər:

– Da mən getmirəm, qayıtmalı oldum.

Qayıdar, bir ayrı yolnan başlar getməyə, görər bir nəfər gəlir. Deyər:

– Qardaş, hara gedirsən?

Deyər, bəs dədəm məni xarici-bələd eləyib.

Deyər:

– Yaxşı oldu, elə mən də sən dərddəyəm. Gəl, gedək.

Bunlar gələrlər, gələrlər, ta aclıq qələbə elər. Oğlan çıxardar bir kökə verər, deyər:

– Böl, yeyək.

Bu alar kökəni bölər, yarıdan çoxunu özü götürər, azı verər oğlana. Oğlan deyər:

– Da mənim getməyim olmadı.

Durar yola düşər gəlməyə, görər bir oğlan gəlir. Deyər:

– Hara?

Deyər:

– Hali-qəziyyə belədi, dədəm məni xarici-bələd eləyib, məni özünə yoldaş elə.

Deyər:

– Olsun!

Bunlar gələrlər, gələrlər, ta aclıq qələbə elər.

Oğlan çıxardar kökəni, verər deyər:

– Al böl, yeyək!

Deyər:

– Özün böl!

Çəkiş-bərkiş, axırda yoldaş bölər. Üçdən birini özü götürər, kəsrin verər oğlana. Oğlan deyər:

– Mən nənəm deyən adamı tapmışam.

Bunlar gələrlər, gələrlər, yetişərlər bir şəhərə. Yoldaşı deyər:

– Oğlan, indi ki, gedirik bu şəhərə, mən nə desəm sözümə bax, özbaşına bir iş görmə. Bir də hər nəmənə tapsaq, şərikik-aradan böləcəyik.

Deyər:

– Olsun!

Deyər:

– Götür kitab, qələmdan çıx bazara. Bu şəhərin padşahının qızının dili bağlıdı. Hər nə qədər falçı-rəmdar gətiriblər, dilin aça bilməyib. Get bazara, denən, "rəmdaram, falçıyam". Desələr, "oğlan, lal dili aça bilərsən?". Denən, "bəli".

Oğlan deyər:

– Mən hardan başarıram.

Deyər:

– Sənin işin yoxdu, gəl mənim yanıma deyim.

Oğlan sabah durar bazara gedər, başlar, "falçıyam, rəmdaram!" Padşahın adamları gələr deyər:

– Lal dili açarsan?

Deyər:

– Açaram!

Deyər:

– Bu şəhərdə adam qalmayıb şahın qızına baxmasın. Gəl, gedək, bəlkə sən onun dilini açdın.

Deyər:

– Qələmdanım qalıb evdə, qoy gedim gətirim.

Gələr evə, görər yoldaşı oturub. Deyər:

– Necə oldu?

Deyər:

– Heç zad da durublar, məni gözləyirlər.

Deyər:

– Sənin işin olmasın, get şahlığa denən, padşah, vəzir-vəkil gəlsinlər, əyləşsinlər noxoşun yanında. Denən, qəlyanı həyətdə hovuzdan doldurun gətirin, qəlyan danışsın, qulaq asın.

Oğlan durar, gələr şahlığa. Deyər:

– Qızı gətirin, dilin açım.

Padşah, vəzir-vəkil hamısı düzülüb oturar. Oğlan deyər:

– Qibleyi-aləm!

Deyər:

– Bəli!

Deyər:

– Dürüst qulaq asın. Qızın dilin açaram! Qəlyanı həyətdə hovuzdan doldurun, gətirin.

Qəlyanı doldurarlar, gətirərlər, qoyarlar araya. Oğlan deyər:

– Qəlyan, bir neçə kəlmə söhbət elə, qulaq asaq.

Sonra üzün tutar padşaha deyər:

– Qibleyi-aləm sağ olsun, durub qulaq asın. Qəlyan, başla.

Qəlyan başlar səlamdan sonra: bir gün var idi, bir gün yox idi. Bir padşah var idi. Bunun oğlu yox idi. Bir gün aynaya baxar, görər saqqalı ağarıb. Deyər, mən, gör nə bəd-bəxtəm ki, indiyədək övladım olmayıb. O zaman bir mədah qapını döyər, gələr içəri. Deyər:

– Qibleyi-aləm, niyə pozğunsan?

Deyər:

– Bu sinnə gəlmişəm övladım yoxdu.

Çıxardar bir alma verər, deyər:

– Yarısını böl, ver hərəminə, yarısını da özün ye. Amma uşaq olandan sonra onu üç ay mən aparacağam.

Deyər:

– Olsun!

Bir müddət keçər, bunların bir oğlu olar. Oğlan böyüyər, olar on sənədə. Padşah deyər:

– Əlhəmdulla, baba dərviş gəlmədi.

Bu söz ağzından çıxcaq, qapı taqqılıbab olar. Haman baba dərviş girər içəriyə, deyər:

– Oğlandan ötrü gəlmişəm.

Deyər:

– Baba dərviş, oğlanı nə elərsən, öz ağırlığı qədər pul verərəm.

Deyər:

– Olmaz, vədə kəsmişəm.

Axırda bu oğlanı götürər aparar. Bir qədər yol gedərlər, ta yetişərlər dərya qırağına, dərviş deyər:

– Oğlan, bax gör, dəryada nə görürsən?

Oğlan deyər:

– Bir imarət görürəm.

Dərviş deyər:

– Gedərsən o imarətə, içində bir gəbə var, o gəbəni götürərsən, gətirərsən bura. Amma gəbəni açmayasan ha!

Deyər:

– Yaxşı.

Oğlan dəryanın üstündən yeriyə-yeriyə gedər yetişər imarətə. Girər içəri. Görər heç zad yox, təkcə bir dana gəbə var. Gəbəni götürər öz-özünə deyər, “açım görüm içində nə var.” Gəbəni açar, görər heç zad yox. Bir dana kirbit qutusu. Əlin atar bir dana kirbit çəkəndə bir bərk şaqqıltı gələr. Padşahın qızı birdən deyər:

– Oğlanın ürəyi pis olmadı?

Oğlan deyər:

– Qibleyi-aləm, eşidin, qızın dili açıldı.

Padşah deyər:

– Bəli!

Vəzir deyər:

– Xeyr.

Qəlyan deyər:

– Baba, dürüst qulaq asın. Qızın dilin açıram.

Oğlan kibriti atar yerə. Gördü, imarət dağıldı. Bir təxta parası üstə gəldi yetişdi bir meşəyə. Kibritin içindən əli kürəklilər çıxdı, yeri kürəklədi. Sonra əli süpürgəlilər çıxdı süpürdü. Sonra əli kürəklilər çıxdı dövrə vurdu oturdu. İçəridən bir qız çıxıb təxtın üstündə oturub dedi:

– Hanı mənim namizədim?

Dedilər:

– Odu bax, qorxudan ağaca çıxıb.

Deyər:

– Gedin, gətirin!

Gedərlər oğlanı gətirərlər. Oğlan oturar orada eyş-işrətlə məşğul olar. Səhərə yaxın oğlan kibrit qutusun bağlar. Əli kürəklilər, əli süpürgəlilər, əli qəməlilər, qız, hamısı girər qutuya. Bu durar gələr yetişər bir karvansaraya. Bir dəvəlik tutar. Karvansaraçı öz-özünə deyər:

– Oğlan, bu bir tək adamdı, dəvəliyi neylər? Bunda bir iş var.

Gecə yavaşca gələr qapının bacasından baxar, görər oğlan bir kirbit çıxartdı, çəkdi. Qutunun içindən bir dəstə əli süpürgəli çıxdı yeri süpürdü. Sonra bir dəstə əli qəməli çıxdı. Bir qız çıxdı, oturdu təxtdə, başladılar eyş-işrətə.

Karvansaraçı tez gəldi padşaha xəbər verdi ki, bir oğlanda bir gəbə var ki, yer üzündə sənə layiqdi. Padşah əmr elədi, getdilər oğlanı tutdular, apardılar saldılar zindana. Qutunu da aldılar.

Bir gün padşahın qızı oturmuşdu, dedi:

– O qutunu gətirin görüm nə cürdü?

Qızları yığır başına, gedirlər bağa. Qız qutunu çıxardar, bir kibrit çəkər. Bir bərk şaqqıltı gələr. Padşah qızı birdən deyər:

– Bəs qızın bağrı çatlamadı?

Qəlyan deyər:

– Qibleyi-aləm sağ olsun, eşitdiz ki, qızın dili açıldı?

Azı dedi, “hən” eşitdik. Çoxu dedi, “yox” eşitmədik.

Dedi:

– Axı, dedim dürüst qulaq asın!..

Qız kibriti çəkdi, bir dəstə əli kürəkli çıxdı, vurdu qızları dağıtdı. Sonra bir dəstə əli süpürgəli çıxdı, yeri süpürdü. Sonra bir dəstə əli qəməli təxt gətirdilər. Bir qız çıxdı dedi:

– Hanı mənim namizədim?

Dedilər:

– Zindanında.

Dedi:

– Tez olun, gedin gətirin.

Əli qəməlilər qıra-qıra getdilər zindana. Oğlanı çıxartdılar, gətirdilər. Oğlan kibriti götürdü, düşdü yola getdi. Yolda dərvişə rast gəldi. Dərviş dedi:

– Oğlan, gəbəni gətirdin?

Oğlan:

– Bəli.

Dərviş gəbəni alar, oğlanı aparar basar bir daş kələginin altına, gələr kibriti çəkər. Yenə əli kürəklilər, əli süpürgəlilər, əli qəməlilər çıxar, qizi gətirərlər. Qız deyər:

– Hanı mənim namizədim?

– Odu ha, daş kələginin altında.

Qız deyər:

– Gedin, gətirin.

Gedərlər, gətirərlər. Oğlan qılıncı çəkər, dərvişin boynun vurar. Sonra kibrit qutusun götürər, gələr dədəsinin yanına.

– Qibleyi-aləm sağ olsun, indi dürüst qulaq asın. Qızın dilin açıram:

– Bir gün bir dərzi, nəccar, bir abid yol gedirdilər. Gecə zamanı yetişdilər bir meşəyə, deyərlər burada yataq, səhər açılsın, duraq, düşək yola gedək. Biri dedi:

– Oğlan, burada qurd-quş bizi dağıdar.

Deyərlər ki, növbətilən hərə bir az ayıq qalsın. Nəccar deyər:

– Siz yatın, mən oturmuşam.

Bunlar yatar, nəccar görər yuxusu gəlir. Bir dənə ağac kötüyü görər, onu yontalar elər adam. Bir azdan sonra dərzini ayıldar, deyər:

– Dur, bir az da mən yatım.

Dərzi durar, görər, oho, bunlardan sonra birisi də orada yatıb. Baxar, görər bir dana ağacdan qızdı. Bu da başlar buna bir dəst paltar tikər. Sonra abidi oyadar, özü gedər yatar. Abid durar görər ki, bir nəfər də yatıb o tərəfdə. Deyər, görəsən bu kimdi? Baxanda görür ki, bir dana təxtədən qızdı.

Deyər:

– Dərziylən nəccar mənə gül vurub. Mən nə eləyim, nə eləyim?

Əllərin götürər göyə deyər: ” Allah, sən də buna ruh ver!”

Allah ona ruh verər. Səhər olar, dərzi ilə nəccar oyanar görər ki, bir dana qız oturub orada. O deyər, bu mənimdi, bu deyər, bu mənimdi. İndi siz deyin görək, bu kimin idi? Birdən padşahın qızı o tərəfdən deyər:

– Nəccar fəhlə pulun alsın, dərzi də əl muzdusun, o qız yetişər abidə.

Qəlyan deyər:

– Qibleyi-aləm sağ olsun, eşitdin qızının dili açıldı?

Hamı deyər:

– Bəli, eşitdik.

Oğlan deyər:

– Qəlyanı aparın, boşaldın hovuza, gəlin.

Apardılar boşaltdılar.

Padşah deyər:

– Oğlan, mən nəzir eləmişəm, hər kim mənim qızımın dilini açsa, qızımı ona verəcəyəm. İndi götür qızı apar.

Oğlan deyər:

– Eybi yoxdur, qoy gedim yoldaşıma deyim gəlim.

Gələr görər yoldaşı oturub. Deyər:

– Necə oldu?

Hali-qəziyyəni deyər. Yoldaşı deyər, dur get, qızı gəti.

Oğlan gedər, qızı alar gətirər. Padşah buna xələt, cəvahirat verər, yola salar. Bu iki yoldaş gələrlər, gələrlər, axırda yetişərlər dərya qırağına. Yoldaşı deyər:

– Mən burada səndən ayrılıram, gətir malları bölək.

Gətirərlər, hər nəmənə qazanmışdılar bölərlər. Sonra yoldaşı deyər:

– İndi də qızı bölək.

Qızın yenə dili tutular.

Oğlan deyər:

– Axı, qızı necə bölək?

Deyər:

– Danışdığımız budu.

Deyər:

– Baba, heç mən istəmədim, götür qızı sən.

Deyər:

– Olmaz, gərək bölək.

Deyər:

– Mən bölə bilmərəm. Özün hər nə eləyirsən elə.

Oğlan üzün çevirir o yana. Yoldaşı gətirər qızı bağlar ağaca, qız da baxır, amma dinə bilmir. Yoldaşı qılıncını çəkər, yumular üstünə. Qız onu görcək birdən öyümə gələr. Bir dana ilan boğazından çıxıb düşər yerə. Yoldaşı deyər:

– Oğlan, gəl, böldüm.

Oğlan gələr görər qız ağacda, deyər:

– Hanı böldün?

Deyər:

– Elə belə bölərlər. Bu qızın dilin açmamışdın, indi açıldı. Dur, qızı da götür, get. Mən də gedim öz yoluma.

Bunu deyər atılar dəryaya, olar bir qızılala balıq. Deyər:

– Oğlan, məni tanıyırsan?

Deyər:

– Mən indi tanıdım.

Balıq dərya qırağından bir az torpaq götürər, verər oğlana, deyər:

– Apar, bunu çək dədənin gözləri toxdasın.

Oğlan gələr torpağı dədəsinin gözlərinə çəkər. Dədəsinin gözləri sağalar. Sonra çıqqasını qoyar oğlanın başına, özü şahlıqdan əl çəkər. Yeyər, içər, mətləbinə keçər.

توفارقان ۹/ ۱۲/۴۵

## DƏMİR ƏSA, DƏMİR BAŞMAQ

Bir gün var idi, bir gün yox idi. Bir padşah var idi. Bunun üç dana qızı var idi. Bunlar çox böyümüşdülər. Hamısının ər vəqti idi. Ancaq padşah onları ərə vermirdi. Elə bil yadından çıxmışdı. Bir gün qızlar bir dana qəşəng xonça bəzərlər. İçinə üç dana qohun qoyarlar. Biri tıtdamış, biri yetişmiş, biri də nurs. Xonçaya örtük çəkərlər, yollarlar padşahın yanına. Padşah örtüyü kənar edər qohunları görər. Deyər:

– Vəzir, bular nəmənədi ?

Vəzir deyər:

– Qıbleyi-aləm sağ olsun, o ki, tıtdamış qohundu, böyük qızındı. Deyər, məni ərə vermədin, ər vəqtim keçdi, turşadım. O ki, yetişmişdi, aramıncı qızındı. Deyir, mənim elə ər vəqtimdi. Verməsən, turşaram. Nurs qohun da bala qızındı. Deyər, mənim də ər vəqtim yetişib. Padşah deyər:

– Vəzir, tədbir.

Deyər:

– Sabah şəhərin cavanları gəlsin meydandan keçsin. Qızlar da dursunlar tamaşa eləsinlər. Hansını xoşladılar, bir alma atsınlar.

Sabah qızlar yığılar meydanın kənarında durarlar. Əllərində bir alma, sevdiyi cavanlara atmağa. Böyük atar vəzirin oğluna. Ortancıl qız atar vəkilin oğluna. Bala qız atar, alması gedər düşər bir xərabədə qara daşın dibinə. Daşı sökərlər bir ilan çıxar. Qız deyər:

– Mənimki də belə idi. Mən bu ilana gedəcəyəm.

Naqqədə dədə, nənə deyər olmaz. İki ayağın təpər bir başmağa ki, bir ağacdı, bir gö..., gərək gedim ilana.

Qız oturar daşın dibində. Bir azdan sonra görər ilan donundan çıxdı oldu bir dana şəstli cavan. Yemə,içmə xət-xalına, gül camalına tamaşa elə! Bir neçə gün keçər.

Təzdən gələrlər oturarlar ki, görsünlər bala bacı necə gələcək. Bir anda görərlər bala bacı gözəl oğlanıynan gəlir ki, gəl görəsən. Hamı qalar baxa-baxa. Helə yeyərlər-içərlər, bala bacı açar başına gələni bacılarına deyər. Onlar da deyərlər ki, gəl cildin yandır, çıxsın hüzurə rahat ol, canın qurtarsın. Heç soruşmusan cildin nə ilən yanar?

Qız deyər:

– Yox, soruşaram.

Qoyarlar gələrlər evlərinə. Qiz deyər:

– Ay balam, bu işdi girirsən ilan donuna? Sənin bu donun nə ilə yanar?

İlan dörd barmağın bir elər, bir sillə vurar qıza, qızın ağzının-burnunun qanı dağılar bir-birinə. Sonra ürəgi yanar aparar üzünün qanın yuvar, başlar dilə tutmağa. Deyər:

– Mənim donum sarımsaq qabığı ilə yanar.

Sabah oğlan donun çıxardar gedər hamama. Qız götürər sarımsaq qabığına od vurar, donu atar arasına. Oğlan hərasan gələr içəriyə. Görər hal-qəziyyə belədi, deyər:

– İndi ki, belə oldu, day məni görməzsən, mən getdim. İsdəsən məni görəsən, gərək yeddi cüt dəmir çarıx, yeddi dana dəmir əsa götürəsən, bir az da arpa çörəgi, harada olar yirtılsa, qurtulsa, orada məni tapa bilərsən.

Oğlan bunu deyib yox olur. Qız qalar. Ağlar, sızlar axırda durar ayağa yeddi cüt dəmir çarıx, yeddi dana dəmir əsa götürər, bir az da arpa çörəgi, düşər yola. Dədəsi nəqqədə deyər yox, qızım, getmə səni ondan da yaxşı oğlana verərəm. Qız saymaz. Bu şəhər, o şəhər, müttəsil yeddi il yol gedər. Axırda yetişər su başına, oturar əl-üzün yusun, açar bir tikə çörək yesin, görər çörəklər qalıb əpriyib kül olub. Baxar çarıqların altına, əsaya. Görər yırtılıblar. Bilər ki, oğlan bu-

radadı. Bir azdan sonra görər bir qız gəldi aftava doldurmağa. Deyər:

– Ay qız, aftavadan ver bir su içim.

Qız verməz, deyər:

– Niyə verim? Bunu aparıram ağa dayım dəstamaz alsın.

Deyər:

– Suyu qan olsun, zərdab olsun tökülsün ağa dayının əllərinə.

Qız aftavanı götürər gələr.

İstər töksün Məlikməmmədin əllərinə, qan olar, zərdab olar tökülər. Məlikməmməd deyər:

– Bacı qızı? Bəs bu nədi?

Qız açar gördüğün deyər. Oğlan deyər:

– Apar ver, içsin.

Qız qayıdar deyər:

– Məlikməmməd dedi ki, al iç.

Qızın ürəgi işıqlanar. Bir az sudan içər, göz-göz elər. Üzügün züyüldər salar aftavaya. Oğlan əllərin yuyanda görər aftavadan səs gəlir. Suyun tökər yerə üzüg düşər oğucuna, anlar nə var. Durar gələr su başına, görər qız oturub. Öpüşərlər, görüşərlər. Oğlan deyər:

– Mənim nənəm devdi. Dədəm devdi, xalam devdi, hər zadım devdi. Desəm səni almışam, yeyərlər. Gərək səni gizlədəm. Ovsun oxuyar, qız olar alma, gətirər qoyar evdə taxçaya. Axşam olar. Göy tutular, bulut içindən bir ifrit düşər yerə. Deyər:

– Məlikməmməd, adam-badam iysi gəlir, şaqqılı badam iysi gəlir.

Məlikməmməd deyər:

– Nənə, dağda-daşda yemişəm, dişimin dibindən gəlir.

Nənə deyər :

– Oğul, belə deyil, belə olsun düzün de görüm.

Məlikməmməd deyər:

– Dədəmin sümüğünə and iç demərəm!

Arvad and içər. Məlikməmməd bir ovsun oxuyar, püflər almaya, alma olar qız. Arvad onu görcək hirsindən dişlərin bir-birinə sürtər, amma üzə çıxartmaz, deyər:

– Bu qızı neylərsən? Sənə xalaqızını alacağam.

Məlikməmməd deyər:

– Bu mənim siqə bacımdı. Çoxdandı bacı-qardaş olmuşuq, indi tapmışam.

Nənəsi görər ki, yox, elə bil nişanlıdı, hələ dinməz. Gün o gün olar ki, istərlər

Məlikməmmədlə xalaqızının toyun eləsinlər. Deyərlər, gərək bu qızın başın əkək sonra. Məlikməmmədin nənəsi qıza deyər:

– Dur get, xalangildən mahana qutusun al gətir.

Qız gəlir Məlikməmmədin yanına. Məlikməmməd deyər:

– Qorxma, dur get. İstərlər səni öldürsünlər. Mən deyənə qulaq asarsan, heç zad olmaz. Gedərsən, görəndə bir dana bulanıq su oradan keçəndə denə: “Bəh-bəh ! Nə qəşəng sudu. Gülab kimin, ab-kösər kimin. Qabım olsaydı, bir az bundan doldurar, aparardım”. İstərsən keçəsən, denə: “Yağılan bal, aralan, mən keçim”. Sonra gedərsən görərsən bir dana tikanlıqdı, denə: ”Bəh-bəh! Nə gözəl ignə– sancaqlardı. İşim olmasaydı, bunlardan taxardım yəxəmə”. İstərsən keçəsən, denə: “İgnə-sancaq, aralan, mən keçim”. Sonra gedərsən görərsən bir dana atdı, bir dana it. Atın qabağına sümük töküblər, itin qabağına arpa. Arpanı götür tök atın qabağına, sümüyü itin. Sonra get bağlı qapını aç, açıq qapını ört. Sonra get bükülü kilimi aç, açıq kilimi bük. Sonra gedərsən yetişərsən xalamgilə. Xalam deyər, dur burda gedim gətirim. Gedər dişlərin ititməgə. Sən qutunu götür qaç. Dalına baxma ki, daş olarsan.

Qız gedər, Məlikməmməd dediyi kimi elər, gələr yetişər xalanın evinə. Qapını döyər. Xala gələr deyər:

– Kimsən?

Qız deyər ki, bacın göndərib mahana qutusun aparmağa. Xala deyər:

– Dur burda gedim gətirim.

O gedər dişlərin ititməgə, qız əlin atar qapı dalında bir dügünlük var idi, götürər qaçar. Xala düşər bunun dalıyca, çığırar:

– Açıq kilim, tut!

Deyər:

– Niyə? Sən məni açmışdın, bu bükdü.

– Bükülü kilim, tut!

Deyər:

– Niyə? Sən məni bükmüşdün, bu açdı.

Deyər:

– Açıq qapı, tut!

Deyər:

– Niyə? Sən məni açmışdın, bu bükdü.

Deyər:

– Bağlı qapı, tut!

Deyər:

– Niyə? Sən məni bağlamışdın, bu açdı.

Deyər:

– At, tut!

Deyər:

– Niyə? Sən mənə sümük tökmüşdün, bu arpa tökdü.

Deyər:

– Calı tikan, tut!

Deyər:

– Niyə? Sən mənə calı tikan deyirsən, bu ignə-sancaq.

Deyər:

– İrin-çirk su, tut!

Deyər:

– Niyə? Sən mənə irin-çirk deyirsən, bu yağıla bal, gülab.

Qız götürülər qaçar. Yolda deyər ki, qoy dügünlüğü açım görüm içində nə var. Açar, açanda birdən səs düşər ki, gəl görəsən. Tez bağlar. Məlikməmmədin nənəsi eşidər bilər ki, qız ölməyib, gəlir. Qız hələ qutunu gətirər verər. Dalınca da xala gələr ki, qoydu qaçdı. Arvad deyər:

– Bu işlər Məlikməmmədin işidi.

Qızı çağırarlar, deyərlər:

– Gərək gedəsən iki təlis quş tükü yığarsan ki, Məlikməmmədə yorğan-döşək tutaq, toydu.

Qız tutqun gələr Məlikməmmədin yanına. Məlikməmməd deyər:

– Fikir eləmə. Getginən quşlar bağına, qışqır, denə: "Yığılın, quşlar, yiğılın, quşlar, yığılın, Məlikməmmədin toyudu". Elə ki, quşlar yığışdılar, denən ki, "silkinin, quşlar, silkinin, Məlikməmmədin yasıdı!" Onda quşlar silkinərlər, yığarsan tükləri gətirərsən.

Qız durar gedər quşlar bağına. Qışqırar: "Yığılın, quşlar, yığilin, Məlikməmmədin toyudu".

Bir anda görər quş yığışdı, quş yığışdı hədsiz-hesabsızdı, dünyada nəmənə quş var. Bu yol qışqırar deyər:

– Silkinin, quşlar, silkinin, Məlikməmmədin yasıdı.

Quşlar silkinər, tük tökər. Onlar təlis demişdilər, bu üç-dörd təlis yığar doldurar, götürər gələr.

Toy gecəsi olar. Məlikməmmədin nənəsi biləsinə deyər:

– Qoy bu gecə bacın bizlə yatsın.

Məlikməmməd deyər:

– Yox, gərək özümlə yata. Bacımdı olmaz ki, ayıram. Ürəginə dəyər.

Qabaqca qıza örgətər ki, bir qazan su qaynatsın, bir dana piçaq, bir az duz hər yandandı tapsın. Gecəyəcə hazırlasın. Elə ki, gecə gəlinlə oğlanı əl-ələ tapşırarlar, hamı gedər yatar, Məlikməmməd durar ayağa xala qızısın götürər basar qazana, qapağın qoyar, arvadın götürər minərlər ata, düşərlər yola qaçarlar.

Məlikməmmədin nənəsi nahara yaxın deyər ki, durun gedin görün bə, bunlar niyə eşigə çıxmırlar? Gedərlər görərlər nə qız var, nə oğlan. O yana gələrlər, qazanın başın qavzayanda görərlər qız oturub içəridə, dişlərin ağardır. Deyərlər: "Qız, niyə gülürsən? Bə burada niyə? Məlikməmmədin hanı?"

Haçandan-haçana görərlər ki, qız çoxdandı ölüb. Məlikməmmədin nənəsi ilə xalası durarlar anqıra-anqıra düşər dallarıyca.

Məlikməmməd bir qədər yol gedəndən sonra qıza deyər:

– Bax gör dalıdan gəlmirlər ki.

Qız baxar dalıya, görər yaxınlaşıblar.

Deyər:

– Az qalıb bizi haqlasınlar. Yeyin sür, gedək.

Məlikməmməd deyər:

– Qorxma, pıçağı at.

Qız pıçağı atar. Pıçaq olar bir dana qılınc dağı. Çöl olar bütünlüklə qəmə-xəncəl.

Nənə ilə xalanın ayaqları şül-küt olar. Anqıra-anqıra üz qoyarlar dallarıyca.

Yenə bir azdan sonra Məlikməmməd deyər, dön gör dalımızca gəlmirlər ki.

Qız baxar görər, devlər gəlirlər-nə cür, nə təhər. Deyər:

– Lap yaxındadırlar.

Məlikməmməd deyər:

– Duzu at.

Qız duzu atar, hər yan olar duz. Dolar devlərin yaralarına, yandırar-yaxar. Devlər anqıra-anqıra üz qoyarlar dallarıyca.

Yenə bir azdan sonra Məlikməmməd deyər:

– Bax gör gəlmirlər ki?

Qız dönər dalıyca baxar, deyər:

– Vay, yetişdilər.

Məlikməmməd gördü olmayacaq, qızı elər bir bostan, özün bostan ağacı, atı da bostançı. Devlər gələrlər, görərlər qəşəng abad bostandı. Deyərlər oturaq burada ağacın kölgəsində bir dincələk. Yaralarımızın da ağrısı qoysun gedək. Bir dana gülbəsər dərib yeyərlər, uzanarlar, yuxu tutar. Məlikməmməd görər yuxulayıblar, yenə qızı götürər, atı mınər, düşər yola. Qız baxar görər culu barmağı yoxdu. Helə getha-get gedərlər.

Bu yandan devlər ayılarlar, heç zad yox. Nə bostan var, nə ağacı, nə də bostançı. Bilərlər ki, bunlar Məlikməmmədin işi imiş. Yenə anqıra-anqıra üz qoyurlar yola getməyə.

Qız bir anda dalıyca baxar, görər devlər gəlirlər, nə cür! Yerə dəysələr min parça olarlar. Məlikməmməd deyər:

– Qorxma, suyu at.

Qız suyu atar, su olar dərya, devlər qalarlar o tayda, bunlar bu tayda. Devlər deyər:

– Məlikməmməd, başına dolanaq, bizi də keçirt o taya. Sənə dəymərik vallah, ballah!

Məlikməmməd deyər:

– Da, işiz qurtuldu. Sizinki elə buraca idi. Buraya keçəmməzsiz. Sizinki sizdə, bizimki bizdə.

Düşərlər yola, gedərlər qızın şəhərinə.

## ALLAHA FƏLƏLİK

Bir gün varıydı, bir gün yox idi. Allahdan qeyrəz heç kim yox idi. Bir dana fələ var idi. Gündə gedərdi fələ meydanında dururdu. Günortayaca gözətdirdi, heç kəs biləsin işə aparmırdı. Bir gün da cana gələr deyər:

– Arvad, duz-çörək bağla, gedəcəyəm Allahın özünə işləyəm.

Arvad çörək bağlar. Kişi durar bir külüng götürər, gedər başlar bir dağın böyrün sökməyə. Naharaca sökər, görər, balam, heç gəlib deyən yoxdu ki, çıx nahara. Öz-özünə deyər: “Olsun da, nə olar Allahdı, özgə ki, dəyil. Hər nə olsa özümüzünküdü. Qoy bir yarım saat da artıq işliyək”.

Yenə başlar külüng vurmağa. Yarım saatdan sonra işdən əl çəkər, deyər:

– Özgə olsaydı hər zadım qatmışdım bir-birinə. Amma nə edim ki, Allah işidi. Bekar qalmaq olmaz. Tez bir tikə atım içəri işləyim.

Ayaq üstə bir tikə yavan çörək yeyər, başlar işə. Axşamaca külüng döyər. Heç gəlib deyən olmazdı ki, fələ qərdəş, işdən çıx, vəqtdi. Öz-özünə deyər: “Nə eləmək olar, axı? Özgə ki, dəyil, hər nə varın söyəm, işi tökəm çıxım gedim. Özümünküdü. Allahdı. Gəl bir yarım saat da artıq işlə, ölməzsən ki”.

Yarım saatdan sonra işdən əl çəkər, deyər: “Canım, nə olar özümünkü olanda, axı? Ölməli dəyiləm ki! Acığı gəlsə getsin su içsin. Canımı müftə tapmamışam, vallah”.

Ha gözlər, görər, balam, heç kəs gəlmədi muzdun versin. Durar bir az da gözlər. Görər, xeyir, Allahdan haray çıxmadı, deyər: “Sən örgəşmisən müftə işlətməyə, amma məni də tanımamısan. Gedəcəyəm məçidindəki minbəri aparam satam, muzduma götürəm. Özümünkü, özümünkü dedim, qoltuqlarına qarpız yerləşdi”.

Qaş qaralanda girər məçidə. Keçər minbəri aparsın. Bir anda görər bir baba dərviş gəldi, heybə ciynində. Keçər məçidin ortasında dizə çökər. Cibindən çoxlu tərək çıxardar. Yezidin məcsəməsin tökər qoyar qabağına deyər:

– Gədə, köpək oğlu yezid, sən niyə İmam Hüseyni öldürdün? Heç Allahdan qorxmadın? İndi sənə deyəcəm, qaban oğlu, qaban!

Əl elər yezidi qoyar ağzına. Sonra başlar İmam Hüseynə tay düzəldər, deyər: ”Amma öz aramızdı, sənə kim deyirdi gedəsən düşəsən yezidin əlinə? Getdin, özünü ölümə verdin, yazığı elədin lənət qabı, qoydun ora. İndi sənə deyərəm. Elə məzlum-məzlum baxmağına dəyil”.

Əl elər onu da qoyar ağzına. De, iş buyur yetişər Allaha. Deyər: “Bilirsən, nə var? Günahların hamısı səndədi. Yezidi yaradacağıdın, amma Həsəni niyə yaratdın? Yox, İmam Hüseyni yaradacağıdın, yezidi niyə yaratdın? De, dilin var, de da!... İndi sənə deyərəm. Nə olar, məsələn, Allah olanda, hən?”

Əl elər ki, onu da yesin, birdən fələ minbər altdan cığırar:

– Yemə, köpək oğlu, gəldim! Aşina, aşina gəldin, çıxdın ocaq başına!

Beçara dərvişin bağrı çatlar, düşər ölər. Fələ baba gələr dərvişin ciblərin hamısın boşaldar, götürər gələr evə.

## ÇOX OLSA BİR OĞUC,
## AZ OLSA YARIM OĞUC

Günlərin bir günündə bir dana kişi var idi. Arvadı bunu göndərər ət gülduşü alsın. Kişi gedər alar, qayıdar. Bu yol bunun arvadı deyər:

– Duzun xəbər aldın, ya yox ?

Deyər:

– Yox, almadım.

Arvad deyər:

– Canım, get xəbər al görəm nə qədər duz salacayıq. Adam da gedər gülduşu alar, duzun xəbər almaz?

Kişi gedər gulduşçunu tapar. Soruşar, gulduşçu deyər:

– Əh, rəhmətliyin balası, çox olsa bir oğuc, az olsa yarım oğuc.

Kişi deyə-deyə gedirdi ki, yadından çıxmasın. Yetişər bir yerə. Bir kişi xirmən sovururdu. Eşidər bu deyir: "Çox olsa bir oğuc, az olsa yarım oğuc". Götürər şənəni üstünə. Bir-iki şənə vurar deyər:

– Köpək oğlu, necə bir ovuc, yarım ovuc!

Deyər:

– Qərdəş, bə nə deyim, axı?

Deyər:

– Denə, bərəkətli olsun, biri min olsun!

Kişi deyə-deyə gedər: "bərəkətli olsun, biri min olsun!" Gələr yetişər bir yerə. Demə, ölü aparırlar. Salarlar bunu kötəgin altına ki, köpək oğlu, necə bərəkətli olsun, biri min olsun!

Deyər:

– Qərdəş, bə nə deyim, axı?

Deyərlər:

– Denə, Allah rəhmət eləsin, getsin gəlməsin, gördüz görmiyəsiz!

Deyə-deyə gələr bir yerə, demə gəlin aparırlar. Kişi deyər:

– Getsin gəlməsin! Gördüz, görmiyəsiz!

Tutarlar salarlar kötəgin altına. Nə yemisən, turşulu aş. Kişi deyər:

– Axı, qərdəş, bə niyə vurursuz? Nə deyirsiz, deyim da.

Deyərlər, denə: "Gəlin gətirmək ilə, xeyir görmək ilə, ha bir Allah !" Atıl düş. Börkünü at göyə.

Kişi gedər-gedər yetişər bir şikarçıyə. Şikarçı av salmışdı qıravula, istirdi vursun. Kişi qışqırıb atılanda av qaçar. Ovçunun ovqatı təlx olar. Tüfəngin tərsiylə duşər kişinin canına, o ki var vurar. Kişi deyər:

– Qərdəş, niyə vurursan? Ax, mən neylədim? Nə deyirsən, deyim da.

Şikarçı deyər:

– Heç zad demə. Börkünü götür, başmaqlarını vur qoltuğuna, əgilə-əgilə duvar dibindən çıx get.

Kişi elə elər. Birinin evin kəsmişdilər. Oğrunu axtarırdılar. Kişini görmək haman o ki var, kötəkə basarlar ki, sən ev kəsmisən. Kişi deyər:

– Mən oğru dəyiləm. Mənə bir nəfər belə dedi, mən də elədim. Məni niyə vurursuz? Nə deyirsiz, deyim.

Deyərlər:

– Börkünü qoy, əyilmə, başını qavza, düz çıx get. Əyilsən dədəni yandıracağıq.

Kişi düz qoyar gedər yetişər qaplarına. Əyilməz. Qapı sinəsindən olar. Səslər:

– Arvad, gəl qapını sök, mən keçim.

Arvad çıxar bir təpik vurar, kişi təpilər içəri.

## ADI İLƏ BUDU

Biri var idi, biri yox idi. Allahın kərəmi çox-çox idi. Bir dana Adı var idi, bir dənə b7udu. Bir gün deyər :

– Arvad, bilirsən nə var?

Budu deyər:

– Kişi, nə var?

Deyər:

– Budu, mən deyirəm duraq gedək bir qızımız evinə. Çoxdandı görməmişik. Dur tədarək görək gedək.

Budu deyər:

– Nə eləyək?

Adı deyər:

– Duraq bir az kökə yapaq.

Qış gecəsi idi, ay işığı. Adı deyər:

– Allahın da təndiri yanır.

Xəmir elərlər, yaparlar duvara. Səhər durarlar, görərlər mis kimi donub. Qaşırlar, yığarlar dağarcığa. Təndirdə bir gülduş ətləri var idi. Üstün örtərlər. Bir kisə də pulları var idi. Bərkidərlər. Qapını bağlarlar, açarı daş altına qoyarlar, gedərlər. Yolda bir baba dərviş gedirdi. Deyərlər:

– Baba dərviş!

Deyər:

– Bəli.

Deyərlər:

– Biz gedirik qızımızgilə. Açar daş altdadı. Gedib qapını açıb, əti yeyib, yerin sı....., ha?

Baba dərviş deyər:

– Yox, xanım, mənim özümün işim-gücüm var.

Deyərlər:

– Baba dərviş!

Deyər:

– Bəli.

Deyərlər:

– Gedib filan yerdən bir kisə pulumuz var, götürüb yerinə saxsı doldurmayasan, ha!

Baba dərviş deyər:

– Xanım uşaq olmayın. Mənim sizin pullarızla nə işim var. Qoyun gedim. Qəribə işdi, ha!

Adı ilə Budu arxayın olarlar gedərlər. Baba dərviş gələr girər evə, əti yiyər, sı..... gulduşuna. Pulları götürər, bir lüləyin var idi, oğar doldurar yerinə.

Bunlar da gələrlər qızları evinə. Xəbər göndərərlər. Qızları da bətər yerdə idi. Əri var-dövlətli tacir idi. İki əli olar, bir təpəsi. Adam yollar ki, bir zad-mad gətirsələr tutsunlar alsınlar ki, abrısı getməsin. Budu bir dana kökə götürər soxar lüt qoynuna. Gələrlər yetişərlər evə. Salam, əleykəsalam. Oturarlar. Bu yandan kürəkən gələr. Budu əl elər qoynuna, kökəni çıxardar qoyar kürəkənin qabağına, deyər:

– Nənən ölsün bala, çox idi. Yolda bir başı yanmış aldı.

Qız tez yeriyər kökəni götürər atar itə. Oturarlar, yeyərlər, içərlər, olar gecə. Qız qaravaşa deyər:

– Yerlərin sal hel-mixək damında.

Adı ilə Budu gecənin bir zamanı ayılarlar. Hel-mixəyin iyi vurar yatanmazlar. Budu deyər:

– Adı!

Adı deyər:

– Can Budu!

Deyər: “Nə var?”

Deyər:

– Nənəsi ölmüş balanın işi çoxdu. Mavala gedənməyib, s........ otağa, iyi gəlir. Dur buları tökək çaya.

Durar hel-mixəkləri daşırlar. Tökərlər çaya. Bu yol rahat yatarlar. Səhər çay içməyə gələrlər. Budu deyər:

– Nənən ölsün bala, bə, bu köpək oğlunun evində nə qədər iş var? Bu gecə səhərədək nəcis daşımışıq.

Qız deyər:

– Eviz yıxılsın! Hel-mixəkləri neylədiz?

Gedər görər ki, töküblər çaya. Pul verər, nökərlər ayrısın alarlar, yerin doldurarlar ki, kişi bilməsin. Helə yeyərlər, içərlər olar gecə. Qız deyər:

– Yerlərin salın aynabənd otaqda.

Gecənin bir zamanı ayılarlar, baxarlar görərlər o yan, bu yan adamdı. Budu deyər:

– Adı!

Deyər:

– Can Budu!

Deyər:

– Nənəsi ölmüş balanın nə çox düşməni varmış. Duraq bunları öldürək.

Durarlar hərəyə bir dəyənək, şaqqaşaq vurarlar aynaları sındırarlar. Budu deyər:

– Bax, öldülər. Baxın yoxdu.

Başların qoyarlar, rahat səhərəcən yatarlar. Səhər çağı çay içməyə gələrlər. Salam, əleykəsəlam. Deyər:

– Bala, nə çoxdu düşmanın! Bu gecə səhərəcən qırmışıq.

Qız gedər görər aynabənd otağı heç eləyiblər. Deyər:

– Eviz yıxılsın. Bə niyə belə eləmisiz?

Verər nökərlər otağı tazadan aynabənd elərlər ki, kişi bilməsin.

O gün də axşam elərlər. Qız deyər:

– Yerlərin salın qaz anbarında.

Gecənin bir zəmanı qazlar oxuyurdular. Bunlar ayılarlar.

Budu deyər:

– Adı!

Adı deyər:

– Can Budu!

Deyər:

– Bilirsən nə var?

Deyər:

– Yox, nə var?

Deyər:

– Nənəsi ölmüşün vəqti olmayıb. Qazların başları bitləniblər. Dur buları yuyunduraq rahatlasınlar.

Durarlar adama bir qazan su qaynadarlar. Qazları bir-bir tutarlar, başların basarlar suya, düzərlər duvara. Budu deyər:

– Bax, yazıqlar dincəldilər, yatdılar.

Səhər gəldilər çay içməyə. Deyər:

– Nənən ölsün bala! Nə çox möhnətin ağırdı! Qazların başın da yuva bilmirsən. Başları bitlənmişdi. Ağlıyırdılar. Qaynar suya basdıq, rahatlaşdılar.

Helə verər nökərlər qaz alarlar, salarlar onların yerinə kişi bilməsin. O gün də axşam elərlər. Qız deyər:

– Yerlərin salın nəft anbarında.

Neftləri doldurmuşdular kuzələrə, düzmüşdülər duvar dibinə. Adı ilə Budu baxarlar görərlər kuzələr doludur.

Budu deyər:

– Adı!

Adı deyər:

– Can Budu.

Deyər:

– Heyvan bala haradan bilib biz yuyunacağıq, kuzələri doldurub hazırlayıb?

Durarlar hərəsi bir qazan nəft qızışdırarlar çimərlər. Səhər çay vəqti cəhənnəm iti kimi gələrlər. Budu deyər:

– Nənən ölsün, nə bildin bizə su lazımdı, kuzələri doldurdun.

Qız deyər:

– Vay, eviz yıxılsın! Olar nəft idi.

Nökərlərə deyər:

– Bu köpək uşaqların aparın hamama.

Hamamdan qayıdanda qapıdan qoymaz. Bir kuzə doşab, bir az çit, bir dana at verər, deyər:

– Da bəsdi, gedin evinizə.

Qışın tüfətüfi idi. Soyuqdan yer cırılmışdi. Adı deyər:

– Budu!

Deyər:

– Nə var?

Deyər:

– Yerin dabanı quruyub çatlayıb. Gəl bu doşabı tökək bura. Yazıqdı.

Doşabı tökərlər yerin çatdağına. Bir az gedərlər. Görərlər tikan kolu var, yel vurur əsir. Budu deyər:

– Adı!

Adı deyər:

– Can Budu! Nə var?

Deyər:

– Bizim əynimizdə paltar var. Tikan lüt qalıb əsir. Gəl çiti çəkək tikanın başına, üşüməsin.

Deyər:

– Yaxşı.

Çiti açarlar, çəkərlər tikanın başına. Bir az gedərlər, görərlər bir çolaq qarğa atıla-atıla gəlir. Budu deyir:

– Adı!

Deyər:

– Can Budu! Nə var?

Deyər:

– Bax, heyvan qarğa gör necə atılır. Gəl bu atı verək ona. Bizim qıcımız var, gedirik. Ölmərik ki, qarğa yazıqdı, gedib balasına çata bilməz.

Atı da ötürərlər qarğanın qabağına, gedərlər. Baba dərviş rast gələr. Deyərlər:

– Baba dərviş!

Deyər:

– Bəli!

Deyərlər:

– Sən Allah, tikan üşürdü, çiti çəkdik başına üşüməsin. Qarğa da çolaq idi, gedə bilmirdi, atı da verdik ona. Gedib çiti, atı aparmayasan.

Baba dərviş deyər:

– Yeri, baba, işinə! Mən də helə deyirəm bə nə sözü var. Mənim nə işim var. Dərdimin biri də oydu ki, gedəm çolaq qarğadan at alam! Qoyun çıxıb gedim canım, səfəhlə-miyin.

Onlar o yana, dərviş dəbərilər atı minər, çiti götürər gedər.

Adı ilə Budu gələrlər, yetişərlər evə. Deyər:

– Budu, sən Allah, tez çıxar əti yeyək, acam mən ölürəm.

Budu əti çıxardar, görərlər ət həngamədi. Əl elərlər pula, görərlər baba dərviş aparıb, yerinə saxsı doldurub. Bunların iki əli olar, bir başı.

Yedi, işdi mətləbinə yetişdi.

## BARAT NAĞILI

Bir gün qurd çox ac idi. Yemək dalınca dolanırdı. Getdi bir qoyuna sataşdı, dedi:

– Bax, qoyun! Mən səni yeyəcəyəm.

Qoyun deyər:

– Olsun, amma mənim bir oyunum var, onu gör, sonra ye.

Qoyun o yana qaçdı, bu yana qaçdı. O yana burcutdu, bu yana burcutdu, getdi bir tərəfdə gözdən itdi.

Qurd getdi gördü bir keçi, dedi:

– Keçi, daha mən acımdan ölürəm, yeyəcəyəm səni.

Keçi dedi:

– Olsun, amma sən mənlə doymarsan. Bu dağın dalında iki-üçü də var, onları da qoy çağırım.

Keçi çıxcaq dağın başına o taydan aşıb getdi.

Qurd gözlədi, bir az sonra düşdü yola. Bir az səhərə qalanda gördü bir ağac dibində uzanıb yatıb bir at.

Dedi:

– Bax at. Daha lap acımdan ölürəm, yeyəcəyəm səni.

At dedi:

– Olsun, ye. Amma mənim bu ayağımın altında bir barat var. Onu oxu sonra.

Qurd deyib yaxşı, başın yaxınlatdı. Onda at ayağın qavzadı. Bərkdən təpiklədi qurdun ağzın, dişləri getdi qarnına.

Gəldi oturdu bir yanda, zarıldaya-zarıldaya dedi:

– Gördün qoyun,
Ye qalsın quru boyun.
Sən neylərdin oyun-moyun,

Çalğıçı olacağidın, oyunçu olacağıdın?
Gördün keçi
Ye qalsın, quru qıçı.
Sən neylərdin iki-üçü,
Coda olacağıdın, çoban olacağıdın?
Gördün at
Ye, yanında yat.
Sən neylərdin barat-marat
Malla olacağıdın, müctəhid olacağıdın?
....Deyə-deyə can verdi.

## DƏVƏ İLƏ TÜLKÜ

Bir gün dəvə gəlirdi, tülkü bənd olar. Deyir:

– Dəvə, səni yeyəcəyəm.

Dəvənin gülməyi gələr. Beləlikdə keçər gedər. Bir gün öz-özünə deyər:

– Gəl get, tülkü yuvasının ağzında ol, gör səni yeyər axı!

Dəvə gələr tülkü yuvasının ağzında sərələnər. Özün vurar tülkü ölümə. Tülkü çıxar görər, balam, öz dediyi olub, dəvə ölüb. Bir dişlər, görər, bəli doğurdan da ölüb. Deyər:

– Burda qalsa mənə yetişməz. Gələrlər sahab durarlar. Gəl quyruğun bağla quyruğuna, çək sal yuvanın içinə.

Tülkü quyruğun bağlar çəkər. Dəvə görər quyruq bərkiyib, durar yola düşər. Tülkü yuvulana – yuvulana gedər. Qurda rast gələr, deyər:

– Tülkü qərdəş, bu cəlal ilə xeyir olsun, hara belə?

Tülkü deyər:

– Yapışmışam büzürguarın ətəyindən, görək hara aparır.

## ŞİR İLƏ TÜLKÜ

Bir gün tülkü gedirdi, görər şir gəlir. Öz-özünə deyər: “Gəl şirin başını oxşa, gör axırı hara çatır”.

Qaçar şirin boynun qucaqlar. Bu üzündən, o üzündən də bir, iki, üç deyər:

– Sən mənim dayım oğlusan. Gözlərindən tanıdım. Başına dolanım, dayıoğlu, çoxdandı görməmişəm, söhbət elə, qulaq asaq.

Söhbətləşə-söhbətləşə tülkü şiri yeridir dağ başına. Şirin dabanların çəkər. Rəhmətlik dayım elə sən boyda idi. Amma kişidə işlər var idi ha! Elə idi, belə idi. Elə kəsərdi, belə basardı. Çox hünərli kişi idi. O hünərlərdən səndə də var? Hötma var da. Rəhmətlik dayım bu dağa yetişəndə bilirsən neylərdi?

Şir deyər:

– Neylərdi?

Tülkü deyər:

– Bax, belə çəkilərdi dalı-dalı, qaçardı qabağa, birdən atılardı dərənin təkinə. Amma inanmıram sən başararsan. Rəhmətlik dayım bir dana idi.

Şir deyər:

– Niyə başarmaram? Bax bir!

Çəkilər dalı-dalı, yegin gələr atılar dərənin təkinə. Düşər qol-qıçı, qabırğası sınıq-salxaq qalar. Tülkü gedər dağın yamacından enər gələr. Başlar şirin budundan sökməyə. Şir ölürdü, qalxanmaz. Deyər:

– Bibi oğlu, döşümdə yaxşı qərələr var. Gəl buradan ye.

Deyər:

– Dayı oğlunun sümüyün s....... Elə burdan yavaş-yavaş yeyə-yeyə gəlirəm.

## TÜLKÜ GEDİR HACA

Günlərin bir günündə tülkü gedər girər boyaqçı evinə. Burda əl-ayağın bular. Göy bez sərir başına, əlinə təsbeh alar, çıxar eşıgə. Yavaş-yavaş gedirdi, toyuq rast gələr, deyər:

– Tülkü, nə əl-ayağın rəngləmisən, göy bez sərmisən başına, təsbih almısan əlinə, gedirsən!

Tülkü üzün turşuda deyər:

– Dilin lal olsun, hacı tülkü desən? Görmüsən başıma sərmişəm bez arşın əlcə, əmir-əmalimi toba eləmişəm, gedirəm haca.

Toyuq deyər:

– Məni də yoldaş elə, hacı tülkü. Düşünəmədim.

Tülkü deyər:

– Da neylək, sözüzü yerə salanmaram. Özgə ki, deyilsiz...... Xərc-maxariciz özündən olsa, bəndə sizə cövşəndü.

Toyuq da qoşular gedərlər, xoruz rast gələr, deyər:

– Gün hayandan çıxıb? Qurd qoyunla dolanır. Tülkü, ayrı cildə düşmüsən. Bu nə firildaqdı?

Tülkü deyər:

– Dilin lal olar, hacı tülkü desən? Görmüsən başıma sərimişəm beş əlcə, əmir-əmalimi toba eləmişəm, gedirəm haca.

Xoruz deyər:

– Məni də yoldaş eyləyin, gedim.

Tülkü deyər:

– Da neyləyək? Sözüzü yerə salanmarıq, özgə ki, deyilsiz. Xərc-məxariciz özüzdən olsa, gəl gedək.

Xoruz da yoldaş olar, gedərlər. Hacı leylək rast gələr.

Deyər:

– Pə! Tülkü qərdəş, bu nə fırıldaqdı? Toyuqla xoruzu hara aparırsan?

Tülkü deyər:

– Dilin lal olar, hacı tülkü desən? Görmürsəm başıma sərimişəm bez arşın əlcə, əmir-əmalimi toba eləmişəm gedirəm haca.

Leylək deyər:

– Səvab xeyirlikdi, hacı tülkü, məni də aparın.

Tülkü deyər:

– Xərc-məxariciz özüzdən olsa, əybi yox. Gəl gedək.

O da qoşular gedərlər. Bağrıqərə rast gələr, deyər:

– Tülkü qərdəş, yaxşı yığmısan başına, yenə nə oyun var?

Tülkü deyər:

– Ağzın miyabar gətirməz deyəsən, hacı tülkü? Görmüsən başıma sərimişəm beş arşın əlcə, əmir-əmalimi toba eləmişəm, gedirəm haca?

Bağrıqəra deyər:

– Hacı tülkü ağa, bizi də yoldaş elə. Biz də çox günah sahibiyik.

Tülkü deyər:

– Mənlik dəyil. Xərc-maxariciz özüzdən olsa, əybi yox.

Bunu da salar yanına. Çox gedənnən sonra qaş qərələr. Bir bağ evi var idi. Tülkü deyər: “Düşək bu gecəni burada qalaq. Misafər mənzil-mənzil yol gedər. Bu gecə buranı mənzil eləyək, sabah düşərik yola”.

Tülküyə “buyurun, buyurun” elərlər. Tülkü deyər:

– Yox, olmaz. Siz buyuracaqsız. Mən covuşam, covuş qapıda yatar. Siz buyurun, dincəlin, mən qapı qulluğuzda varam.

Tülkü bunları salar içəri, özü də qapı çiynində. Gecədən bir-iki saət keçmiş, tülkünün qarnı acından vay-vay gedər, deyər:

– Toyuq, gəl görüm bura.

Toyuq gələr, tülkü deyər:

– Gədə, de görüm əmir-əmalı toba eləmisən, gedirsən haca?

Toyuq deyər:

– Mənim bir əmir-əmalim yoxdu toba eliyəm.

Tülkü deyər:

– Kəs səsini! Əmir-əmalın yekəsi səndədi da, yumurtladığın bir pistiklikdə yumurtadı, hay salırsan, qad qad! qad! .... qad!...Yumurtlamışam ağabbaq, inanmırsan gəl get bax! Gedib baxanda görürsən həb kimi bir zaddı. Dur gəl qabağa.

Özü durar boynun üzər yeyər. Bir azdan sonra xoruza deyər:

– Gədə, xoruz, de görün əmir-əmali toba eləmisən, gedirsən haca?

Xoruz deyər:

– Mənim bir əmir-əmalim yoxdu toba eyləm.

Tülkü deyər:

– Kəs səsini! Hələ utanmır, danışır da. Əmir-əmalin yekəsi səndədir. Gecədən bir-iki keçmiş, ququluqu banlıyırsan. Karvan ayılir, deyir bəs səhərdi. Durur taxılı çatır, yola düşür. Soyğunçuya rast gəlir. Soyğunçu vurur öldürür, mallarını alır, sən də nahəq qana baəs olursan. Dur gəl bura.

Xoruzu da tutar boynun üzər. Bir az keçər, hacıleyləyə deyər:

– Gədə, hacıleylək, bura bax görüm, əmir-əmalını toba eləmisən, gedirsən haca?

Hacıleylək deyər:

– Mənim nə əmir-əmalim olacaq, toba eliyəm?

Tülkü deyər:

– Danışma, axmaq! Hələ mənə dili də var! Əmir-əmalin yekəsi səndədi, şeytan. Çinar başında bala qoymusan, çeşmə qırağıdı, arvad-uşaq, qız-gəlin, xalqın irzi-namusu gəlir su doldurmağa, paltar yumağa. Damağını şaqqıldadırsan. Arvad qorxur, gedir noxoşlur, düşür ölür, nahəq qana baəs olursan, dur gəl bura!

Tutar hacıleyləyin də boynun üzər. Bir az keçər, tülkü deyər:

– Gədə bağrıqərə, bura bax görüm əmir-əmalını toba eləmisən gedirsən haca?

Bagrıqərə deyər:

– Hacı tülkü qərdəş, məndə bir əmir-əməl yoxdu toba eliyəm.

Tülkü acıqlanar:

– Kəs səsini! Əmir-əməlin yekəsi səndədi. Yatırsan at rəddində. Bir dana alverçi yüz tümən bulur əsbab çatıb qatıra, gəlib keçəndə "pirrrr!" elirsən, qatır qaçır, kişi qorxur. Gedir ölür, nahəq qana baəs olursan. Gəl bura, da dinmə.

Tutar onun da boynun üzər. Qarın xəşələnər, deyər:

– İndi iki tazı olaydı, məni bir qovaydılar.

İki şikarçı oradan keçirdilər. Tazılar tülkünü görərlər, götürərlər. Tülkü qaçar, tazılar qaçar, tülkü dildən düşər. Deyər:

– Allah amandı! Məni qurtar, sənə beş batman qoz, on arşın bez verərəm.

Gedər girər bir qayanın dibində gizlənər. Tazılar tapanmazlar. Tülkü uzanar, qıssalar, durar ayağa deyər:

– Allah, bax görüm axı, mən culfayam sənə bez verim, bağbanam sənə qoz verim?

Qoyar atıla-atıla gedər. Bir anda tazılar çıxarlar. Yenə götürərlər qovalamağa.

Tülkü qaça-qaça qışqırırdı:

– Arşını gətir bezi apar, çuvalı gətir qozun apar.

Tazılar yerir tutarlar, şikarçılar yırtarlar.

## KEÇİ, QUZU, KÖPƏK, DANA

Deyir, bu "dəstiri" də Hacı Məhəddinin bir dana keçisi qoturluq tutar. Ötürərlər eşigə. "Malım-malım Mirza" nın da quzusu qoturluq tutub. Hacı Qasımın da köpəgi. Hacı Məhəmmədhəsinin də danası. Bu dördu gedərlər, bir-birlərin taparlar. Öz-özlərinə otlarlar, kökələrlər. Qoturluq da işinin dalıyca. Bir gecə "Daş nav" da oturmuşdular. Görərlər bir işıq gəlir.

Keçi deyər:

– Ax, burada bir qeylan ola çəkəsən!

Deyərlər:

– Bir söz dəyil. Köpək bəy su, dana bəy tanbaki, quzu bəy od gətirsin, ağaya qəylan verək.

Quzu bəy durar od gətirməyə, gedər-gedər işığa yaxınlaşanda görər, ohoy! ..

On iki qurd çomolaşıb gözləri işıldır. Benava quzunun dizləri qurur. Səlam, əleykəlsəlam:

– Quzu qardaş, sən hara, bura hara?

Deyər:

– Gəlmişəm ağaya od aparam, qeylan çəksin.

Deyərlər:

– Gəl əyləş hələ görək.

Quzu keçər əyləşər. Biri deyər, yeyək. Deyərlər: "Yox, yemiyək. Dalısı var hələ". Keçi bəy ha gözlər quzu bəy gəlib çıxmaz. Deyər:

– Dana bəy, dur gör quzu bəy harada qaldı, gəlib çıxmadı.

Dana bəy durar bala-bala gələr. Yaxınlaşanda görər on iki qurd quzunu alıb araya.

Dizləri qurur. Quzuya acıqlanar:

– Köpək oğlu quzu, harada qalmısan? Di gəl çıx, axı! Ağanın qəylanı açılandı.

Qurdlardan biri deyər:

– Gəl, əyləş, babam. Hirslənmə görək.

Qorxudan əyləşər. Biri deyər, yeyək. Deyərlər: “Gözləyək. Hələ dalısı var”.

Keçi bəy gözlə gözün var olsun, ha gözlər gəlməzlər. Deyər:

– Gədə, köpək bəy, dur gör.

Köpək bəy durar gələr. Yaxınlaşanda görər on iki qurd quzuyla dananı salıblar araya. Dizləri qurur. Deyər:

– Ağa sizi göndərib iş dalınca, ya deyib oturasız burada söhbətə? Heç utanıb ərimirsiz? Qalxın gedək!

Qurdlardan biri deyər:

– Hələ gəl əyləş görək, hirslənmə. Gəl, sən də bir dincin al.

Qorxudan keçər əyləşər. Biri deyər yeyək. Deyərlər: “Yox hələ, dalısı var. Dinmə”.

Keçi bəy görər köpək bəydən də xəbər-ətər olmadı. Durar özü gələr. Yolda görər bir qurd cəndgi var. Keçər taxar buynuzuna. Xoşu gələr, deyər qoy elə belə gedim. İşığa yaxınlaşanda görər on iki qurd quzunu, dananı, köpəyi salıb araya. Açıqlanar deyər:

– Köpək oğlanları, sizi göndərmişəm oda, ya demişəm gedin oturun söhbətə?

Keçi görər pis girə düşüb. Üzün tutar qurdlara basar yamana:

– Köpək oğlanları, yaxşı yerdə tutmuşam. Babazın iyirmi dörd qurd borcu var idi. On birin yemişəm, biri də buy-

nuzumdadı, on ikisi də siz. Gədə, qoyma köpək bəy, indi qaçarlar.

Qurdlar baş qoyarlar qaçmağa, köpək də yalandan bir hürür, qoyarlar gələrlər. Keçi deyər:

– İndi qurdlar düşünüb qayıdacaqlar. Gəlin bir yerdə gizlənək.

Bir əgri igdə ağacı var idi. Keçi çıxar kəlləyə. Köpək ondan aşağa. Quzu bir az aşağa, dana ha atılar çıxanmaz, axırı güc billahıla özün ilişdirər dayanar.

Qurdlar çox qaçandan sonra dayanarlar. Biri deyər:

– Bura baxın görüm, keçi nədi, qurd qovmaq nədi? Gəlin qayıdaq tutaq yeyək.

Qayıdarlar. Ha axtararlar tapanmazlar. İgdə ağacının dibində durarlar. Qurdlardan biri falçı idi. Fal açar görsün hardadırlar. Birdən dana bəy qurtular düşər qurdların üstünə. Keçi bəy görər iş yaşdı, deyər:

– Dana bəy, eləcə o fala baxanı tut, qaçmasın.

Qurdlar yenə qaçarlar, keçi deyər:

– Yenə qayıdacaqlar, gəlin bura, bir iş görək.

Yeri qazar köpək bəyi quylarlar. Üstünə daşdan, kərpişdən yığar, deyər:

– Bura "Qeyqala" ocağı, köpək bəy, vəqtində qaç.

Qurdlar top qaçanda tülküyə rast gələrlər. Tülkü deyər:

– Hara?

Deyərlər:

– Keçi tutur yesin bizi. Deyir babazın igirmi dörd qurd borcu var idi. On ikisin yemişəm, siz də on ikisi. Tülkü deyər:

– Sizi tovlayıb, keçi nədi, qurd nədi? Gəlin gedək mən deyim, neyləyin.

Tülkü ilə qurdlar qayıdarlar. Keçi görər tülkü duşub qabağa gəlirlər. Uzaqdan səslər:

– Ey tülkü, babavın igirmi dörd qurd borcu var idi, o günlərdə on ikisin verdin, yedim, indi də qalanın gətirirsən, hən?

Qurdlar deyərlər:

– Tülkü qardaş, bizi ölümə çəkirsən?

Tülkü deyər:

– Gəlin canım. Bu köpək oğlu yalan deyir.

Gələrlər, keçi deyər:

– Tülkü qardaş, sən hərz deyirsən, gəl bu “Qeyqala” ocağına and iç, bilim ki, borcun yoxdu, əl çəkim.

Tülkü gələr dolanar ocağın başına, deyər:

– Yalandan desəm, bu ocaq məni tutsun!

Birdən köpək bə daşlanar yapışar tülkünün boğazından. Qurdlar qaçarlar.

Səhər olcaq keçi deyər:

– Gəlin qardaş, da hərə getsin öz evinə. Qurd-quşun içində baş saxlaya bilmərik.

Hərə qoyar gedər öz evinə.

# TÜLKÜ İLƏ QURD

Günlərin bir günü tülkü yolun üstündə uzanıb ölmüşdü. Özünü tülkü ölülüyə vurmuşdu. O vəqtlərdə dərisi yeddi-səggiz yüz tümənə gedirdi. Gəlin aparırdılr.

Tülkünü görərlər, atarlar gəlin atının tərkinə. Hərə özünə məşğul idi. Birdən gəlin “cuy” çıxardar. Tülkü deyər, deyirsən deyim gəlin o...? Gəlin deyər:

– Amandı, demə, abrım gedər. Boyunbağımı verərəm sənə.

Tülkü alar deyər:

– Deyəcəyəm.

Gəlin saatın verər. Tülkü alar deyər: “Deyəcəyəm”. Gəlin nə qədər qiymətli şeyi var idi verər. Tülkü alar, atılar yerə. Həray təpər: “Gəlin o...”. Qaçar gedər. Rast gələr qurda. Qurd deyər:

– Tülkü qardaş, bunlar nədi?

Tülkü deyər:

– Xəbərin yoxdu. Zərgərlik, çərçilik xırdası satıram.

Qurd deyər: “Mayasın hardan tapdın?”

Deyər:

– Budu, bax, sel, çay gəlir. Quyruğunu qoy çaya, sel gətirsin yığsın. Səhər çıxart apar sat.

Qudr inanar deyər:

– Yaxşı oldu, sağ ol. Allah səni mənə çox görməsin.

Axşambaşı quyruğun qoyar suya. Soyuq vurar, quyruğu şüş donar. Səhərə yaxın quyruğun bir dəbərdər. Görər ağrıdı. Deyər, qoy qalsın çox yığışsın. Səhərçağı arabaçılar gedəndə görərlər çay qırağında qurd oturub baxır, əl dəyənəyə qurdun üstünə. Qurd birdən dik daşlanar qaçsın,

quyruq kökündən çıxar. Qurd qardaş qanı süzülə-süzlə qaçar. Deyər: “Köpək oğlu tülkü, tutsam yeyəcəyəm”.

Gedər görər tülkü bir toyuq ölüsü alıb dişinə gəlir. Deyər:

– Köpək oğlu tülkü, gəl qabağa yeyəcəyəm səni. Quyruğumu buza qoymusan kökündən çıxıb.

Deyər:

– Gədə, hadaran-padaran danışma, özündə huş-fərasət yoxdu, ona neyləyim? Bir az bevaxta qalmısan. Ağırlayıb quyruğunu üzüb. Bu yol qəssablıq eləyirəm. Gəl sənə də öyrədim. Əti sat sərmaya çoxalsın, get kefini çək.

Qurd deyər:

– Hardan sərmaya tapdın sən?

Deyər:

– Budu bax, filankəsgildə nin doludur toyuqla. Get beş-onun basmarla gətir sat. Mayası mədəndi.

Gecəçağı qurd gedər təpilər ninə. Toyuqlar çığırarlar. Ev sahabı ayılar. Götürərlər ağacları, vurarlar eni-uzunu bir olar. Qurd yarımcan qaçar gedər. Deyər:

– Köpək oğlu tülkü, bu dəfə tapsam yeyəcəyəm səni.

Tülkü görər, balam, qurd ayrı cür gəlir. Girər dəyirmana, üz-gözünə un sürtər, çıxar durar navın başında. Qurd gələr deyər:

– Köpək oğlunun balası tülkü, bu yol yeyəcəyəm. Gəl yaxına.

Tülkü deyər:

– Gədə, axmaq danışma. De görüm, yenə nə puç çıxartmısan?

Qurd deyər:

– O qədər kötək yemişəm ki, heç zada meylim yoxdu. Doymuşam.

Tülkü deyər:

– Səndə əql hardadı. Hər sənətə qoyuram, bir tikə çörək sahabı olmursan. Hələ mənə dilin də var. Bu yol dəyirmançılıq eləyirəm. Gəl səni şərik eləyim.

Qurd deyər:

– Mən acam, bir zad-mad ver yeyim, sonra.

Tülkü deyər:

– Gəl daşın dövrəsinə. Un yala, mən gəlim.

Qurd yeriyir daşın dövrəsinə un yalamağa. Tülkü yavaşca suyu qoşar dəyirman işlər. Vurar qurdun ağzı-burnun qanadar, qatar bir-birinə. Tülkü qaçar gedər.

O yan-bu yandan qələmə şuyu götürər sələ toxur. Qurd ağzı-burnu qanlı gələr deyər:

– Köpək oğlunun tülküsü, da bu dəfə əlimdən sağ qurtulan canın yoxdu.Yeyəcəyəm, irəli gəl ölürəm acından.

Tülkü gülər, deyər:

– Gəl, görürəm düzü çörək sahabı olmiyacaqsan. Gəl sələçilik eliyək. Əğlini yığ başına, toxu.

Tülkü deyər, gəl gir sələnin içinə örgəş. Qurdu salar sələyə, başlar toxumağa. Qurd deyər:

– Tülkü, mən örgəşənmirəm.

Deyər:

– Az danış, bax örgəşəssən.

Sələni toxur. Ağzın dələr. Qurd qalar içində. Çoban keçirdi. Tülkü səslər:

– Çoban qardaş, bir dana bal pətəyi qalıb burada, gəl apar, yeyərsən.

Sələni dığırladar, çoban götürər aparar evinə. Nənəsinə deyər:

– Qardaşlarıma demə, nənə, ikimiz yeyək.

Səhər əzanından sonra deyər:

– Nənə, qoyunu tezdən çıxartacağam, dur bal gətir yeyim gedim.

Nənəsi durar əl elər pətəyə. Qurdun aşağı tərəfi rast gələr. Bir barmaq çıxardar yeyər. Görər cimcəşməli dadı var. Gələr deyər:

– Bala, deyir bal şirin olar, bu şordur.

Çoban deyər:

– Arvad, necə ki şordur? Keç görüm özüm baxım.

Durar əl elər pətəyə. Qurdun ağzı rast gələr. Qurd ağzın atar dərisin fılıq çıxarda.

Tökülərlər dəyənəkləri götürərlər geçərlər qurdun kön-dünə o ki var vurarlar. Qurd şil-küt bir təhrilə özün aradan çıxardar. Yarı canı qalmışdı. Deyər:

– Köpək oğlu tülkü, da bu dəfə hər yandan olsa yeyə-cəyəm.

Gələr görər tülkü oturub, durar başında. Deyər:

– Köpək oğlunun tülküsü, en gəl aşağa, yeyəcəyəm. Dərimi filiq çıxardıblar. Yarı canım qalıb.

Tülkü əlin çalar əlinə deyər:

– Bizə bax ki, belə-belə qurdları çörək sahabı eləmək istirik. Oğlan, mən nə fikirdə, sən nə fikirdə. Taza bir bağ almışam. Gəl gedək dolan. Quyruq hər yanı tutub, baş qoyub yeriməyə. Keç gəl!

Qurd deyər:

– Səslə bağvanı gəlsin, qapını açsın gəlim.

Tülkü deyər:

– Bağvanım o başda işlər, başı qarışıqdı. Atıl duvardan gəl.

Qurd dırmaşar düşər bağa. Bağvan tələ qurmuşdu, xəndək qoymuşdu ki, tülkü gəlsin yeməyə düşsün tələyə.

Tülkü deyər:

– Qurd qardaş, buyurun. Quyruq odu, bax.

Qurd deyər:

– Sən buyur.

Tülkü deyər:

– Mən orucam, nəzirim vardır.

Qurd yerir ki, yesin, ağzı düşər tələyə. Quyruq atılar eşigə, tülkü bir səlavət çevirər, yeyər.

Qurd deyər:

– Tülkü qardaş, bə sən orucudun?

Deyər:

– Ayı gördüm.

Qurd deyər:

– Bə mən nə vəqt ayı görəcəyəm?

Deyər:

– Sən də tələ sahabı gələndə görəssən.

Buyandan bağvan oğlun göndərər ki, get gör tülkü tələyə düşüb, götür gəl. Oğlan gələr görər bir qurd düşüb. Bağvanı çağırar. Çəkərlər rəsmiləri. Nə yemisən, turşulu aş. Eniuzunu bir olar. Tülkü oturmuşdu duvar başında. Qurd deyər, köpək oğlu, di bağı almısan, gəl qabalanı sal yerə. Dədəm yandı kül oldu.

Tülkü deyər:

– Gədə, bu tozatozda qabalanı kim oxuyacaq? Başını sal aşağa gö..... ye.

Bağvanla oğlu gedərlər. Tülkü gələr yaxına. Qurd deyər:

– Gədə, mən öldüm, axı.

Tülkü deyər:

– Uzan arxan üstə yat. Özünü ölümə vur, açsınlar.

Bağvan gələr görər qurd ölüb, açar. Qurd qoyar qaçar. Deyər:

– Köpək oğlu tülkünün balası, da bu yol yeyəcəyəm. Can qalmayıb biləmdə.

Bir şir var idi, qocalmışdı. Tülkü bilər ki, da bu dəfə qurtulacağı yoxdu. Deyər:

– Yaxşısı budu gedim şirə nökər olum. Qurd şirə batanmaz.

Gələr, salam verər deyər:

– Ağa, icazə versəz sizə qulluq eləyim. Nökər olum. Siz şikara getməyin, mən gətirərəm yeyərik.

Şir qəbul elər. Tülkü qalar orada.

Tülkü qurdu çox acışdırmışdı. Axtarırdı tutsun yesin. Gələr görər şirə nökər olub. Deyər:

– Gəl, sən də nökər ol.

Gələr deyər:

– Ağa, icazə versəz, mən də sizə qulluq eləyim.

Şir qəbul elər. Qurd da qalar orada. Bir gün tülkü gedirdi şikara, bir gün qurd. Bir gün vurar şirin başı ağırır. Qurd oturmuşdu evdə. Tülkü gələndə, qurd acıqlanar ki, hara getmisən? Ağanı qoymusan evdə yalqız.

Tülkü deyər:

– Həkimə getmişdim.

Qurd deyər:

– Nə dedi?

Deyər:
– Qulağına deyəcəyəm.
Qurd eşigə çıxanda, keçər şirin qulağına deyər:
– Həkim dedi baş ağrısına qurd da...... əzin sürtün.
Şir deyər:
– Kasatdı? Özümüzdə var.
Tülkü çıxar qurda deyər:
– Keç gör, ağa nə buyurur.
Qurd şirin yanına gələndə, şir yapışar da.... çəkər üzər. Qurd qanı axa-axa düşər yola. Tülkü rast gələr deyər:
– Qırmızı şalvar qardaş hara gedir inşallah?
Qurd deyər:
– Köpək oğlu tülkü, da canım yoxdu, pis vəqtimdə rast gəldin.
Gedər uzanar ölər.

## QURBAĞA NAĞILI

Bir gün var idi, bir gün yox idi. Allahdan qeyrəz heç kəs yox idi. Bir dana qurbağa var idi. Bir gün çıxar getsin, əmrud yarpağı düşər başına. Bir dəstə əmrud yarpağı dərər, yeyər, gedər görər bir dəstə at gəlir. Atlar deyərlər:

– Qurbağa qərdəş, hara gedirsən?

Deyər:

– Əmrud yarpağı düşüb başıma, gedirəm şaha ərzə.....

Deyər: "Siz öləsiz. Bir dəstə əmrud yarpağı yemişəm. Sizi də basaram burada yeyərəm, ha!"

Onları da basar orada yeyər.

Gedər görər bir dəstə eşşək gəlir. Eşşəklər deyərlər:

– Qurbağa qərdəş, hara gedirsən?

Deyər:

– Əmrud yarpağı düşüb başıma, gedirəm şaha ərzə...

Deyərlər:

– Qayıt get , ha elə vurarıq yapışarsan yerə!

Deyər:

– Siz öləsiz! Bir dəstə əmrud yarpağı yemişəm. Bir dəstə at yemişəm, sizi də basıb yeyərəm, ha!

Onları da basar orada yeyər.

Gedər görər bir dəstə oğlan mazı oynurlar. Oğlanlar deyərlər:

– Qurbağa qərdəş, hara gedirsən?

Deyər:

– Əmrud yarpağı düşüb başıma, gedirəm şaha ərzə...

Deyərlər:

– Qayıt get ha, mazıyla vurarıq beş durarsan!

Deyər:

– Hən siz öləsiz! Bir dəstə əmrud yarpağı yemişəm, bir dəstə at yemişəm, bir dəstə eşşək yemişəm, sizi də basaram yeyərəm, ha!

Onları da basar orada yeyər, gedər görər qızlar pıçaq əldə tərə dərməkdən gəlirlər, deyərlər:

– Qurbağa qərdəş, hara gedirsən?

Deyər:

– Əmrud yarpağı düşüb başıma. Gedirəm şaha ərzə.

Deyərlər:

– Qayıt get, ha, pıçaqla vurarıq qarnın yırtılar!

Deyər:

– Hən siz öləsiz! Bir dəstə əmrud yarpağı yemişəm, bir dəstə at yemişəm, bir dəstə eşşək yemişəm, bir dəstə oğlan yemişəm, sizi də basaram yeyərəm, ha!

Onları da basar orada yeyər. Gedər görər bir dana qarı gəlir. Qarı deyər:

– Qurbağa qərdəş, haradan gəlirsən?

Deyər:

– Əmrud yarpağı düşüb başıma, gedirəm şaha ərzə...

Deyər:

– Qayıt get, ha, təpiklə vuraram əzilərsən!

Deyər:

– Hən, sən öləsən! Bir dəstə əmrud yarpağı yemişəm, bir dəstə at yemişəm, bir dəstə eşşək yemişəm, bir dəstə oğlan yemişəm, bir dəstə qız yemişəm, səni də basaram burada yeyərəm, ha!

Qarı deyər:

– Məni yemə, gedim sənə pilov gətirim.

Gedər bir dana yekə pişigi var idi, salar torbaya gətirər. Deyər:

– Gəl pilov ye, soyudu.

Qurbağa yerir qabağa. Qarı torbanın ağzın açar, pişig çıxar, qurbağanın qarnın yırtar, hamı tökülər eşigə.

## QARI İLƏ ÜÇ QIZI

Bir gün var idi, bir gün yox idi. Allahdan sonra heç kim yox idi. Bir dana qarı var idi, üç dana qızı. Qızlar qalmışdılar evdə. Heç kim almırdı. Bir gün deyər:” Belə də iş olmaz, gəl bir iş gör”.

Çıxardar böyük qızı çəhrəsin qoyar qabağına, oturdar küçə qapısında. Bir kəlləpəz keçirdi, qızı görər sevər alar. Sabah ortancıl qızı çıxardar, çəhrəsin qoyar qabağına, oturdar küçə qapısında. Bir kəbabpəz keçirdi, qızı görər sevər alar. O biri gün kiçik qızı oturdar. Onu da bir pətəkçi alar.

Bunun üstündən bir zaman keçər. Bir gün qarı deyər:

– Durum gedim qızlara bir baş çəkim. Gözü yoldadırlar.

Durar yüz altın verər, baqqaldan şaftalı qaxı alar, tökər cıbınə, düşər yola. Dəh burada, dəh orada, gələr yetişər böyük qızın evinə. Qapıyı döyər, qız gələr açar. Səlam, əleykəlsəlam. Xoş, beş, on beş. Keçərlər oturarlar. Qarı çıxardar qaxları verər qızına.

Gecə kürəkəni gələr. Kəllə-paça gətirmişdi. Qıza deyər:

– Arvad, at təndirdə pişsin, səhər yeyək.

Yatmaq vəqti durarlar yatmağa. Qarı hamını yuxuya verər, özü gedər təndirdən kəlləni çıxardar, çəkər dişinə. Kişi ayılar, deyər:

– Arvad, elə bil it kəlləni yeyir, dur görək.

Durarlar baxarlar, görərlər qarıdı. Qız utandığından bilməz neyləsin, deyər:

– Dur arvad, çıx get, abrım getdi.

Qarı deyər:

– Köpəğin qızı, şaftalı qaxımı ver, gedim.

Alar şaftalı qaxını, can basar kəbabpəzgilə gələr. Qaxları verər qızına. Keçərlər əyləşərlər, kəbabpəz gələr. Kəbablıq ət gətirmişdi. Deyir:

– Arvad, as qənarədən səhər kəbab çəkərsən.

Şam yeyərlər yatarlar. Qarı hamını yuxuya verər, durar ayağa. Gedər mətbəxə. Əti asmışdılar göydə qənarədən. Atılar əli çatmaz. Kəbabpəz səsə ayılar. Deyər:

– Arvad, tap-tap gəlir. Güman it gəlib. Dur gör.

Qız gedər görər qarı atılar əti tutsun, əli çatmaz, gubbulduyla düşər. Deyər:

– Vaxsey, abrım getdi. Dur çıx cəhənnəm ol get, istəmirəm.

Qarı deyər:

– Köpəyin qızı, şaftalı qaxlarımı ver, durum gedim.

Qız gətirər qaxları atar üstünə, deyər:

– Götür, o şaftalı qaxların, o da sən.

Qarı şaftalılaları götürər, can basar bala qızıgilə. Qonşuda toy idi. Gələrlər bunları da çağırarlar. Qız deyər:

– Yox, mənim qonağım var, gəlmərəm.

Deyər:

– Olmaz. Hokman onu da götür gəl.

Durar gedər toya. Hamının başı çal-çağıra qarışar. Qarı özün verər evdə pətək yerinə. Bir bərni bal var idi. Əl elər bir az yesin, əli girər qalar balda. Ha vurnuxar, əl çıxmaz. Götürər bərnini vurar, çadra altına, gələr oturar. Durarlar yatmağa. Yay idi, ay işığı, həyətdə yatmışdılar. Qarı hamını yuxuya verər durar ayağa. Bir saf daş da axtarırdı ki, bərnini sındırsın. Deme bəs sazanda dazdı. Ay işığı düşmüşdü başına, parıldırdı. Qarı deyər bəs mərmər daşdı. Sevincək gələr,

bərnini qavzar, nə qədər gücü var idi yendirər sazandanın daz başına. Sazanda ayılar, başın qan götürmüş, əl-haray qoyar:

– Vay köpək uşağı, başımı parçaladız! Ev vay, öldüm, gəlin!...

Gələr görər sazandanı qan götürüb, qarı bal ilə xəşək eləyib.

Qız binava bilməz başına nə daş salsın. Utandığından qaçar təpilər dalda-bucaqda gizlənər. Səhər çağı deyər:

– Dur çıx, get, abrımı apardın.

Qarı deyər:

– Köpəyin qızı, şaftalı qaxlarımı ver, durum gedim.

Qız şaftalı qaxların verər deyər:

– Gəl al, bu şaftalı qaxların, bu da sən. Dur get.

Qarı alar gələr. Yetişər baqqal dükanına. Deyər:

– Al şaftalılarını, istəmirəm. Yüz altınımı ver özümə.

Baqqal almaz. O yan, bu yan, axırda alar, yüz altını verər. Qarı qoyar gələr evinə oturar.

## QAYNANA

Bir dana arvad var idi, iki gəlini. Bunları ac saxlardı. Heç zad verməzdi. Bir gün aş pişirirdi, gəlinlər deyərlər, gəlin aşı bunun əlindən çıxardaq. Çıxarlar dama. Qayıdarlar ki, xanım, küçədə deyirdilər bacın ölüb. Qaynana vurar başına deyər:

– Vay, yazıq canım. Durum gedim görüm bacıma nə gəldi.

Durar mətbəxin qabağında palçıq elər, sovra qoyar gedər. Gəlinlər minərlər eşşəgin üstünə, girərlər mətbəxə. Bir dibək dəstəsi var idi. Götürərlər basarlar aşa, səbiyərərlər səginə yeyərlər. Yenə eşşəgi minərlər çıxarlar eşıgə. Qaynana gələr görər aşı yeyiblər. Deyər:

– Köpək uşaqları, aşı kim yeyib?

Deyərlər:

– Biz yeməmişik. Eşşək yeyib. Odu ayağının yerinə bax.

Qaynana çox deyər, gəlinlər az eşidər. Axırda qaynana deyər:

– Köpək uşaqları, düzün deməsəz gedəcəyəm təndir pəyəsində yıxılam öləm.

Gəlinlər deyərlər:

– Biz nə eliyək? Özün biləsən, get öl.

Qaynana özün vurar ölümə. Hay düşər ki, balam, filankəs ölüb. Qonşular tökülərlər. Böyük gəlin qulağına deyər:

– Köpəyin qızı, gəlirlər yusunlar ha! Durursan?

Deyər:

– Düzün deyin, durum.

Xəlq tökülər qaynananı soyundurarlar, isti suda yuyarlar kəfənləsinlər. Böyük gəlin əyilər qulağına deyər:

– Köpəyin qızı, kəfənlirlər, ha. Durursan, ya yox?

Deyər:

– Düzün deyin, durum.

Gətirərlər qaynananı kəfənlərlər aparарlar qəbrəstana. Gəlin əyilər qulağına deyər:

– Köpəyin qızı, qoyullar qəbrə ha, durursan, ya yox yenə ?

Deyər:

– Düzünü deyin durum.

Qaynananı qoyallar qəbrə. Gəlin gor qazana deyər:

– Baş daşı dibindən bir baca qoyun. Mən qaynananı çox istərdim. Hərdən gəlib baxacam.

Qəbrin üstün örtərlər, baş daşı dibindən bir baca qoyarlar gedərlər. Gecə yarısı gəlin durar gələr qəbr üstünə, deyər:

– Köpəyin qızı, durursan ya yox?

Deyər:

– Düzün deyin, durum.

Gəlin gedər dibək dəstəsin gətirər, deyər:

– Budu, bax, bunla yedik. Başını qovza gör.

Qaynana başın qovzayanda gəlin hin deyər, nə ki, gücü var, dibək dəstəsin vurar başına, deyər:

– Köpəyin qızı, ölməmisən də, öl!

Qaynana yıxılar ölər.

## TƏNBƏL MƏMMƏD İLƏ PADŞAHIN QIZI

Bir dana padşah var idi. Bunun bir dana qızı var idi. Vurar padşah qızından şəkkə düşər, ötürər eşigə. Bu yol, bu qız gedər xəzanədən bir az pul götürər, başın alar gedər. Axırda yetişər bir dana qoca arvadın evinə. Deyər:

– Qarı nənə, mənə bir yer verərsən bu gecəliyi?

Deyər:

– Yerim yoxdu. Mən cəhrəmi də göydən asıram.

Qız görər olmıyacaq, bir-iki dana pullardan qarıya qısdırar. Qarı alar, deyər:

– Sənə də yerim var, səndən olana da.

Qız keçər oturar, bir-birinin qəzv-qədərindən xəbərdar olarlar.

Qız görər ki, bir dana oğlan külün içində dəbərilir. Xəbər alar bu kimdi, deyər oğlumdu.

Deyər:

– Niyə bə orada?

Deyər:

– Tənbəllikdən orada yatar. İşləyib eləməz də.

Qız deyər:

– Mən bilərəm necə işlədəm.

Bir gün oğlanı çıxardar qoyar külün qırağına. Bir gün gətirər oturdar yanında. Bir gün aparar qoyar qapının astanasında. Sabahısı gün gedər parça alar gətirər. Paltar tikər, aparar hamama yuyundurar, paltarları geyindirər, bir aftava, bir dana süpürgə verər əlinə, deyər:

– Apar get tükanların qabağın süpür, bir bilənə beş-altı qran pul versinlər. Bu cür oturmaqla olmaz.

Oğlan gündə gedərdi işlirdi. Bir gün gələr qonaqlarına deyər ki, qonağımız, məni yüz tümənə nökər istirlər.

Deyər:

– Yüz tümən al gətir mənə, get.

Oğlan gedər yüz tümən alar gətirər verər qonaqlarına, çıxar gedər. Bir dana tacer bunu nökər elər. Bir gün bunu salar bir quyuya deyər ki, bu tuluqla su doldur mənə.

Oğlan girər quyuya, suyu doldurar verər. Tacer deyər:

– Qurtulduq çıx eşigə.

Oğlan ipi bağlar belinə, istər ki, eşigə çıxa, tacer şəmşiri ilə ipi qılınclar. Oğlan gedər quyunun təkinə. Orada görər bir dana dev var. Dev deyər:

– Oğlan, mən səndən üç dana söz xəbər alıram. Deyə bilsən ötürərəm eşigə. Deyə bilməsən, biləni burada yeyərəm.

Oğlan deyər:

– Xəbər al.

Dev deyər:

– Nəmənə yegin gedər?

Oğlan deyər:

– Göyül.

Deyər:

– Nəmənə yaxşı olar.

– Göyül sevən.

Deyər, dev buna üç dana nar verər. Bunu çıxardar eşigə. Oğlan durar gələr yetişər evlərinə. Narları verər qonaqlarına. Qonaqları birin sındırar, görər ləl-cəvahərətdi ki, dədəsinin xəzanəsində tayı yox. Narları bir yerdə gizlədər.

Oğlanın nənəsi deyər:

– Qonağımız, narlardan ver, mən bir az qonşularımıza paylayım.

Qız durar gedər bazardan bir az nar alar, gətirər verər oğlanın nənəsinə, paylar.

Bir-iki gündən sonra oğlan gələr deyər:

– Məni iki yüz tümənə nökər istirlər.

Deyər:

– Pulları al, gətir mənə, get.

Oğlan alar gətirər gedər. Bir ayrı tacer bunu aparar qoyar dağın kəlləsinə, deyər:

– O qızıllardan ağnat gəlsin.

Oğlan ağnadar. Tacer yükdən tutar qoyar gedər. Oğlan qalar dağın kəlləsində. Hey qışqırar ki, məni də apar, görər səs gəlmədi. Bir az bu qızıllardan özü ağnadar. Özün dağdan aşaga atar, deyər, tut məni qonağımızın Allahı!

Gedər bir kənddən on dana eşşək, on dana xəşə , on dənə ip alar gələr.

Bu qızıllardan da ki, yanınca aparmışdı, onların pulun verər. Səhrayilərdən yığar gətirər. Qızıllardan qoyar içində gizlədər. Birin də xales doldurar. Yüklər çatar, yola düşər. Sefareş yollar ki, tənbəl Məmməd gəlir, bunun qabağına çıxsın. Gələrlər tənbəl Məmmədin qabağına, görüşünə. Oğlan gələr yetişər, görər ki, bir dana imarət qayırıblar ki, heç yuxuda da görməyib. Tənbəl Məmməd deyər:

– Bu bir təlislər gedəcəklər yuxarı başa.

Nənəsi qışqırar:

– Bala, bu səhrayiləri hara aparırsan?

Tənbəl Məmməd deyər:

– Bu bir təlisi qoyun burada nənəm yandırsın, o biriləri də verərəm xırda-xırda yandırar.

Gecə yatanda nənəsin yuxuya verər, qonaqların ayıldar. Gedərlər səhrayiləri sındırarlar, qızılları çıxardar. Səhər səhrayiləri verər nənəsinə ki, yandırsın.

Bu mal-dövlətlə başa yetişərlər. Yedi, içdi, mətləbinə yetişdi.

## CÜCƏNİN ÇANQIRI

Bir gün bir dana qarı var idi, bir dana cücəsi. Bir gün cucə gedər eşnəməyə, bir dana tikan tapar verər qarıya, deyər ki, saxla. Bir gün qarı çörək pişirirdi, istər təndir yandırsın. Əlin salar yanmaz. Qolun salar yanmaz. Gətirər cücənin tikanin salar, yanar. Cücə gələr deyər:

– Qarı nənə, mənim tikanımı ver. Gedirəm uşaqlarla oynamağa.

Qarı deyər:

– İstədim təndir yandıram, əlimi saldım yanmadı, qolumu saldım yanmadı. Gətirdim sənin tikanını saldım, yandı.

Cücə deyər:

– O yana qaçım, qarı nənə! Bu yana qaçım, qarı nənə! Sənin bir tabaq çörəyini götürüm qaçım qarı nənə!

Cücə o yana qaçar, bu yana qaçar, qarının bir tabaq çörəyin götürər qaçar. Gedər görər çoban sütü yavan içər. Deyər:

– Çoban qərdəş, əl saxla çörək gətirim.

Çoban əl saxlar. Cücə deyər:

– Sən doğramaqdan ol, mən gedim eşigə çıxım gəlim.

Çoban doğrar, görər it öldü, gəlmədi, qurd öldü, gəlmədi, başlar yeyər. Elə ki, yeyər qurtarar, cücə gələr deyər:

– Çoban qərdəş, gətir yeyək.

Çoban deyər:

– Çox gözlədim, it öldü, gəlmədin, qurd öldü, gəlmədin. Mən də gətirdim yedim.

Cücə deyər:

– O yana qacım, coban qərdəş! Bu yana qacım, coban qərdəş! Sənin bircə dana qoyununu götürüm qacım, coban qərdəş!

Cücə o yana qaçar, bu yana qaçar, çobanın bircə dana qoyunun götürər qaçar. Gedər görər bir yerdə toydu, iti kəsirlər qoysunlar pilov üstə. Deyər:

– İti atın, qoyun gətirdim.

Qoyunu verər deyər:

– Siz kəsin hazırlamaqda olun, mən eşigə çıxım gəlim.

Toy yiyəsi qoyunu kəsər hazırlar. İt ölər, cücə gəlməz, qurd ölər, cücə gəlməz. Gətirərlər yeyərlər. Cücə gələr deyər: "Gətirin yeyək indi". Toy yiyəsi deyər:

– İt öldü, gəlmədin, qurd öldü, gəlmədin, gətirdik yedik.

Cücə deyər:

– O yana qaçım, toy yiyəsi! Bu yana qaçım, toy yiyəsi! Sənin gəlinini götürüm qaçım, toy yiyəsi.

Cücə gəlini götürər qaçar. Bir nəfər çıxar deyər:

– Neçəyə verirsən?

Deyər:

– Bir dana danqıra.

Gəlini verər, danqırı alar. Gedər çıxar padşahın damında danqır çalar, deyər:

– Tikanı verdim, çörək aldım. Danqırım, danqır, dınqır, dınqır! Çörəyi verdim, qoyun aldım. Danqırım, danqır, dınqır, dınqır! Qoyun verdim, gəlin aldım, danqırım, danqır, dınqır, dınqır! Gəlini verdim, danqır aldım, danqırım, danqır, dınqır, dınqır!

Padşah deyər ki, oğlan kəbab olduq əlindən, gətirin danqırın alın əlindən. Gedərlər danqırın alarlar. Cücə başlar banlamağa:

– Quqqulu...qu! Padşah mənə möhtac imiş! ...
Padşah deyər:
– Tutun başın kəsin, yəxəmiz qurtarsın.
Tutarlar başın kəsməyə, pıçağı boynuna qoyanda deyər:
– Quqqulu...qu! Nə iti pıçaq imiş!...
Dərisin soyarlar. Od üstə pöşlüyəndə deyər:
– Quqqulu...qu! Nə issi hamam imiş!...
Pişirərlər qoyarlar dügü üstə. Padşah əlin uzadanda deyər:
– Quqqulu...qu! Nə ağ təpə imiş!...
Padşahın boğazından keçəndə deyər:
– Quqqulu...qu! Nə dar dərbənd imiş!...
Padşahın qarnına yetişəndə deyər:
– Quqqulu...qu! Nə p..... pəyə (tövlə) imiş!..
Sabah səhər padşah eşigə çıxanda, cücə atılar eşigə deyər:
– Padşahın g....yırtıldı, şükür canım qurtuldu!

# AH NAĞILI

Bir tacer var idi, üç dana qızı. Bir gün gedirdi ayrı şəhərə ticarətə, deyər:

– Hər kim, hər nəmənə istər, desin, qayıdanda alım gətirim.

Biri deyər don, biri corab, kiçik qız da deyər baş gülü. Tacer gedər. Don, corab alar, baş gülü yadından çıxar, gələr. Evdə oturmuşdular, yadına düşər, ah çəkər. Bir anda görərlər qapı döyüldü. Tacer gedər qapıya, görər bir nəfər əlində qutu durub, deyər:

– Kimsən?

Deyər:

– Mən Aham, baş gülü gətirmişəm.

Tacer baş gülün alar, sevincək verər kiçik qıza. Qız qutunu açar, görər qəribə gözəl güldü.

Üç gün ondan sonra yenə qapı döyülər. Ah gələr. Deyər:

– Baş gülünün sahabın aparam.

Tacerin iki əli olar, bir təpəsi. Öz-özünə deyər, qıza necə deyim? Axırda olmaz, Ah deyər ki, gərək qızı aparam. Kişi görər olmıyacaq, qızı tapşırar Aha. Ah gözlərin bağlar, alar atın tərkinə, götürər gedər. Qızın gözlərin açanda, görər, pəho, bir dana bağdadı ki, nə gözəllikdə! Hər gülün üstündən bir avaz gəlir. Ah deyər:

– Bura sənin yerindi.

Qız bir qədər qalar. Bir özün görürdü, bir də Ahı. Yeyirdi, içirdi, dolanırdı. Bir gün dədəsi, nənəsi yadına düşər, ah çəkər, Ah gələr deyər:

– Niyə ah çəkdin?

Deyər ki, bəs dədəm, nənəm yadıma düşdü. Ah deyər ki, saxlayın apararam görərsən.

Sabah qıza deyər:

– Dur geyin gedək.

Yenə qızın gözlərin bağlar, alar atın tərkinə aparar, qapılarında qoyar yerə, ötürər içəriyə, gedər. Öpüş-görüş, qızı apararlar evə. Yığışarlar başına danışarlar. Qız deyər:

– Vallah gündə tək-yalqızam. Bir dana kişi var, hər nə desəm elər. Yemək-içmək də boldu. Da heç kim görmərəm.

Qızın bir dana xalası var idi. Deyər:

– Qızım, işsiz dəyil. Sənin ayrı ərin var. Gecə yatanda sənə nəmənə verərlər?

Qız deyər:

– Bir istikan cay.

Xala deyər:

– Bu gecə cayı içmə, barmağını da yar, yerinə duz tök, yatma, gör nə görərsən.

Qız deyər:

– Yaxşı.

Axşam olar. Ah gələr. Yenə qızın gözlərin bağlar aparar. Gecə çay gətirəndə qız göz-göz elər, çayı içməz. Tökər fərşin altına. Özün vurar yuxuya. Gecənin bir zamanı görər çıraq işığı gəlir, bir dana gözəl oğlan düşüb nökərin dalıyca gəlir.

Yetişəndə deyər, xanım narahat deyil ki?

Nökər deyər:

– Yox.

Deyər:

– Çayı içib?

Deyər:

– Bəli.

Nökər gedər. Cəvan soyunar bunun yanına girsin, qız qalxar deyər:

– Sən kimsən?

Deyər:

– Dinmə, mən sənin sahabınam.

Qız deyər:

– Bə indiyəcə niyə özünü bildirmirsən?

Deyər:

– Bəni-adəm çiy süt əmib. Odu ki, mən özümü nişan vermirdim ki, bəfası olmaz. İndi sirrimi bildin, da özümü gizlətmərəm.

Səhər nökər gələr ağanı oyatsın, deyər:

– Da getməyim olmadı. Ver qızıl gül bağın döşəsinlər, gəlirik.

Durarlar gedərlər qızıl gül bağına. Qız görər elə gözəl bağdı ki, gəl görəsən. Əql heyran qalır. Hər yan doludu baş güllərindən. Yeyərlər, içərlər, durarlar dolanmağa. Qız istər baş güllərindən dərsin, əli yetişməz. Oğlan əlin uzadar. Qız görər qoltuğu altda bir dana lələk var. Pis gələr ki, bəs bu lələk burada nə qayırır. Əlin uzadar ləlgi çəkər. Bir anda görər heç kim yoxdu. Ağa uzanıb ölüb, ah çəkər. Nökər gələr, deyər:

– Qərə paltar gətir.

Paltarları gətirər, oturar hey Quran oxur ağlar. Görər olmadı, deyər məni apar bazarda qul elə sat. Nökər aparar satar. Bir nəfər alar aparar evlərinə. De bir gün, iki gün, qız evə yer elər. Ağa görər xanım qərə geyib. Külftətlərin birindən soruşar ki, xanım niyə qərə geyib? Deyər: “Xanımın bir

oğlu var idi. Middətdi aparıblar, yoxdu. Xəbər çıxmır. Xanım da qərə geyib”.

Qızın fikri xərab idi, gecələr yatanmırdı. Bir gecə görər oğlanın tayası durdu ayağa, fanus götürdü çıxdı həyətə. Qız da onun dalınca dalbadal gedər. Taya neçə həyətdən keçər yetişər bir ayrı həyətə, arasında hovuz var idi. Ayağın çəkər. Suyu boşaldar. Bir təxtə səng var idi. Qavzar pilləkandan düşər gedər zerzəmiyə. Qız da dalıyca gedər. Bir oğlan çəkmişdilər dara. Qabağa yerir deyər:

– Mənlə başını bir elirsən, ya yox?!

Oğlan deyər:

– Yox.

Yenə deyər, oğlan deyər yox. Üç dəfə deyər, əlində şallaq var idi. Çəkər vurar oğlanın ağzı-burnunun qanı bir olar. Bir dövrü pilov gətirmişdi. Onu da yedirdər. İstər qayıtsın, qız ondan qabaq çıxar gələr girər yerinə, yatar.

Səhər taya durar gedər hamama. Qız külfətlərin birinə deyər:

– Gecə bir yuxu görmüşəm. Xanımın bağrı çatlamasaydı deyərdim.

Söz gedər çatar xanımın qulağına. Qızı çağırar deyər:

– Nə yuxunu görmüsən?

Deyər:

– Xanım, mənlə dalbadal gəl, deyim.

Bir-bir həyətlərdən keçərlər, keçdikcə qız deyər:

– Bura bax, gecə buranı gördüm. Bax, o qapını da gördüm, oranı da, buranı da.

Yetişərlər hovuzun qırağına. Qız deyər:

– Yuxunun içinə bax. Bunların hamısın görmüşdüm. Hovzun ayağın çəkərlər, təxtə səngi götürərlər, gətirərlər içəri. Oğlan ayaq səsi eşidə,r deyər:

– Vay həramzadə, gecə gəlməyin bəs dəyil, gündüz də gəlirsən?

Xanım gələr görər öz oğludu, dara çəkiblər. Qız deyər:

– Xanım, bura bax. Elə gecə gördüyüm oğlandı.

Oğlanı açarlar, gətirərlər. Dəh həkim-təbib, yaralarına dava qoyarlar. Oğlan açar başına gələni deyər. Bir anda qapı döyülər. Xanım bilər tayadı, deyər:

– Açmayın.

Elə ki, bir az qapıda qaldı, açarlar. Taya girər kəniz-kələyi qatar yamana ki, niyə gec gəlirsiz qapıya. Dörd saatdı qapı döyürəm. Otağa girəndə gözü sataşar oğlana, rəngi zə-fəran təkin olar. Verər tayanı öldürərlər. Xanım qıza deyər:

– Gəl, səni alım oğluma.

Deyər:

– Qoy mənim iddəm çıxsın sonra.

Bilər ki, buradan dərdinə bir çara olmadı. Ah çəkər. Nökər gələr. Deyər:

– Ağan yatıb?

Deyər:

– Xanım, elə sən görən kimi.

Deyər:

– Məni apar başı üstə.

Yenə bir middət başı üstə Quran oxur ağlar. Görər iş çıxmadı, deyər:

– Apar məni qul elə sat.

Nökər yenə aparar qızı qul yerinə satar. Bir nəfər alar aparar evlərinə. Qız görər ora da yaş kimidir. Soruşar nə

var? Deyərlər ki, çoxdandı xanım uşaq doğub, əjdəhadı. Salıblar zərzəmiyə. Nə örəyindən gəlir öldürə, nə də eşigə çıxarda bilir.

Bir gün qız xanıma deyər:

– Xanım, nə olardı, məni verərdiz əjdahaya, yeyərdi!

Xanım deyər:

– Qız, səfihləmisən. Bu nə sözdü?

Qız o qədər elər ki, xanım razı olar. Qız deyər:

– Məni qoyun dağarcıya, ağzın bağlayın, atın zerzəmiyə.

Qızı soxarlar dağarcıya, atarlar əjdahanın qabağına. Əjdaha deyər:

– Qız, cildindən çıx, səni yeyim.

O deyər, bu deyər, axırda əjdaha cildindən çıxar, olar bir dana gözəl oğlan. Qız da dağarcığından çıxar, oturarlar danışarlar.

Bu yandan xanım deyər ki, durun gedin görün qız necə oldu? Gəlirlər görərlər əjdaha oğlan olub. Xanım sevinər. Qızı, oğlanı gətirərlər evə. Xanım deyər:

– Gəl səni alım oğluma. Səndən yaxşı qız hardan tapacağam?

Qız deyir:

– Qoy mənim iddəm çıxsın sonra.

Görərlər ki, oradan da bir zad olmadı. Ah çəkər. Nökər gələr, deyər:

– Ağan yatıb?

Deyər:

– Necə ki, görmüsən, o cür də yatıb.

Yenə qız gələr baş üstündə Quran oxur ağlar. Görər həray olmadı, nökərə deyər:

– Götür məni qul yerinə sat.

Nökər aparar qul yerinə satar. Bir kişi alar gətirər evlərinə, kəniz-külfət deyər:

– Taza kəniz olan gecə ağayla xanımın otağında yatar, evin qaydasıdı.

Gecənin bir zamanı görər xanım durdu ayağa, getdi şəmşır gətirdi. Ağanın başın kəsdi. Xoşkaladı qoydı taqçaya. Ayaqdan geyindi, başdan qıfıllandı, başdan geyindi, ayaqdan qıfıllandı, çıxdı. Qız da çıxar, görər nökər bir cüt at saxlayıb. Hərəsi birin mindi, getdilər. Qız da dallarıyca gedər. Bir dana qapını döyərlər girərlər. Qız görər ki, qırx həramılar dövrhadövr oturublar. Qırx həramıbaşı deyər:

– Cəpəl həramzada, indiyə kimi haradaydın?

Arvad deyər:

– Mən nə eliyim? Gəlin öldürün, yəxəm qurtarsın.

Keçər saqini dolandırar. Deyərlər, danışarlar. Səhrə yaxın arvad istər qayıtsın, qız ondan qabax gələr yatar. Görər arvad gəldi, soyundu. Bir dana lələk, bir dana hoqqa yağ gətirdi. Yağdan sürtdu kişinin başına, boğazına. Kişi asqırdı, ayıldı.

Kişi deyər:

– Arvad, hardaydın?

Arvad deyər:

– Elə ərsən də! Neçə gündü zöhr azarına düşmüşəm, bilmirsən.

Sabah gecə olar. Qız deyər:

– Mən bu gecə də yatacağam ağayla xanım yatan otaqda.

Yenə dünən gecəki kimi arvad durar kişinin başın kəsər gedər. Qız durar yağdan sürtər, kişi oyanar, görər xanım yox. Qız deyər:

– Dur mənlə gedək, gör nə var. Arvadın oynaşı var.

Kişi acıqlanar ki, bu nə sözdü. Qız deyər:

– Düz deməsəm onda...

Durarlar gedərlər haman qapıya. Kişi görər qırx həramılar dövrhadövr oturublar, arvad da saqi dolandırır. Atları açar qatar bir-birinə. Özü də durar qapı ağzında.

Çıxanı vurar öldürər. Qalar həramıbaşıyla arvadı. Girər içəri. Arvad deyər:

– Budu, bax! Özü gəldi.

Həramıbaşı dik duranda ayağa, şəmşiri vurar kəlləsindən, arvadı da qatar ona, öldürər. Qızla qoyarlar gələrlər evə, deyər:

– Qız, gəl səni mən alım, bu dəstgaha-zada sahab ol.

Qız deyər:

– Yox, mən gərək gedəm.

Hoqqanı, lələgi götürər, ah çəkər. Ah gələr, deyər:

– Ağan yatıb, ya oyanıb?

Ah deyər:

– Elə gördüyün kimidi.

Qız deyər:

– Məni apar.

Ah qızı aparar ağanın başı üstünə, qız hoqqani çıxardar, yağdan sürtər, oğlan asqırar durar ayağa. Ağaclar yenə gül açar. Quşlar başlar oxumağa. Oğlan çəkər qızın alnından öpər. Yeyərlər-içərlər, mətləbinə yetişərlər.

## AC SİÇAN

Bir gün var idi, bir gün yox idi. Bir dana siçan var idi. Bu siçan bir gün gedir bağa, üç dənə alma yeyər. Gələr görər bir gəlin tovlama tovlur. Deyər:

– Ay gəlin, getdim bağa üç dənə alma yedim. Yel əsdi, yarpağı düşdü. Onu da yedim. İndi də səni yeyəcəyəm.

Gəlin deyir:

– Tovlamayla vuraram beynin dağılar.

Siçan tutar onu da yeyər. Gələr görər bir kişi su aparır. Deyər:

– Ay su aparan kişi, getdim bağa üç dənə alma yedim. Yel əsdi, yarpağı düşdü.

Onu da yedim. Tovlama tovlayan gəlini də yedim. İndi də səni yeyəcəyəm.

Deyər:

– Dolçayla vuraram beynin dağılar.

Siçan tutar onu da yeyər. Gedər görər oğlanlar mazi oynurlar. Deyər:

– Ay mazi oynayan oğlanlar, getdim bağa üç dənə alma yedim. Yel əsdi, yarpağı düşdü. Onu da yedim. Tovlama tovlayan gəlini yedim. Su dolduran kişini yedim. İndi də sizi yeyəcəyəm.

Oğlanlar deyərlər:

– Mazilə vurarıq beynin dağılar.

Siçan tutar oğlanları da yeyər. Gələr görər qızlar naqqış tikirlər. Deyər:

– Ay naqqış tikən qızlar, getdim bağa üç dənə alma yedim. Yel əsdi, yarpağı düşdü. Onu da yedim. İndi də sizi yeyəcəyəm.

Qızlar deyər:

– İgnə ilə gözünü çıxardarıq.

Siçan tutar onları da yeyər. Oradan keçər, görər bir qarı gəlir. Deyər:

– Ay qarı, getdim bağa üç dənə alma yedim. Yel əsdi, yarpağı düşdü. Onu da yedim. Tovlama tovlayan gəlini yedim. Su dolduran kişini yedim. Mazı oynayan oğlanları yedim. Naqqış tikən qızları yedim, indi də səni yeyəcəyəm.

Qarı deyər:

– Bala, məni yemə. Səhər yağ doymancı eləmişəm, qoy gedim gətirim, onu ye.

Deyər:

– Olsun.

Qarı gedər evə. Bir dana oğru pişiyi var idi. Qoyar ətəyinə, gətirər. Siçanın yanına yetişəndə ətəyin açar, pişiyi ötürər. Siçan pişiyi görcək tu dabanına qaçar, pişik qaçar, siçan qaçar, pişik qaçar, siçan qaçar. Axırda gedər girər bir bacaya. Pişik bacanın eşiyində durar. Səsin çıxartmaz. Siçan deyər bəs ki, pişik gedib. Elə başın ki çıxartdı, pişik dırnağın salar, başını çəkər eşiyə. Qarnın yırtar. Tovlama tovlayan gəlin çıxar. Su dolduran kişi çıxar. Mazı oynayan oğlanlar çıxar. Naqqış tikən qızlar çıxar. Hamısı gedər qarıya o qədər pul tökərlər ki, qarı dövətli olar. Yeyər, içər, yerinə keçər.

## TOR ATAN YA GÜLÜXƏNDAN

Bir gün var idi, bir gün yox idi. Allahdan qeyrəz heç kəs yox idi. Bir dana tor atan var idi. Bu tor atan hər gün gedər dəryaya tor atardı, balıq tutardı, gedərdi satardı, ömrün keçirdərdi.

Bir gün tor atdı. Toruna bir dana qurbağa gəldi. Qurbağanı atdı dəryaya, genə tor atdı. Bu səfər də qurbağa gəldi. Dedi, da mənim bəxtimə bu gün bu yazılıb. Qurbağanı gətirdi ötürdü həyətə, özü getdi bazara, çörəkdən, zaddan alsın. Qayıtdı gördü, paho!... Ev silinib, süpürülüb, çay dəmlənib, şam da hazırdı. Hər haqda fikir elədi, bir yana çata bilmədi. Axırda başın qoyub yatdı. Səhər tezdən torun götürüb dəryaya getdi. Qayıdanda genə gördü ev silinib, süpürülüb, çay da dəmlənib. Öz-özünə dedi:" Sabah hər yandan olsa gərək bu işi iç eliyəm".

Sabah çay-çörəyini yedi, amma dəryaya getmədi. Pərdənin dalına girib gizləndi. Bir anda gördü qurbağa donundan çıxdı, oldu bir göyçək qız, başladı ev-eşıyı silib süpürməyə. Birdən tor atan pərdənin dalından çıxdı və dedi:

– Ay qız, mən gördüyümü gördüm. Səni and verirəm yaradana, donuna girmə.

Qız donuna girmədi. Tor atan da onu özünə arvad elədi.

Bir gün şah öz vəziri ilə şikara çıxmışdı. Gözü tor atanın arvadına sataşdı. Bir göyüldən min göyüləcən ona aşıq oldu. Vəzirə dedi:

– Vəzir, öldüm, çatladım, mənə əlac.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, o, bir tor atanın arvadıdı. Əri ola-ola ki, onu almaq olmaz. Gərək biz ondan bir çətin şey istəyək, o gətirənməsin, onu öldürək. Sora eliyə bilirsən, arvadın alarsan.

Şah əmr elədi, tor atanı gətirdilər. Dedi:

– Çoban, səndən bir sələ taza dərilmiş üzüm istəyirəm, yarpaqları üstündə, əyə sabahacan gətirə bilməsən, səni öldürəcəyəm.

Tor atan bikef-bedamaq gəldi oturdu. Arvadı dedi:

– Əmoğlucan, niyə bikefsən ?

Tor atan hal –qəziyyəni dedi.

Arvad dedi:

– Heç ürəyini sıxma. Düzələr. Dur get dərya qırağına, denə: "Gülüxəndan bacı, gülləri xəndan bacı, yatmısan, oyan, bacı, oyaxsan, dillən, bacı. Bacın dedi ki, bir sələ taza dərilmiş üzüm versin, yarpaqları üstündə".

Tor atan çar-naçar getdi. Öz-özünə deyirdi: "Bəh, bəh qəribə düzəldi! Dəryada üzüm neyləyər". Aman sora deyirdi: "Bəlkəm oldu. Bu arvad pəridi".

Dərya qırağına yetişdi, arvad deyən sözləri dedi. Birdən dərya təlatümə gəldi, iki şəqqə oldu. Arasından bir cavan qız çıxdı, eyin öz arvadı, əlində biş sələ üzüm, yarpağı üstündə. Tor atan sevincək sələni aldu, qaça-qaça apardı şahın yanına.

Şah baxdı vəzirin üzünə, vəzir baxdı şahın üzünə. Axırda vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, ola bilər ki, bu üzümləri bir təhəriylə bir yerdə saxlayıb, ayrı bir zad istəyək ki, gətirə bilməsin.

Şah tor atanı çağırdı, vəziri deyən kimi dedi:

– Çox yaxşı, üzümlərin xoşuma gəldi. Məlum olan çox zirək adamsan. İndi sənə parça verim. Sabahacan gərək mənim qoşunuma paltar tikib hazırlayasan. Tikənməsən öldürəcəyəm.

Genə tor atan bikef-bedamaq gəldi evə. Öz-özünə deyirdi: “Da bu səfər ölməyim hətmidı”.

Arvad soruşdu:

– Əmoğlucan, genə nə var ?

Tor atan dedi:

– Şah bu dəfə bir qoşun sərbazın paltarını məndən istəyib. Bilmirəm niyə biz ilə düz gəlmir?

Arvad dedi:

– Sənin işin olmasın. Dur get dərya qırağına, suya de:” Gülüxəndan bacı, gülləri xəndan bacı, yatmısan, oyan, bacı, oyaxsan, dillən, bacı. Bacın dedi, tar –qavalı götür gəl”. Sora qayıt gəl.

Tor atan dərya qırağına gəldi. Arvadı dediyi sözləri dedi qayıtdı.

Gecə bacılar tor atana dedilər:

– Sən get başın qoy rahat yat.

Tor atan istər-istəməz yerinə girdi, amma ilan vuran kimi hey qıvrılırdı, açılırdı. Bacılar paltar tikmək əvəzinə səhərəcən biri çaldı, biri oynadı, biri çaldı, biri oynadı. Kişinin hirs boğazın kəsirdi. Öz-özünə deyirdi: “Olsun, siz hələ kefə baxın. Səhərçağı ondadı ki, başımı kəsirlər”.

Sabah yeri sökülməmiş kişi ayağa qalxdı. Bacılar genə öz işlərində idilər. Biri çalırdı, biri oynayırdı. Kişi qaş-qavaxlı aşağı otağa gedirdi. Gördü paltarlar tikilib, ütülənib. Çox sevindi. Arvadı dedi:

– Tez get daşqa tut gətir, paltarları apar.

Kişi paltarları şahın yanına apardı. Görərlər paltarların ilgəklərinəcən tikilib, hazırdı. Şah baxdı vəzirin üzünə, vəzir baxdı şahın üzünə. Şah dedi:

– Vəzir, tədbir!

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, ola bilər ki, bu bir gecədə şəhərin taman dərzilərin yığıb paltarları tikdirib. Ondan bir zad istərik ki, da gətirə bilməz. Deyək, səndən bir uşaq istərik, taza anadan olmuş, göbəyi üstündə, gəlsin biz ilə danışsın.

Tor atan öz-özünə dedi ki, bu qərə o qərələrə bənzəməz. Bu səfər hətmən öldürəcəklər. Tazə doğulmuş uşaq haradan danışar?

Ürəyin yeyə-yeyə evə gəldi. Arvad soruşdu:

– Əmoğlucan, genə niyə bikefsən?

Toratan dedi:

– Bu dəfə sənin əlindən də bir iş gəlməz. Şah bir tazə doğulmuş uşaq istər ki, onla danışsın.

Arvad güldü, dedi:

– Bu elə bir iş deyil. Sabah səhər tezdən get dərya qırağına, denən: “Gülüxəndan bacı, gülləri xəndan bacı, yatmısan, oyan, bacı, oyaxsan, dillən, bacı. Bacın dedi tazə doğulmuş uşağı ver”.

Kişi səhər tezdən getdi dərya qırağına, sözləri dedi. Birdən dəryadan Gülüxəndan bacı çıxdı. Qucağında bir uşaq, göbəyi üstündə. Kişi uşağı aldı gətirdi şahın yanına. Şah uşağı görcək soruşdu:

– Uşaq, denə görüm nə olacaq?

Uşaq dilləndi:

– Heç zad, göydən bir od gələcək təxtin ilə özünü yandıracaq!

Bu söz uşağın ağzından çıxmaq haman göydən bir od gəldi, düşdü şahın başına, təxti ilə özünü yandırdı kül elədi.

Tor atan rahatlaşdı, da ondan sora heç kəs ona qəmiş qoya bilməzdi.

باشقا بیر روایتده اوزوم یئرینه هئیوادیر, اوشاق گتیره‌ندن سونرا دا بیرآت ایسته‌نیلیر. آت گتیریلیر. شاه مینیر آتین بئلینه. قیز دئییر: ای آت گؤتور بونو قاف داغینا. آت شاهی گؤتورور گئدیر. ناغیل بیتیر.

(Başqa bir rəvayətdə üzüm yerinə heyvandır, uşaq gətirəndən sonra da bir at istənilir. At gətirilir. Şah minir atın belinə. Qız deyir: Ey at, götür bunu Qaf dağına. At şahı götürür gedir. Nağıl bitir.)

## SƏNG SƏBİR QOLÇAĞI, SƏN DƏ?

Bir gün var idi, bir gün yox idi. Bir dana kişi var idi, bir də bir arvadı. Bunların bir dana qızları var idi, adı Fatmaxanım. Bu qız hər gün gedərdi çeşmədən su doldurmağa, çeşmədən bir səs gələrdi:

– Fatmaxanım, vay sən, vay mən!

Fatmaxanım saraldı-soldu, bilmədi neyləsin. Axırda nənəsi dedi:

– Ay kişi, beləliklən olmaz. Belə qalsa qız ölər. Gəl burdan köçək gedək ayrı vilayətə.

Hər nəmnə varları idi satdılar-sovdular, yola düşdülər. Bir qədər yol gedəndən sonra yetişdilər bir bağa. Fatmaxanım susuzlamışdı. Dedi:

– Nənə, mənə su.

Nənə o yana baxdı, bu yana baxdı, su tapa bilmədi. Baxanda bağa gördü dovdan bir çeşmə keçir. Qapını itələdi, açılmadı. Dədə itələdi, açılmadı. Fatmaxanım əlin qapıya vuranda qapı açıldı. Nənə dedi:

– Qızım , qaç iş, tez gəl.

Fatmaxanım ayağın bağa qoyan haman qapı bağlandı. Qız qaldı bağda, nənə eşikdə. Na qadar qapıya zor verdilər, aça bilmədilər. Nənə, dədə o yanda ağlayır, qız bu yanda. Axırda dədə dedi:

– Da bizimki buracan idi. Dur qoyaq çıxaq gedək.

Fatmaxanın ağlıya-ağlıya bağı dolanırdı. Birdən gördü bir imarət var. İçəri girəndə gördü cavan bir oğlan yatıb, sinəsində bir lövh, bədəni doludur ignə-sancaq ilə. Qız lövhə baxıb gördü yazıblar: Hər kəs qırx gün bu lövhü oxuya, bu

cavanın bədəninin ignə-sancaq çəkə, qırx birinci gün bu oğlan durar oturar.

Fatmaxanın başladı duanı oxumaya, sancağı çəkməyə, işi-peşəsi bu olmuşdu. Qırx birinci gün idi, da sancaqlar da azalmışdı. Fatma xanım eşitdi ki, küçədə qul satırlar. Başı, canı çirk idi. Öz-özünə dedi, oğlan dursa məni bu halda görsə, məndən acığı gələr. Yaxşısı budu qul alım, işimə əl yetirsin.

Çıxdı dama. Pul verdi, qulu aldı. Bir bədheybət qız idi. Qıza dedi:

– Mən gedirəm baş-canımı yuvam. Sən evi təmizlə, bu saat qayıdıram.

Qərə qul gəldi otağa, lövhü gördü. Elə ki, hal-qəziyyədən hali oldu, tez-tez qalan sancaqları çəkdi. Oğlan asqırdı durdu ayağa, dedi:

– Qurban olum, sən bu qırx günü mənim iynə-sancaqlarımı çəkmisən?

Qərə qul dedi:

– Hən.

Oğlan onu öz otağına gətirdi. Fatma xanım tər-təmiz yuyundu, evə qayıtdı, gördü oğlan ilə qərə qul oturublar, şirin-şirin söhbət edirlər. Bildi nə var, nə yox. Da bir zad deyə bilmədi. Qaldı kəsilə-kəsilə. Neçə gündən sonra oğlan dedi:

– Mən gedirəm şəhərə. Hər nəmənə deyirsiniz, sizə alım.

Qərə qul əzilə-əzilə dedi:

– Mənə bir dənə almas üzük al.

Fatmaxanım da dedi:

– Mənə bir dənə “sən də səbir qolçağı” al.

Oğlan gəldi şəhərə, işlərin yerbəyer elədi. Arvadına almas üzük aldı. Sora getdi qolçağının tükanına. Tükançı dedi:

– Qardaş, qolçağı hər kim səndən istəyib dərdli adamdı, dərdlərin buna deyəcək. Gizlincən sən qulaq as, gör nə deyir. Axırda əyə onu tutsun, qolçaq çatlar, əyə tutmasan, özü çatlar.

Oğlan Fatmaxanımın qolçağın gətirdi verdi, getdi pərdənin dalında gizləndi.

Fatmaxanım qolçağı qoydu qabağına, dedi:

– Bir gün var idi, bir gün yox idi. Bir dana Fatmaxanım var idi. Dədənin, nənənin bir danası idi. Sən də səbir qolçağı, mən də səbir qolçağı!... Bu qız hər vax çeşməyə gedərdi, ordan bir səs gələrdi ki, Fatmaxanım, vay sənə, vay mənə. Sən də səbir qolçağı, mən də səbir qolcağı! .... Nənə-dədəsi dedilər ki, belə olmaz. Gərək gedək ayrı vilayətə. Bunlar düşdülər yola. Bir qədər yol getmişdilər, yetişdilər bir bağa. Sən də səbir qolçağı, mən də səbir qolçağı!... Qapı bağlı idi. Dədə əlin vurdu, açılmadı. Nənə əlin vurdu, açılmadı. Fatmaxanım əlin vuranda açıldı. Sən də səbir qolçağı, mən də səbir qolçağı!... Fatmaxanım girdi bağa. Girəndə qapı bağlandı, hər nəqqada eylədilər, açılmadı. Sən də səbir qolçağı, mən də səbir qolçağı!.. Fatmaxanım gəldi bağa, dolandı gordü bir imarət var. İmarətin içində bir oğlan yatıb, bədəni dolu ignə-sancaq ilə. Sinəsində bir lövh. Sən də səbir qolçağı, mən də səbir qolçağı!... Bu qız başladı ignə-sancaqları çəkməyə. Qırxıncı gün gördü bir qul satırlar. Onu aldı. Sən də səbir qolçağı, mən də səbir qolçağı!... Getdi baş canın yusun, gəldi gördü qərə qul axırmıncı ignəni çəkib oğlanın arvadı olub. İndi ya sən çatla, ya mən!... Bunu deyəndə, oğlan girdi otağa. Fatmaxanımı qucaqladı. Qolçaq çatladı.

Qərə qulu eşiyə öturdülər, özləri bağda başladılar kefə.

Yedilər, içdilər kamlarına yetişdilər.

## PIS-PISLI PÜSTƏ XANIM

Bir gün var idi, bir gün yox idi. Bir dana pıs-pıslı var idi. Bir gün bu gedər oturar dərbənd başında, başına bir dana isbanaq yarpağı örtər. Bir dana beldar gələr deyər:

– Pıs-pıslı Püstə xanım, burda niyə oturmusan?

Deyər:

– Ərə gedəcəyəm.

Deyər:

– Mənə gələrsən?

Deyər:

– Vuranda nə ilə vurarsan?

Deyər:

– Bu belilən.

Deyər:

– Yeri, yeri, zır atabaatavun goruna.

Bir az keçər. Görər o yandan bir dənə siçan gəlir. Deyər:

– Pıs-pıslı Püstə xanım, burda niyə oturmusan?

Deyər:

– Ərə gedəcəyəm.

Deyər:

– Mənə gələrsən?

Deyər:

– Vuranda nə ilə vurarsan?

Deyər:

– Apararam quyruğumu batıraram xan evinin sürmədanına, gətirərəm çəkərəm gözlərinə.

Deyər:

– Gələrəm.

Siçan bəy ilən betər mehriban idilər. Bir gün pıs-pıslı xanım deyər:

– Aparım siçan bəyin paltarların yuyum.

Gedər su çolasının yanında paltar yumağa. Ayağı zuyuldər düşər suya. Görər o yandan xan evinin atlıları gəlir. Deyər:

Atlılar ha , atlılar
Tabbır-tubbur atlılar,
Sürmə qərə butdular,
Xan evinə gedərsiz,
Siçan bəyə deyərsiz,
Pıs-pıslı Püstə xanım,
Saçları dəstə xanım,
Düşübdü çarhovuza
Olubdu xəstə xanım.

Atlılar saymazlar, gedərlər xan evinə. Nahar başında deyərlər ki, bə yolda gəlirdik, belə bir səs eşitdik. Siçan bəy eşitcək durar gələr su çolasına, görər pıs-pıslı xanım ordadı. Deyər:

– Pıs-pıslı xanım, əlin ver mənə çəkayı!...

Deyər:

– Yeri, yeri mən səndən küsayi!..

Deyər:

– Qızıl nərdivan gətirsəm çıxarsan?

Deyər:

– Yeri, yeri mən səndən küsayi!..

Deyər:

– Gümüş nərdivan gətirsəm çıxarsan?

Deyər:

– Yeri, yeri mən səndən küsayi!..

Siçan bəy hirslənər, götürər birdən eşşək təzəyin, vurar təpəsinə, deyər: “Qal köpəyin qızı, öl”.

## LƏVLƏYİN AĞA

Bir dana Ləvləyin ağa var idi. Bu gedirdi oğurluğa, bir dana it görər. İt deyər:

– Ləvləyin, hara gedirsən?

Deyər:

– Adam ədəb ilə danışar: ağa Ləvləyin.

İt deyər:

– Ağa Ləvləyin, hara gedirsən?

Deyər:

– Gedirəm oğurluğa.

Deyər:

– Məni də apar.

Deyər:

– Gəl gir gö......

Bir dənə qurd gələr.

Deyər:

– Ləvləyin, hara gedirsən?

Deyər:

– Adam ədəb ilə danışar: ağa Ləvləyin.

Deyər:

– Ağa Ləvləyin hara gedirsən?

Deyər:

– Gedirəm oğurluğa.

Deyər:

– Məni də apar.

Deyər:

– Gəl gir gö.....

Beləliklə, bir dana çuvaldız, bir dana yumurta, bir dana qarqa gələrlər girərlər Ləvləyinə. Bunlar gedərlər bir yerə

oğurluğa. Ləvləyin ağa çuvaldızı taxar kirbit qutusuna. Yumurtanı qoyallar mənqəldə oda. Qurdu qoyar küçə qapısında, iti qoyar ev qapısında, qarqanı da qoyar həyətdə ağacda. Özü də başlar evi yığışdırmağa.

Arvad ayılar deyər:

– Kişi, kişi! Evdə oğru var.

Deyər:

– Hanı?

Deyər:

– Dur bir çırağı yandır!...

Götürər kirbiti cırağı yandırsın, çuvaldız batar əlinə. Deyər: – Və, və!..

Qaçar mənqəldən od götürsün, yumurta pitlar gözünə. Qaçar ev qapısına it yüyürər üsdünə. Çıxar həyətə deyər:

– Allah, bə mən neyləyim?Qarqa sı..... ağzına.

Bunlar evi yığışdırarlar aradan çıxarlar.

## QARI İLƏ QOCA MƏZAQ ELİR

Bir gün bir qarıynan bir qoca oturmuşdular evdə. Bir dana qarqa gələr deyər:

– Qar, qar!... Qarı ilən qoca, mənə də yer verin.

Deyərlər:

– Bir qarıyıq, bir qoca, evimiz hoqquluca. Sən də gəl otur pərdənin bir mıxında.

Qarqa gələr oturar pərdənin bir mıxıında.

Bir az keçər sərçə gələr. Deyər:

– Qarı ilən qoca, mənə də yer verin.

Deyər:

– Bir qarıyıq, bir qoca, evimiz hoqquluca. Sən də gəl otur pərdənin bir mıxında.

Vurar bir azdan sora qarı ilən qoca başlar mırt vurmağa.

Qarqa deyər:

– Qar-qar, qarı ilən qoca məzaq elir.

Sərçə də deyər:

– Cük-cük, qarı ilən qoca məzaq elir.

Bunlar hərəsi bir ağac götürər, ikisin də döyə-döyə salarlar eşigə.

# EY VAY HAY

Bir gün var idi, bir gün yox idi. Bir dana keçəl var ıdı. Özü də araqçını keçəl idi. Qatmaq qulağının dibinəcən tutmuşdu. Bu oğlan gündə naxırçılıqdan qayıdanda şahın qızın görərdi ki, küləfirəngidə durub, oğlan bir göyüldən min göyülə qıza aşıq olmuşdu. Axırda gələr nənəsinə deyər ki, gərək şahın qızın alasız mənə. Nənə deyər ki, oğlan, biz bir dənə naxırçı babanın biriyik, o, şah qızı. Hardan onu sənə verərlər?

Oğlan əl çəkməz. Axırda arvad ərinə deyər:

– Olsun, şah ədalətdidi.Get elçi daşında otur. Sənə bir cəvab verər, gələsən deyəsən, oğlan əl çəkər gedər işinə. Kişi çar-naçar gələr oturar elçi daşının üstündə.

Şah deyər:

– Gedin görün kimdi.

Elə ki, kişini şahın yanına gətirərlər, şah deyər:

– Hən əmi, sözün?

Deyər:

– Qibleyi-aləm sağ olsun, mənim oğlum sənin qızına aşiq olub. Gəlmişəm onun elçiliyinə. Şah baxar vəzirinə, özünə, vəzir baxar şahın üzünə. Axırda şah deyər:

– Mənim qızımın başlığı ağırdı. Hər kim istəsə onu alsın, gərək "əciban-qəriban" oyunu örgəşə.

Kişi kor peşman qayıdar. Ürəkdə sevinirdi ki, yaxşı oldu, oğlan ayıbına kor olar oturar.

Gələr hal-qəziyyəni oğluna deyər. Oğlan iki ayağın dirər bir başmağa ki, gərək məni qoyasan "əciban-qərıban" örgəşim.

Neçə gün dədə oğlanı başda səriyər. Axırda olmaz.

Bir gün nənə aş pişirmişdi, dədə deyər:

– Naharı yeyək, gedək əciban-qəriban oyuna örgəşək.

Nənə deyər:

– Apararsan dolandırarsan, görər belə zad yoxdu, gələr durar.

Nahardan sonra dədə ilə oğul düşərlər yola. O yana əciban-qəribançı, bu yana əciban-qəribançı tapa bilməzlər. Axırda görərlər bir çeşmə var. Deyərlər:

– Gedək bir oturaq yorğunluğumuzu çıxardaq.

Dədə elə yorulmuşdu ki, da nə bilim. Elə ki, oturar yerə, dərindən ah çəkər. Deyər:

– Ey vay hay!..

Sudan bir dənə bala kişi şabbıldaya-şabbıldaya çıxar eşiyə, deyər:

– Hən, sözün?

Kişi:

– Sən ilə deyiləm. Səhərdən dolanırıq bir nəfər tapaq, mənim bu oğluma "əciban-qəriban "oyunu örgətsin. Şahın qızına aşıq olub, onun da başlığı "əciban-qəriban "oyunudur. Yorulmuşdum, dedim:

– Ey vay hay...

Bala kişi deyər:

– Elə, Ey vay hay mənəm. Bu şəhərdə məndən savay ayrı adam "əciban-qəriban" oyunu bilməz.

Kişi deyər:

– Bə indi ki, belə oldu, mənim oğlumu özünə şagird elə.

Ey vay hay deyər:

– Eybi yoxdu.

Yapışar oğlunun əlindən düşər yola, suyun içindən şabbıldaya-şabbıldaya gedər.

Kişi öz-özünə deyər:

– Ey dili-qafil, bu nə iş idi gördün! Oğlanı niyə o kişiyə verdin?

Axırda bir çara tapanmaz, durar gedər evə.

Ey vay hay İbrahimi aparar evə. Evdə bir qızı var idi. Bir göyüldən min göyüləcən İbrahimə aşiq olar. Olar deyər:

– Oğlan, bura gələn da çıxmaz, əyə qol verirsən məni alasan, sənə bir söz öyrədim.

İbrahim and içər kim, əvvəl səni alaram, sonra şahın qızın.

Qız deyər:

– Mənim dədəm hər vax səndən soruşsa nəmənə örgəşmisən? Denən, bir çörək sulamağı, bir ev süpürməyi.

Oğlan neçə müddət orada qalar. Bala-bala Ey vay haydan bəzi şeylər örgəşirdi.

Amma hər vax Ey vay hay soruşurdu: – "oğlan, nəmnə başarirsan?" – deyirdi:

– Bir çörək sulamaq, bir də ev süpürmək.

Bir gün genə İbrahimin nənəsi aş pişirmişdi. Birdən oğlu yadına düşər. Gözləri dolar. Deyər, kişi, dur get oğlanı gətir bir görək.

Kişi durar gələr çeşmənin qırağına, deyər:

– Ey vay hay!..

O saat Ey vay hay zahir olar, deyər:

– Sözün?!

Kişi deyər:

– Oğlanı nənəsinin göylü istiyir. Ver üç, dörd gecə qonaq qalsın, qayıtsın.

Deyər:

– Eybi yoxdu.

İbrahimi gətirər verər.

Yolda İbrahim istər özün imtahan eləsin. Deyər:

– Dədə, sən qabaqda getginən, burda su başına çıxım gəlim.

Özünü eylər bir dana xoruz, dədənin qabağında cik-cik cikgildər. Kişinin gözü xoruza sataşar. Deyər:

– Yaxşı oldu. İndi bu xoruzu tutaram.

Əlin uzadar tutsun, xoruz buna bir dimdik. Kişi əl-ayağın itirər. İbrahim adam cildinə düşər deyər:

– Nə var, dədə?

Deyər:

– Heç zad, bir xoruz var idi. İstədim tutam, bir bərk dimdik vurdu, özü də nəmənə oldu.

İbrahim deyər:

– Kişi, burda xoruz nə qayırır.

Bir azdan sonra özün eylər bir dana qoç, kişinin qabağında oynar. Kişi genə əlin uzadar tutsun ki, yaxşı oldu. Qoç buna bir kəllə, kişi qəşş elər. İbrahim genə adam olar. Deyər:

– Dədə, nə var? Genə nə oldu?

Deyər:

– Bir qoç var idi, istədim tutam, bir kəllə vurdu yıxıldım.

Bir azdan sonra özün eylər bir dana at, dədəsinin qabağında oynaqlar. Dədə istər onu tutsun, bir təpik vurar, dədə yıxılar. Genə özün adam surətinə salar. Deyər:

– Genə nə var, dədə?

Dədə deyər:

– Bir at var idi. İstədim yapışam cilovundan, bir təpik vurdu yıxıldım.

İbrahim deyər:

– Elədi. At odur bax, qaçır.

Neçə gün İbrahim evlərində qalar. Bir gün dədəsinə deyər:

– Dədə, mən bir dana xoruz oluram. Apar məni bazarda sat, amma ayağımın bəndin satma.

Dədə aparar xoruzu satar. Bəndin satmaz. Gələr görər İbrahim evdədir. Sabahısı gün deyər:

– Dədə, mən bir dənə at olacağam. Apar məni sat, amma cilovumu satma.

Dədə aparar satar. Gələr evə, görər İbrahim oturub evdə. Üçüncü gün İbrahim deyər:

– Dədə, mən bir dənə qoç olacağam, məni apar sat, amma zəncirimi hər neçəyə istəsələr satma.

Ey vay hay durbin ilə baxırdı.Görər İbrahim qoç olub, dədəsi bazarda satır.Tez özün yetirər bazara. Deyər :

– Qardaş, bu qoç neçəyədi?

Deyər:

– Yüz tümən.

Deyər:

– Ala.

Dədə istər zəncirin açsın, Ey vay hay deyər:

– Qardaş, mən zəncirsiz qoçu necə aparım?

Dədə deyər:

– Zəncirin satmıram.

Ey vay hay çıxardar yüz tümən də, deyər bu da zəncirin pulu.

O, bu yığışar deyər:

– Qərdəş, da bir dənə zəncir nəmnədi ki, yüz tümənə vermirsən?

Kişi çar-naçar zənciri də verər, gələr evə, görər İbrahim gəlməyib.

Ey vay hay qoçu aparar evə tərəf. Yolda deyər:

– Hən, bir çörək sulamaq başarırsan, bir ev süpürmək? İndi səninkin sənə verərəm.

Qız baxırdı, görər dədəsi İbrahimi gətirər. Öz-özünə deyər, indi pıçaq istəyəcək. Durar pıçaqların hamısının gizlədir. Elə bir saman tüstüsü salar ki, göz gözü görməsin. Dədə gələr deyər:

– Qiz , pıçağı gətir bu qoçu kəsim.

Qız deyər:

– Dədə, ev tüstüdür, tapanmıram.

Deyər:

– Gəl bu qoçun zəncirindən, saxla, özüm tapım.

Qız gələr yapışar zəncirdən əyilər qulağına deyər:

– Hən, nə deyirsən?

Deyər:

– And olsun Allaha, səni alaram.

Qız zənciri ötürər, qışqırar ki, dədə, gəl, qoç qaçdı.

Ey vay hay düşər bunun dalsınca, İbrahim olar bir dana sərçə. Ey vay hay olar bir dana qırqı qovulağın götürər. Sərçə gələr girər şahın otağına. Qırqı da dalısınca. Az qalar tuta, sərçə olar bir dəstə gül düşər şahın qucağına. Qırqı da olar bir dana dərviş, kəsər qapını ki, mənim gülümü verin. Padşah pul verər ki, al, əl çək.

Dərviş deyər:

– Mən gülümü istəyirəm.

Padşah deyər:

– Baba, al şərrini sov!

Gül olar bir ovuc darı, səpilər yerə. Dərviş olar bir dana cücəli toyuq, başlar darını dənləməyə. Bir dana qalanda oğlan olar sərçə, girər şahın otağına. Genə toyuq olar qırqı, düşər onun dalıca. Bir az qalar qırqı sərçəni tuta, olar bir dəstə gül, düşər şahın qucağına.

Qırqı da olar dərviş, kəsər qapını, birdən şahın dilindən çıxar ki, vəzir, bu elə əciban-qəriban oyunudur. Bu sözü demək haman gül olar İbrahim, deyər:

– Qurban, əhdinə bəfa elə. Mən getmişəm əciban-qəriban oyunu örgəşmişəm. İndi qızını ver.

Şah deyər:

– Eybı yoxdur.

İbrahim deyər:

– Bu dərvişə denə məndən əl çəksin.

Dərviş deyər:

– Da işim yoxdu. Amma çərşənbə gecəsi gərək mənə qonaq olasan.

İbrahim qəbul elər. Çərşənbə gecəsi gedər Ey vay hayın evinə. Qız onu aparar bir yerə, görər bütün adamlar şüş qızıl olublar. Qız deyər:

– Bunların hamısın dədəm qızıl eləyib. Səni də gecə aparacaq köhnə qəbiristana. Atı verəcək sənə ki, saxla. Özü girəcək bir köhnə qəbrə. Bir azdan sonra bir ölü çıxar eşiyə. Sən gərək o çıxmamışdan qabaq özünü bir yerdə gizlədəsən. Gizlədənməsən odlu gürzü ilə vurar sənə, olarsan qızıl. Gizlənəsən, girər tazadan qəbrə, gürzünü vurar dədəmə, özü, həm o qızıl olar. Sonra cıx onları qoy pərdə kilimə, gətir evə.

Gecə yarısı Ey vay hay deyər:

– İbrahim, mənim bir işim var. Dur min ata gedək, tez qayıdaq.

İbrahim deyər:

– Eybi yoxdu.

Durarlar pərdə-kilim götürərlər, düşərlər yola. Köhnə qəbirstanda Ey vay hay deyər:

– Sən bu atı saxla, mən bura baxım gəlim.

İbrahim atın cilovun bağlar bir yerə, tez girər bir köhnə qəbirə, üstün tutar. Bir azdan sonra görər bir dana ölü çıxdı gözləri od kimi. Əlində bir odlu gürzü. O yana baxdı, bu yana baxdı. Bir adam görmədi, qayıtdı qəbrə. Bir səs gəldi. Qəbirdən yaşıl alov çıxdı. Bir azdan sonra İbrahim çıxar eşiyə, gedər qəbirə, görər Ey vay hay da, ölü də şüş qızıl olublar. Onları götürər qoyar pərdə-kilimə, gətirər evə.

Qız qapı qabağında gözləyirdi ki, dədə gələcək, ya İbrahim. Elə ki, İbrahimi görər, coxlu sevinər. İbrahim qızı alar, sonra şahın qızın. Qızları gətirər öz evinə.

Yeyər, içər, mətləbinə yetişər.

# GÜL SİNAVƏRƏ NƏ ELƏDİ, SİNAVƏR GÜLƏ NƏ ELƏDİ?

Bir gün var idi, bir gün yox idi. Bir dana Hatəm var idi. Bu Hatəm elə səxi, əlacıq idi ki, uşaqlıqda süt yeyəndə ağzın əmcəkdən çəkərdi, verərdi ayrı uşaqlara. Bunun bir imarəti var idi, qırx qapısı, hamı gələrdi xörək yeyərdi, cıxanda bir dövri qızıl verərdilər gedərdi.

Bir gün bir dərviş gələr bir qapıdan girər, cıxanda bir dövri qızıl alar. Ücüncü qapıdan keçəndə deyərlər:

– Pəh! Oğlan, nə tamahkarmışsan? İki qapıdan girdin yedin, qızıl aldın, bəsdi da, cıx get!...

Dərviş qızılları atar yerə, deyər:

– Vah, vah! Hatəm, elə bu? Bizim şəhərdə bir padşah qızı var, qırx qapısı var. Bir gündə qırx qapısından da girsən yesən , çıxanda qızıl verərlər. Bir nəfər də deməz ki, hardan gəlirsən, hara gedirsən?

Hatəm bir barmağın dişlər deyər: “Gərək gedəm bu qızı alam”.

Gələr şəhərə, gedər qızın imarətinə, görər, bəh, bir imarətdir özününkündən yüz mərtəbə yaxşı. Qırx qapıdan girər yeyər, içər, çıxanda bir dövri qızıl alar. Hec kəs də bir söz deməz. Axırda gələr qızın yanına, deyər, bə gərək gələsən mənə.

Qız deyər:

– Mənim başlığım ağırdı, gətirə bilməssən.

Deyər:

– Hər nəmənə olsa gətirərəm.

Deyər:

– Filan şəhərdə bir nəfər əzançı var, axşamcağı güləgülə çıxar dama, şövq-zövq ilə əzan verər. Qurtarandan sonra başına vurar, canına döyər, yıxılar huşdan gedər. Onun sirrindən məni hali elə, mən də öz sirrimi sənə deyim. Hatəm gedər əzancının şəhərinə. Axşamüstü görər, bəli, bir nəfər kişi cıxdı dama, gülə-gülə başladı əzana, qurtaranda başına döydü, canina döydü, yıxıldı yerə. Elə ki, özünə gəldi, Hatəm gedər yanına deyər ki, bu gecə sənə qonağam.

Əzancı deyər:

– Eybi yoxdu.

Şam başında Hatəm çəkilər kənara deyər:

– Öz sirrindən məni hali eləməsən yemərəm.

Əzancı deyər:

– Qərdəş, şamını ye. Mən sirrimi hec kəsə demərəm. Filan şəhərdə bir dana yolçu var. Hər naqqada pul verərsən, deyər, "insafın olsun", (bəza da "insaf nigahdar"deyilər) onun sirrin mənə gətirsən mən də öz sirrimi sənə bildirərəm.

Hatəm səhərçağı düşər yola. Gedər-gedər, az gedər, çox gedər, yetişər bir şəhərə

Görər bir kor yolçu oturub. Bir qızıl qoyar oğucuna. Deyər:

– İnsafın olsun.

Bir dana da qızıl verır. Genə deyər:

– İnsafın olsun.

Hatəm hər naqqada buna pul verər, deyər, insafın olsun. Axırda Hatəm deyər:

– Qərdəş, öz sirrini mənə de görüm, yani necə insafın olsun.

Yolçu deyər:

– Mən öz sirrimi hec kəsə deməräm, əyə istəsən biləsən, gərək mənə deyəsən Gül Sinavərə nə elədi, Sinavər Gülə nə elədi. Aman onu da bil ha, o, indiyəcən öz sirrini heç kəsə deməyib. Hər kimə də desə,onu öldürər.

Hatəm ginə sübhçağı durar düşər yola, gələr cöl-bərribiyabanda görər hay-küy gəlir.Yaxınlaşanda görər üç dana dev bir-birilə savaşırlar. Elə ki Hatəmi görəllər deyəllər:

– Dinməyin, bəni-adəm gəldi, o bizim malımızı bölər.

Hatəm deyər:

– Nə var, nə olubdur?

Devlər deyərlər:

– Bizim dədəmizdən bir az mal qalıb, gəl onu böl. Bir dana Həzrət Süleyman xalısıdır ki, hər yerə desən aparar. Bir üzükdü, hər kim barmağına taxsa qeyb olar, o hamını görər, heç kəs onu görməz. Bir də bir süfrədir ki, hər vax açsan cürbəcür cörəklər düzülər. Əyə dədəmizin malın yaxşı bölsən çig-çig yeyəciyik, bölənməsən kəbab çəkib yeyəciyik.

Hatəm deyər:

– Şeyləri qoyun yerə. Mən üc dana ox atacağam. Hər kim əvvəl gətirsə, xalçanı verəcəyəm ona. Ondan sonra gətirənə üzügü verəcəyəm, axırdakına da süfrəni.

Devlər deyərlər:

– Gördüz, bəni-adəm başarar bölməyin?

Hatəm üc ox çıxardar, naqqada gücü var idi atar. Devlər hücum apararlar oxların üstünə. Hatəm tez üzügü taxar barmağına, süfrəni götürər, minər xalçaya deyər:

– Həzrət Süleyman eşqinə, məni qoy Sinavərin qapısına.

O dəqqiqə yetişər bir şəhərə. Görər bir böyük qapıdı. Qapıyı döyər deyər:

– Mən Allah qonağıyam. Gecəni mənə bir yer verin.

Deyərlər:

– Eybi yoxdur.

Hatəm görər otaqda bir dana qəfəs var, içində bir qatır, o yanda bir dana it durub, şam başında kişi tökdü itin qabağına. Qatır yemədi. Kişi getdi bir dana quru kəllə gətirdi. Qatırın gözünün qabağında bir-iki ağac gəldi kəlləyə. Qatır başladı yeməyə. Onda bu yol kişi Hatəmə dedi:

– Qonaq,bismillah.

Hatəm dedi:

– Gərək məni bu sirridən agah eliyəsən. Niyə qatır yemədi, kəlləni döydün yedi?

Kişi dedi:

– Pə indiyəçən heç kim mənim sirrimi eşigə çıxarda bilməyib, hər kimə desəm öldürərəm. İstirsən canın salamat qala başını sal, çörəyini ye. Neçə gün də qalırsan, qal, çıx get işinə-dərdinə.

Hatəm deyər:

– Deməsən, yemərəm.

Kişi yapışar Hatəmin əlindən, aparar bir qəbristana, deyər:

– Görürsən? Bunların hamısına demişəm, sora öldürmüşəm.

Hatəm deyər:

– Nə olar, mən onlardan qərə qaş, qərə göz deyiləm ki, de, məni də öldür.

Kişi deyər:

– Bəs gəl şamını ye, deyim.

Şamdan sora kişi deyər:

Bəs qulaq as. Mənim adım Sinavərdi. Bir dana əmqızım var idi, adı Gül idi. Bunu aldılar mənə.Gecənin bir vaxtı görərdim Gül girir yerimə, bədəni bumbuz, deyərdim: "Ay əmqızı, niyə belə?" Deyərdi: "Əmoğlu, təbabət eləmirsən, hey gedirəm eşigə".

Bir gün getdim atımı minəm, gördüm at bulum-bulum bulanır. Dedim, ay mehtər, bunu minmirəm. Niyə gərək belə arıqlıya?

Mehtər dedi:

– Ay ağa, hər gecə gəlirsən at istirsən, bəs nəmənədi?

Mən gördüm. Paho, elə bir burda bir iş var. Dedim: "Bu gecə gəlib istəsəm vermə".

O gecə özümü vurdum yuxuya, gecənin bir zamanı gördüm əmqızım durdu ayağa mənim paltarımı geydi, şəmşirimi çəkdi, dedi:" Vurram! Oyaqsan vurum boynun getsin". Mən himimi çəkdim, dinmədim.Əmqızım çıxdı eşigə, getdi tövləyə. Mehtərə dedi, atı çək eşigə. Mehtər dedi:

– Axı, səhər özün dedin vermə.

Olmadı. Çəkiş-bərkiş, axırda atı mindi getdi. Mən də bir ayrı at mindim, düşdüm daliyca. O getdi, mən getdim, o getdi, mən getdim. Axırda yetişdi bir məğarəyə. Girdi içəri. Mən də daliyca. Gördüm qırx hərami oturub. Qırx həramibaşı əmqızımı görcək çığırdı:

– Çəpəl həramzada, bə hardaydın?

Əmqızım dedi:

– Köpək mehtərə örgətmişdi atı verməsin, yubandım.

Qırx həramibaşı dedi:

– Axı deyirəm qoy öldürüm, qoymursan. Sabah öldürrəm.

Başladılar bu yol şərab içməyə. Gördüm bunlarla bacaranmayacağam. Şərablarına bir az behişdarı vurdum, hamısı

huşa getdi. Qırxının da başın kəsdim, qırx həramibaşının başın saldım torbaya. Əmqızımı da qoydum atın üstünə gəldim. Səhərçağı əmqızı ayıldı, dedim:

– Əmqızı, bir dana yuxu görmüşəm. Yuxuda gördüm ki, gecənin bir zamanı sən ayıldın durdun ayağa. Mənim paltarlarımı geydin. Qılıncımı çəkdin dedin: "Ayıqsan, vurram!" Mən səs verмədim. Sən getdin mehtərdən at istədin. Mehtər dedi ki, özün demisən verмə. Sən axırda zor elədin, atı aldın getdin. Mən də dalınca. Gördüm qırx hərami oturub. Qırx həramibaşı sənə dedi: "Çəpəl həramzada, bəs hardaydın?" Sən dedin: "Köpək tapşırmışdı mehtər atı verməsin, yubandım". Qırx həramibaşı dedi: "Axı, deyirəm qoy onu öldürüm, qoymursan. Sabah başın kəsərəm". Mən onların şərabına behuşdarı qatdım. Hamısı içdi yıxıldı. Mən bir-bir onların başını kəsdim. Qırx həramibaşının başın da qoydum torbaya gətirdim, səni də gətirdim.

Əmqızım dedi:

– Bu yuxu dəyil. Aşkardı. Hanı başı?

Mən torbanın başın açdım. Baş yerə düşdü, əmqızım bir ovsun oxudu, mənim üzümə püflədi, dedi:

– Get, eşşəgin biri eşşək!

Mən oldum bir dana eşşək. Vurdular saldılar eşigə. Bir nəfər məni tutdu apardı evinə.Gündə mənə kol çatardı. Daş çatardı. Da, belim şırım-şəhrə olmuşdu. Yonca, saman , arpa qabağıma tökürdülər, yemirdim. Çörək verirdilər, yeyirdim. Ev sahabı arvadına deyirdi: "Arvad, bu eşşək lap adama oxşur".

Bir gün həyətdə oturmuşdum, bədənim işdən sızım-sızım sızıldardı. İki dana quş gəldi oturdu ağacda. Biri dedi:

– Bacı!

O biri dedi:

– Can bacı!

Dedi:

– Bilirsən bu kimdi?

Dedi:

– Yox.

– Bu Sinavərdi. Əmqızısı ovsun oxuyub olub eşşək. İndi bu ev sahabı ayıq olaydı, bizim sözümüzü eşidəydi. Biz uçanda ayağımız altdan iki dana yarpaq düşər. Yarpaqları döyüb suya töksələr, sora qaynadıb eşşəgin başına töksələr, dönüb adam olar.

Demə, bəs ev sahabı ayıqmış.Yarpaqları götürdü, həvəngdə döydü. Suya tökdü.Suyu qaynadıb mənim başıma tökdü. Mən genə oldum adam. Gəldim evimizə. Elə qapıdan girmək haman əmqızım bir ovsun oxudu, püflədi üstümə, dedi: "Get itin biri!"

Mən oldum bir dana it. Vurdular saldılar eşigə. Getdim bir qəssab tükanına. Sümük atdılar yemədim. Ət atdılar yemədim. Özləri kəbab yeyirdilər. Başımlan göstərdim. Bir az verdilər, aldım əlimə qoydum ağzıma. Biri birinə dedi:

– Bura bax, heç itə oxşamır. Adam kimi çörək yeyir.

Neçə gün mən orada qaldım. Ginə bir gün o iki quş gəldi oturdu ağacda. Biri birinə dedi:

– Bacı!

O biri dedi:

– Can bacı!

Dedi:

– Bunu tanıyırsan?

Dedi:

– Yox, tanımıram.

Dedi:

– Bu haman Sinavərdi da ki, əmqızısı eşşək eləmışdi. Biz dava dedik, oldu adam, genə əmqızısı eləyib it. Bu qəssab ayıq olaydı, bizim sözləri eşidəydi, bu duvanı deyəydi, bunu basaydı xəzənəyə,bu olardı adam. Sora özü də bu duvanı oxyaydı. Gülü görəndə püfləyəydi onun üzünə. Da onun osunu kar kəsməz.

Qəzadan qəssab ayıq idi. Məni hamama apardı, duvanı dedi, məni basdı xəzənəyə. Mən tazadan oldum adam, quşlar örgədən duvanı tez-tez oxudum ki, yadımdan çıxmasın. Oxuya-oxuya gəldim evə. Elə ki, gözüm Gülə sataşdı, duvanı üstünə püflədim, dedim:

– Get, qatırın biri qatır!

Əmqızı oldu bir dana qatır. Tutdum bağladım evdə. İndi o zamandan mən itimə çörək tökərəm, o yeyər doyar, artığın tökərəm qatıra.Yeməz, gətirərəm qırx həramibaşının kəlləsin qabağında döyərəm, başlar yeyər. Bu mənim sirrim. İndi ki bildin, dur aparım öldürüm.

Hatəm dedi:

– Eybi yoxdu. Qoy mən iki rikət namaz qılım, öldür.

Durar xalçanı açar. Oturar üstündə.Üzüyü taxar barmağına, deyər:

– Həzrəti Süleyman eşqinə məni qoy “insafın olsun” deyən korun qapısına.

Sinavar da o yana baxar, bu yana baxar, görər Hatəmdən əsər yoxdu.

Elə ki, Hatəm yetişər korun qapısına, döyər girər içəri. Kor deyər:

– Hən gəldin?

Hatəm deyər:

– Gəldim.

Başlar bu yol hai-qəziyyəni deyər. Kor deyər:

– İndi ki, belə oldu, bəs qulaq as: günlərin bir günündə biz iki yoldaş idik, qərdəşdən artıq. Xalqın qoyunun dağda otarırdıq, ömrümüzü aşırırdıq. Bir gün süt sağmışdıq kasaya, qoymuşduq soyusun. Qaşığı da qoymuşduq kasanın üstünə. Qərdəşim yatdı, dedi: "Süt soyuyanda məni oyat, durum içək".

Bir azdan soora gördüm bunun burnundan bir bala milçək kimi bir zad çıxdı gəldi qaşığın üstündən yeridi, keçdi getdi bir daş kələginin dibinə. Bir azdan sora mən qərdəşimi oyatdım ki, dur ayağa, süt soyuyub. Gördüm milçək kimi tələsik gəldi, qaşığın üstündən keçdi, getdi girdi qərdəşimin burnuna. Qərdəşim oyandı dedi:

– Qərdəş, niyə məni oyatdın? Bir yaxşı yuxu görürdüm.Yuxuda görürdüm getmişəm süt dəryasına. Süt dəryasından keçdim yetişdim bir qalaya. Keçdim qalanın içərisinə, gördüm küp küpə söykəşib, özləri də dolu qızıl. Əl atdım qızıllardan çibimə dolduram, sən yuxudan oyatdın.

Dedim: "Qərdəş, bu yuxu dəyil. Dur ayağa, bəs hal-qəziyyə belədi".

Gəldik kələgin dibin sökdük gördük , bəli, doludur qızıllan. Onnarı basdırdıq. Gəldik kəndə. Xəlqin qoyunun tapşırdıq əllərinə ki, da biz çobanlıq eləmiyəciyik. Bir az ip, torba götürdük, gəldik daş kələgin yanına. Qərdəşim girdi içəri, qızıl küpələri bir-bir verdi eşigə. Axırınmıcısın verəndə şeytan məni tovladı ki, daş sal qərdəşin başına ölsün, qızılların hamısı özünün olsun. Bir daş dığırlatdım aşağı, düşdü qərdəşimin başına. Yel əsdi, tufan qopdu.Hava qaranlıqlaşdı. Göz-gözü görmədi. Mən üzüquylu düşdüm. Bir azdan sora ayıldım, gördüm, da gözlərim görmür. Qızıldan

da əsər yoxdur.O zamandan deyirəm , “insafın olsun”. Çünki o vaxtı qərdəşimi öldürməsəydim indi belə olmazdım.

Səhər çağı Hatəm Həzrət Süleyman xalçasın minər gələr əzançının evinə. Açar kor kişinin sirrin deyər. Əzançı deyər, bəs mən də öz sirrimi sənə deyərəm:

– Günlərin bir günündə mən çıxdım dama əzan verməyə, gördüm bir göyçək qız durub damda.Əzan verdim qurtuldu, qanad-qanad çaldı uçdu getdi. Sabah, birisi gün genə qız gəldi, əzan qurtarandan sora uçdu getdi.Axırda bir gün dedim: “Səni and verrəm səni, məni yaradan Allaha, de görüm, sən kimsən?”

Dedi:

– Mən Pəriyəm. Sənin əzanıvın səsin çox sevirəm. Hər gün gəlirəm qulaq asıram.

Dedim:

– Gəl səni alım.

Dedi:

– Bəni-adəmdə bəfa olmaz, sən məni saxlıya bilməzssən.

Dedim:

– Yox, elə deyil, saxlaram.

– Şərt elədi ki, mənim dalıma əl vurmuyasan. Bir də mən hər nə eləsəm dinməyəsən.

Dedim:

– Eybi yoxdur.

Mən bunu aldım. Bir middət keçdi, bir cüt oğlan doğdu. Bir gün vurdu nənəm noxoşladı öldü. Qız getdi çıxdı novdana, naqəddə ( nə qədər) dedik en gəl aşağı , gəlmədi. Gətirdik ölünü aparaq, başladı gülməyə. Güldü-güldü yıxıldı. Apardıq ölünü quyladıq. Qayıtdım evə, gördüm evi

yuyur, hirsləndim ki, mənim nənəm ölüb, sən niyə gülürsən, indi niyə evi yuyursan?

Dedi:

– Məyə şərt eləməmişik, hər nə eləsəm dinmiyəsən?

Sora başladı dedi ki, adam öləndə hər yan dizəcən qan olar. Mən çıxdım nərdivana ki, qana batmayam. Bir də sənin nənən ölməmişdən qabaq bir gün küfdə pişirmişdi. Eşşək başın uzatdı, mənə də. Bir küfdə atdı ağzına.Ölünün qabağında küfdə ağzınada atılıb düşürdü. Mən ona gülürdüm.

Da bir söz tapanmadım. Bir gecə də öz-özümə dedim: "Görəsən bunun dalında nə var ki!"Yatmışdı. Yavaş-yavaş əlimi apardım kürəyinə. Bir cüt qanad var idi. Elə ki, əlim dəydi, dik gözlərin açdı dedi:

– Gördün, deyirəm bəni-adəmdə bəfa olmaz?

Dedim:

– Bilmədim, əlim dəydi, güzəşt elə.

Saymadı. Durdu uşaqların da vurdu qoltuğuna, uçdu getdi. Mən qaldım yalqız. Hər nə qədər başıma, gözümə vurdum bir zad olmadı. İndi mən hər gün sevinə-sevinə çıxaram dama əzan verəm. İki uşağımı saxlar yanında, durar qabağımda. Ta mən əzanı qurtaranacan durar. Sora uçar gedər. Naqqədə yalvararam saymaz. Başıma, gözümə vuraram, huşdan gedərəm.

Hatəm durar gələr padşahın qızının yanına. Hamının siirini ona deyər.Yeddi gün, yedi gecə toy tutarlar. Qızın əlin tapşırarlar Hatəmin əlinə. Hatəm devlərdən aldığı süfrəni açar xəlq gəlsin, nə qədər yeyəcək yesin.

# MÜŞGÜLGÜŞA NAĞILI

Bir gün var idi, bir gün yox idi. Bir dana tikançı var idi. Bu tikançı hər gün gedərdi çölə, tikan yığardı, gətirərdi satardı, evinə çörək-mörək alardı. Bir gün bu tikançı gedər çölə, istər başlasın tikan dərməyə, görər bir göy atlı, göy əmmaməli gəldi. Atdan endi yerə. Atı tapşırdı tikançıya ki, bunu saxla, bu saat qayıdıram.

Tikançı atın cilovundan saxlar, gözlə, ha gözün var olsun ki, bu nə vaxt gələcək. Axşamüstü kişi gələr atı minər, dinməz-söyləməz çıxar gedər.

Tikancı axşam əliboş gələr evə.Arvad deyər:

– Kişi, bə hanı cörək?

Kişi deyər, hal-qəziyyə belədi.

Sabahısı gün genə kişi gedər çölə, genə başlar tikan dərməyə, görər haman atlı gəldi. Genə atlı atdan enər yerə, atı tapşırar tikançıya çıxar. Kişi istər desin ki, qərdəş, mənim işim-gücüm var. Amma üzündən gəlməz.

Axşam genə atlı gələr, dinməz-söyləməz atın minər gedər.

Kişi əliboş qayıdar evə. Arvad deyər:

– Kişi, hanı çörək?

Kişi deyər:

– Arvad, genə haman atlı gəldi axşamacan mətəl elədi. Axşam da bir pul vermədi getdi.

Deyər:

– Daş başiva düşsün, kişi, əyə o bir də biləsən görsən, bir zad al.

Sabah tikançı baltasın götürər gedər. Görər haman kişi gəldi. Atın tapşırdı ona, çıxdı getdi. Axşamüstü gələr atın minməyə, tikançı deyər:

– Bu gün də evə əliboş getsəm arvad üzümə qapı aşmaz.

Atlı deyər:

– Ətəyüvü aç.

Kişi ətəyin açar, atlı əl elər yerdən iki oğuc qum tökər ətəyinə. Deyər:

– Aman hər an müşkülgüşa al payla.

Kişi öz-özünə deyər: "Bizim bir işimizə bax". Amma da bir söz deməz. Qayıdar evə.

Yadına düşər: o hər, neçə aydı müşgülgüşa paylamamışam.

Bir abbası verər zindanvana, ona deyər ki, buna müşgülguşa al, payla dusdaqlara.

Zindanvan alar paylar.

Həmin gün padşahın qızı oturmuşdu otaqda, birdən görər pərdədəki quş uşdu gəldi gərdənbəndi dimdiyindən qoydu yerə, qayıtdı getdi yerinə.

Deyər:

– Bura bax, tacerin qızı deyərdi, biz inanmazdıq.

Kişini zindandan çıxardarlar.

Neçə gün sonra xəbər çıxar ki, gəmi qərq olmaq yalan idi, tacerin malları gəlir, genə tacir olar dövlətli bir kişi, da heş vaqt müşgülgüşa paylamaq yadından çıxmaz.

## MÜNDƏRİCAT


**Ön söz ............................................................................ 3**

**Giriş. Səməd Behrəngi və Bəhruz Dehqaninin ana dilində topladıqları Azərbaycan nağılları üzərində çalışmaları...................................... 10**

Həlalzada qərdəş ilə həramzada qərdəş........................... 14

Hacı Səyad qızı ............................................................ 19

Yeddi qız dədəsi, yeddi oğlan dədəsi ............................. 25

Altım top........................................................................ 32

Əkinçinin qızı ............................................................... 40

Qarı nənənin cücəsi......................................................... 45

Bəybilican ha, bəybilican! .............................................. 46

Pıs-pıslı bacı ................................................................. 50

Əzançı............................................................................ 54

Narxatın.........................................................................64

Məhəmməd Gülbadam..................................................... 70

Küp qarısı......................................................................76

Qıravıl Qərə Məmməd....................................................83

Əhməd tərəkəmə ........................................................... 100

Şah Abbasla pinəçi......................................................... 109

Vəzirlə zırnacı............................................................... 110

Arvadların pəxməligi ..................................................... 113

Qızılala balıq

.......................................................................................11

8

Dəmir əsa, dəmir başmaq ............................................... 129

Allaha fəlləlik ............................................................... 137

Çox olsa bir oğuc, az olsa yarım oğuc ........................... 139

Adı ilə budu .................................................................. 141

Barat nağılı ........................................................................ 147
Dəvə ilə tülkü........................................................................ 149
Şir ilə tülkü ........................................................................ 150
Tülkü gedir haca ................................................................. 151
Keçi, quzu, köpək, dana...................................................... 156
Tülkü ilə qurd ...................................................................... 160
Qurbağa nağılı ..................................................................... 167
Qarı ilə üç qızı .................................................................... 170
Qaynana................................................................................ 173
Tənbəl Məmməd ilə padşahın qızı .................................... 175
Cücənin çanqırı.................................................................... 179
Ah nağılı ............................................................................... 182
Ac siçan................................ ........................................... 190
Tor atan ya Gülüxəndan...................................................... 192
Səng səbir qolçağı, sən də? ................................................ 197
Pıs-pıslı Püstə xanım........................................................... 200
Ləvləyin ağa ........................................................................ 202
Qarı ilə qoca məzaq elir...................................................... 204
Ey vay hay........................ ................................................. 205
Gül sinavərə nə elədi, sinavər gülə nə elədi? ................... 213
Müşgülgüşa nağılı............................................................... 224

**Güney Azərbaycan folkloru,**
**III kitab.**
Bakı, “Elm və təhsil”, 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı:
Mətbəə kağızı:
Həcmi: 228 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutu Redaksiya-nəşr bölməsinin Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş, “Elm və təhsil” nəşriyyatında ofset üsulu ilə hazır deopozitivlərdən çap olunmuşdur.